# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*H.Əliyev*

*15 aprel 2017-ci il №13(8729)* www.muallim.edu.az **Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı** *muallim@edu.gov.az*


# İcbari təhsil tamamlandı, bəs sonra?

## IX sinfi bitirənlərin göstərdiyi nəticələrə uyğun alternativ variantları olacaq

Tükəzban Xəyyam qızı Osmanova bu il IX sinfi bitirənlərdəndir. Buraxılış imtahanlarının birinci mərhələsini uğurla başa vurub. Texniki problem olmasaydı, daha yüksək nəticələr göstərə biləcəyi qənaətindədir. Buna baxmayaraq, ümumi göstəricilərinin qənaətbəxş olacağına, bu imtahanlarda fərqlənəcəyinə əmindir.

Yeni təhsil proqramları ilə aparılan tədris prosesini başa vurmaqda olan T.Osmanova kimi minlərlə IX sinif şagirdinin bilik və bacarıqları ölçülür. Bu prosesin sonunda nə gözlənilir? İcbari təhsil tamamlanır, bəs sonra?

**Təmayülləşmə, onun məktəblərdə tətbiqi: ümumi mənzərə və problemlər**

Təmayülləşmə ümumi orta məktəbin orta təhsil səviyyəsini, yəni IX sinfi bitirən şagirdlərin təsnifatı - marağına, potensialına, hər hansı fənn üzrə uğurlu nəticələrinə görə seçilməsidir. Daha aydın desək, məktəblilər icbari təhsil dövründə bütün fənlər üzrə zəruri minimum biliklərə yiyələndilər. Bundan sonrakı təhsil pilləsində onlar yalnız maraq göstərdikləri fənlər üzrə mövcud biliklərini dərinləşdirəcəklər. Ona görə də növbəti mərhələdə onların istedadı, bilik və bacarıqları əsas götürüləcək.

⇨Ardı səh.3



## SABAH tələbələri unikal beynəlxalq təhsil proqramında iştirak edəcək

SABAH qrupları və "Carlsberg Azerbaijan" şirkəti "Young Global Pioneers" (YGP) beynəlxalq təhsil proqramında iştirak üçün namizəd seçiminə başlayır.

"YGP Talent Network" iyulun 23-dən avqustun 12-dək Tanzaniya və Zanzibarda təşkil ediləcək təlim turundan başlayacaq. Üç həftə ərzində planetin müxtəlif guşələrindən olan 20 həmyaşıd bir-birini daha yaxından tanımaq və dünya problemlərinin innovativ həll üsullarını hazırlamaq üçün birləşəcək. Tur iştirakçıları universitetləri və qabaqcıl müəssisələri ziyarət edəcək, yerli mədəniyyət və adətlərlə yaxından tanış olacaq, bölgədə mövcud problemlər və imkanlar haqqında məlumat toplayacaqlar. Həmçinin, SOS Uşaq kəndindən gənclərlə görüşəcək, safari-tura yola düşəcəklər.

Bu il müsabiqə "Carlsberg Fondu"nun bölməsi olan "Carlsberg Bequest"in dəstəyi ilə eyni anda Şərqi Avropa regionunun bir neçə ölkəsində - Rusiya, Belarus, Qazaxıstan və Azərbaycanda təşkil olunacaq. Beynəlxalq təhsil proqramı Azərbaycanda SABAH qrupları ilə eksklüziv tərəfdaşlıq çərçivəsində keçiriləcək.

Səyahət başa çatdıqdan sonra "Global Reflection" vebinarları kimi "Young Global Pioneers" proqramının bütün iştirakçıları Qlobal İstedadlar Şəbəkəsinin bir hissəsi olacaqlar. Həmin şəbəkənin əsasında daha sonra təlim və mədəni əlaqələrin möhkəmləndirilməsi yer alacaq.

"YGP Talent Network" — 19-25 yaşarası gələcək liderlər üçün beynəlxalq təhsil proqramının missiyası dünyanın ən istedadlı gənclərini birləşdirmək, onların dünyagörüşünü genişləndirmək, mədəniyyətlərarası kommunikasiya səviyyəsini artırmaq və dünya problemlərinin innovativ həll yollarını birlikdə tapmaq üçün qlobal düşünməyi öyrətməkdir.

Qalib 19-25 yaşlı (2017-ci il üçün), ingilis dilini yazılı və şifahi surətdə əla biliyi, dünyanı yaxşılığa doğru dəyişdirmək arzusu, məqsədyönlülük və öyrənmək həvəsi, "YGP Talent Network" Qlobal istedadlar şəbəkəsi çərçivəsində kommunikasiya və təlimin davam etdirilməsində marağı olan gənclərdən seçiləcək.

Müsabiqədə iştirak etmək üçün sənədləri aprelin 20-dək baku_news@baltika-baku.az ünvanına göndərmək lazımdır.

Dörd ölkədən olan dörd finalçı aprelin 28-də müəyyən olunacaq. "Young Global Pioneers" isə onların arasından Tanzaniya və Zanzibara gedəcək qalibi seçəcək.

Layihə haqqında youglo.org elektron ünvanında ətraflı məlumat almaq mümkündür.

## İsveçrəli ekspert tələbələr üçün seminar keçib

İsveçrənin tanınmış media və PR eksperti, pedaqoq Aleksandra Stark Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində olub. Öncə dekan, professor Cahangir Məmmədli, Azərbaycan Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli, beynəlxalq jurnalistika kafedrasının müdiri, professor Həmid Vəliyev, fakültənin ingilisdilli qruplarının müəllimlərinin iştirakı ilə keçirilən görüşdə İsveçrə mətbuatı, ənənəvi və sosial media ilə bağlı fikir mübadiləsi aparılıb.

Sonra Aleksandra Stark tələbələr üçün seminar keçib. Azərbaycan Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli bildirib ki, seminar Mətbuat Şurası ilə İsveçrənin Azərbaycandakı səfirliyinin birgə əməkdaşlığı çərçivəsində baş tutur, əsasən onlayn media, media marketinqi və sosial şəbəkələr mövzusunda mühazirələr təqdim olunur.

30-a yaxın tələbənin qatıldığı seminarda ekspert A.Stark iştirakçılara yeni media, informasiya texnologiyalarının inkişafının doğurduğu mənzərənin jurnalist fəaliyyətinə təsiri, etik standartlar və sair mövzularda məlumatlar verib, sualları cavablandırıb. Seminar qarşılıqlı fikir mübadiləsi şəraitində keçib.

## "Qızıl Bayt 2017"-nin ölkə qalibləri bəlli oldu

IT STEP akademiyasında "Qızıl Bayt 2017" (Golden Byte) beynəlxalq kompüter çempionatının ölkə mərhələsi üzrə final yarışı keçirilib. 100 nəfər finalçının qatıldığı yarışda "Oyun dizaynı" nominasiyası üzrə SABAH qrupları tələbəsi Ağababa Bağırovun hazırladığı "The Little Hero" oyunu 1-ci yer tutub. Qalib aprelin 22-də Kiyev şəhərində keçiriləcək beynəlxalq finalda ölkəmizi təmsil edəcək.

"Web-layihələr" nominasiyası üzrə SABAH qrupları tələbələrinin "Zoom-X" layihəsi 3-cü yerə layiq görülüb.

Çempionat STEP Kompüter Akademiyasının təşkilatçılığı ilə keçirilir.

Yarışların keçirilməsində məqsəd informasiya texnologiyaları sahəsinin inkişafını sürətləndirmək, istedadlı gəncləri üzə çıxarmaq, onların tanınmış mütəxəssislərlə ünsiyyət yaratmasını təmin etmək və layihələrinə dəstək verməkdir.

Bu il Təhsil Nazirliyinin dəstəyi ilə azərbaycanlı gənclər ilk dəfə olaraq çempionatda iştirak edir.

Çempionat proqram, innovasiya layihələri, sistem inzibatçıları, mobil proqramlar, oyun və oyun personajlarının yaradılması, web-layihələr, qısa film, məlumat bazaları ilə iş üçün proqram, 10-17 yaşlı məktəblilərin layihələri nominasiyaları üzrə keçiriləcək.

9 ildir ki, keçirilən "Qızıl Bayt" çempionatının tərəfdaşları "Microsoft", "InterSystems", "Intel", "Dell", "Stearling Studio" şirkətləridir.

İndiyədək çempionata Rusiya, Ukrayna, Belarus, Qazaxıstan və Estoniya kimi ölkələrdən təxminən 24 min iştirakçının 6000-dən çox işi təqdim olunub.

## "Sanki dünyanın böyük bir probleminin həlli yolunu mən tapacam..."



"Bizim yalnız bir planetimiz var. Başqa gedəcək yerimiz yoxdur. Yaradıcı enerjimizdən düzgün istifadə etsək, planetimizi və bir-birimizi, bizə lazım olanları, əlimizdə olanları qorusaq, başqa yerə getməyə ehtiyacımız qalmayacaq". Təhsil işçisi və "Dünyada ən böyük dərs"in müəllifi Ser Ken Robinsona məxsus bu fikir artıq minlərlə insanın həyat amalına çevrilib.

Qeyd edək ki, "Dünyada ən böyük dərs" - BMT tərəfindən qəbul edilən 17 qlobal davamlı inkişaf məqsədinə həsr olunan birgə təhsil layihəsidir. Həmin 17 məqsəd - kasıb olmayan dünya, aclıq olmayan dünya, sağlam həyat tərzi, keyfiyyətli təhsil, qadın və kişilərin hüquqlarının bərabərliyi, təmiz su və su qovşaqları, özünüyeniləyən enerji mənbələri, iş yerlərinin artması və iqtisadi tarazlıq, innovasiya və infrastruktur, tarazlığı pozulmamış dünya, şəhərlərin təhlükəsizliyi, ehtiyaca uyğun tələbatlar, iqlim dəyişikliyi ilə mübarizə, dəniz resurslarının qorunması, ekosistemin qorunması, sülh və hüququn aliliyi, məqsədlərə birgə nail olma - Azərbaycan məktəblərində də "böyük dərs"lərin mövzusu olur.

⇨Ardı səh.4

## Bu sayımızda


**41 rayonu əhatə etməklə 100-ə yaxın modul tipli məktəb tikiləcək** ⇨səh.2

**İnternat məktəbinin animasiya filmi çəkənləri** ⇨səh.6

**Təhsilin diaqno(stikası)zu...** ⇨səh.7

**Əcnəbi tələbələr: UNEC-də keyfiyyətli təhsil alırıq** ⇨səh.9

**Fərid Ağayev: "Düşmən təmsilçisini 15 saniyəyə nokaut etdim"** ⇨səh.14

## RƏSMİ XRONİKA



- Aprelin 14-də Prezident İlham Əliyev müqəddəs Pasxa bayramı münasibətilə Azərbaycanın pravoslav xristian icmasını təbrik edib.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 13-də Ukraynanın Kiyev Şəhər Dövlət Administrasiyasının başçısı Vitali Kliçkonu qəbul edib.
- Dövlət başçısı aprelin 11-də Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Türkiyə Respublikasının sabiq Prezidenti Abdullah Gülü qəbul edib.
- Azərbaycan Prezidenti İlham Əliyev aprelin 10-da G.F.Fərhadovun 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.
- Dövlət başçısı aprelin 10-da inşaat işçilərinin bir qrupunun "Tərəqqi" medalı ilə təltif edilməsi, bir qrupuna isə "Əməkdar mühəndis" fəxri adının verilməsi haqqında sərəncamlar imzalayıb.
- Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. Dövlət başçısı iclasda giriş və yekun nitqləri söyləyib.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 10-da Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
- Prezident İlham Əliyev aprelin 9-da Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisiyə ölkəsində törədilmiş partlayışlar nəticəsində çoxlu insan tələfatı ilə əlaqədar başsağlığı verib.

# 41 rayonu əhatə etməklə 100-ə yaxın modul tipli məktəb tikiləcək

## Təhsil müəssisələrinin infrastrukturu yeniləşdirilir

**Yusif ƏLİYEV**

"Bu il və gələn il Azərbaycanda bir dənə də olsun qəzalı məktəb qalmamalıdır". Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin aprelin 10-da keçirilən və 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında səsləndirdiyi bu fikir təhsil müəssisələrinin infrastrukturunun yeniləşdirilməsinin hər zaman dövlətin diqqət mərkəzində olduğunu bir daha sübut edir. Dövlət başçısı iclasdakı yekun nitqində sosial infrastruktur layihələrin icrasından danışarkən diqqəti daha çox qəzalı məktəblərə yönəldib və bildirib ki, bu məktəblərin yerində artıq modul tipli 3 məktəb tikilib və bu tipli əlavə 12 məktəbin də tikintisi başa çatdırılır. Bakı şəhərində məktəblərin böyük əksəriyyətinin artıq təmirli olduğunu, yeni məktəblər tikildiyini deyən Prezident İlham Əliyev təmirə ehtiyacı olan məktəblərdə də bu məsələlərin öz həllini tapdığını diqqətə çatdırıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin təhsilə, xüsusən də təhsil müəssisələrinin infrastrukturunun yeniləşdirilməsinə göstərdiyi böyük diqqət sayəsində son illər məktəb tikintisi ölkəmizdə prioritet sahə hesab edilib, bu istiqamətdə xüsusi Dövlət Proqramları qəbul edilərək həyata keçirilib. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunmuş Dövlət Proqramlarında da məktəblər üçün yeni binaların tikilməsi, mövcud məktəblərin əsaslı şəkildə yenidən qurulması və əlavə korpusların tikilməsi əsas yerlərdən birini tutub.

Məktəblərin infrastrukturunun yeniləşdirilməsi istiqamətində Heydər Əliyev Fondunun da böyük xidmətləri olub. Fondun təşəbbüsü ilə paytaxtda və regionlarda yüzlərlə yeni məktəb, uşaq bağçası, uşaq evi, internat məktəb binası tikilib istifadəyə verilib, əsaslı təmir və bərpa edilib, ən müasir avadanlıqlarla təchiz olunub.

Təhsil Nazirliyinin Əsaslı Tikinti və Təchizat İdarəsindən aldığımız məlumata görə, son 13 ildə respublika üzrə 3000-ə yaxın məktəb tikilib, yenidən qurulub və əsaslı təmir edilib. Məktəb tikintisi və təmiri işləri hazırda da sürətlə davam etdirilməkdədir. Belə ki, təkcə ötən il ölkə üzrə 29 məktəb, o cümlədən Təhsil Nazirliyinin sifarişi ilə 7 məktəb tikilib istifadəyə verilib, 101 məktəbdə əsaslı, 384 məktəbdə isə cari təmir işləri aparılıb. 2017-ci ildə dövlət büdcəsinin investisiya xərcləri hesabına Təhsil Nazirliyinin sifarişi ilə Bakı şəhərində 1, regionlarda isə 2 məktəbin tikintisinin başa çatdırılması nəzərdə tutulub.



Qəzalı məktəblər üçün yeni binaların tikilməsi xüsusilə diqqət mərkəzindədir. 2017-ci ilin I rübü ərzində qəzalı məktəblərin yerində 3 modul tipli məktəb tikilib, ilin sonunda isə 41 rayonu əhatə etməklə 100-ə yaxın modul tipli məktəbin tikilməsi nəzərdə tutulub. Bu tip məktəblərin digər məktəblərdən üstünlükləri qısa müddət ərzində istənilən relyefdə quraşdırılması, daşınma, quraşdırma və sökülməsinin asanlığı, istilik itkisinin az olması, rütubətliliyin olmaması, eləcə də şagird sayına uyğun olaraq sinif otaqlarının asanlıqla azaldılıb-artırılmasından ibarətdir.

Araşdırmalar göstərir ki, hazırda ölkə üzrə 250-yə yaxın qəzalı məktəb var və yaxın illərdə dövlət büdcəsindən bu məqsədlərlə vəsait ayrıldıqca onlar da yeniləri ilə əvəz olunacaq.

# Məzunlar UNEC-də

UNEC-in Beynəlxalq İqtisadiyyat Məktəbində məzunlarla görüş keçirilib. Beynəlxalq İqtisadiyyat Məktəbinin direktoru Anar Rzayev məzunlara UNEC-dəki son yeniliklərdən söz açıb. Elektron universitet modeli, diferensial əməkhaqqı sistemi, ikili diplom proqramları, yeni sillabuslar barədə ətraflı məlumat verib.

Sonra məzunlar tələbələrlə görüşüblər. Görüşdə məzunlar tələbələrə karyera seçimi, bu yolda qarşılaşacaqları çətinliklər və əmək bazarının mövcud durumundan bəhs ediblər. Eyni zamanda, magistratura proqramının seçimi haqqında tövsiyələrini veriblər. Məzunlar öz magistr təhsillərindən söz açaraq, məzun olduqları universitet barədə tələbələrə məlumat veriblər.

Görüşdən məmnun ayrılan məzunlar universitetdə vahid məzunlar şəbəkəsinin yaradılmasını təklif ediblər. Qeyd edək ki, görüşdə iştirak edən məzunlar arasında Cambridge, LSE, Edinburgh kimi dünyanın nüfuzlu universitetlərində magistr təhsili alan, BMT, Engin, Xəzər Gəmiçilyi kimi qurumlarda çalışanlar var.

# Müəllimlər özlərini sınaq imtahanlarında yoxlaya bilərlər

## *İlk sınaq imtahanında 200 nəfər iştirak edib*

**Yusif ƏLİYEV**

Azərbaycan Respublikası Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi müəllimlərin işə qəbulu imtahanına hazırlaşanlar üçün ilk dəfə olaraq elektron sınaq imtahanları keçirir. İmtahanlar 17 ixtisas üzrə həm Azərbaycan, həm də rus bölməsi üçün nəzərdə tutulub. Sınaq imtahanlarında, işə qəbul imtahanlarında olduğu kimi, iştirakçılara 60 sual (test) təqdim olunur. İşə qəbul imtahanlarının sualları çərçivəsində hazırlanmış test tapşırıqlarından 40-ı ixtisas biliklərinə, 10-u kurikuluma, 10-u isə məntiqə aiddir. Elektron sınaq imtahanının üstünlüyü ondan ibarətdir ki, iştirakçılar imtahan bitən anda öz nəticələrini, səhv və düz yazdıqları sualları görə bilirlər. Sınaq imtahanları ödənişlidir. Ödəniş haqqı 6 manatdır. Sınaq imtahanlarından yüksək bal toplayıb hazırlaşmaq üçün Təhsil Texnologiyaları Mərkəzinin müəllim işə qəbul kurslarında iştirak etmək istəyənlərə güzəşt nəzərdə tutulur. Güzəşt 3 nəfərə-I, II, III yerləri tutanlara şamil olunur. Belə ki, hər yeni sınaq imtahanında I yeri tutan ödənişli əsasda keçirilən kurslarda pulsuz iştirak edir. II yeri tutana ödəniş haqqının 50 faizi, III yeri tutana isə 30 faizi qədər güzəşt edilir.

Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzindən aldığımız məlumata görə, ilk elektron sınaq imtahanı aprelin 2-də paytaxtdakı 220 nömrəli məktəb-liseydəki elektron imtahan mərkəzində baş tutub. Sınaq imtahanı real imtahanda olduğu kimi kompüter vasitəsilə həyata keçirilib. İmtahanda Bakı və Sumqayıt şəhərləri daxil olmaqla respublikanın 13 bölgəsindən 200-ə yaxın iddiaçı iştirak edib.



Mərkəz elektron sınaq imtahanlarına marağı nəzərə alaraq onları ayda 2 dəfə keçirməyi planlaşdırır. Növbəti elektron sınaq imtahanları aprelin 16-sı və 23-də keçiriləcək. Gələcəkdə müraciətlər nəzərə alınaraq sınaq imtahanlarının regionlarda da təşkil olunması nəzərdə tutulub.

Qeyd edək ki, Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi xeyli müddətdir müəllimliyə işə qəbul olmaq istəyənlər üçün kurslar da təşkil edir. Ödənişli əsaslarla təşkil olunan bu kurslarda məqsəd müəllimlərə işə qəbul üzrə müsabiqə imtahanlarına hazırlaşmaqda kömək göstərməkdir. Kurslar ilboyu davam edir. Hər kursun davametmə müddəti isə 3 aydır. Kurslara yazılan müdavimlər burada bütün ixtisaslar üzrə işə qəbul imtahanına düşən testlərin məzmununa uyğun hazırlıq keçirlər.

# Ən yüksək bal toplayan tələbələr

*Magistratura imtahanının I mərhələsində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı Mühəndislik Universitetinin tələbələri mümkün 100 baldan 99 bal toplayıb. Həmin tələbələrin təəssüratlarını təqdim edirik:*

**Qalib SARAYEV,**
*Bakı Mühəndislik Universitetinin tələbəsi*



Balakən şəhəri humanitar və texniki təmayüllü liseyi qızıl medalla bitirib, 667 balla ali məktəbə daxil olub. Magistraturaya qəbul imtahanının birinci mərhələsində mümkün 100 baldan 99 bal toplayıb: "Məqsədim ən yüksək bal toplayaraq birinci olmaq idi. İmtahandan sonra ümidim var idi ki, yüz bal toplamışam. Amma məni birincilikdən cəmi bir bal ayırdı. Təhsilimi Bakı Mühəndislik Universitetində davam etdirəcəyəm. Bundan sonra məqsədim öz ixtisasım üzrə peşəkar olmaq üçün çalışmaqdır. Hesab edirəm ki, təhsilim hələ qarşıdadır. İxtisasım üzrə irəli gedib, dünyanın tanınmış İT şirkətlərində çalışmaq istəyirəm".

**Fəxri QURBANZADƏ,**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi*



Bərdə rayon Qarağacı kənd tam orta məktəbini bitirib, 641 balla ali məktəbə daxil olub. Magistraturaya qəbul imtahanının birinci mərhələsində 99 bal toplayıb: "Akademiyada dərslərə hər zaman hazırlıqlı olmuşam. Magistraturaya hazırlaşan zaman da çalışırdım ki, məsuliyyətli olum. Çünki məqsədim var idi, maksimum bal toplamalı idim. Sualların hamısını cavablandırmışdım.Sadəcə cəmi birində diqqətsizlik etdim. İxtisasım beynəlxalq münasibətlərdir. Elə ixtisasım üzrə də Dövlət İdarəçilik Akademiyasında təhsilimi davam etdirəcəyəm".

**Yaşar NƏSİBOV,**
*Bakı Mühəndislik Universitetinin tələbəsi*



2012-ci ildə Şəki şəhər Nizami Gəncəvi adına 7 saylı tam orta məktəbi qızıl medalla bitirib, 679 balla ali məktəbə qəbul olub. 5 il ərzində Prezident təqaüdü ilə təhsil alan Yaşar magistraturaya qəbul imtahanında 99 bal toplayıb: "Respublika birincisi olmağı qarşıma məqsəd qoymuşdum. Uğur qazanmaq üçün ailəmin, yaxınlarımın, müəllimlərin dəstəyi çox böyük oldu. Əgər qarşına məqsəd qoyursansa, onun üçün çalışmaq lazımdır və o zaman nəticəni mütləq görmək olur. Dünya iqtisadiyyatı ixtisası üzrə təhsil alıram. Təhsilimi Bakı Mühəndislik Universitetində davam etdirəcəyəm".

# SABAH qruplarının tələbələri üçün güzəştli dil kursları

Aprelin 14-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) SABAH qruplarının tələbələri üçün Alman Akademik Mübadilə Xidmətinin (DAAD) təşkil etdiyi güzəştli dil kursları haqqında təqdimat keçirilib.

Tədbirdə SABAH qruplarının İcra komitəsinin rəhbəri Şahin Seyidzadə, DAAD-ın Bakıdakı Məlumat Mərkəzinin rəhbəri Stefani Düfo (Stefanie Dufaux), Almaniyanın Höte adına Dövlət Mədəniyyət İnstitutunun rəsmi tərəfdaşı olan Alman Dili Tədrisi Mərkəzinin direktoru Zəhra Əliyeva, DAAD Bakı ofisinin əməkdaşı Rəna Hüseynova və Almaniyanın Kiel Universitetinin müəllimi Azər Əliyev iştirak edib.

SABAH-ın təkcə tədrisin keyfiyyətini qaldırmaqla deyil, həm də tələbələrin akademik fəaliyyətlərini inkişaf etdirə bilmələri üçün geniş imkanlar yaratdığını deyən Şahin Seyidzadə bu dil kurslarının SABAH tələbələri üçün xüsusi şərtlərlə güzəştli xidmət təklif etdiyini vurğulayıb. Alman dilinin tələbələrin öz karyeralarını peşəkar səviyyədə inkişaf etdirə bilmələri üçün vasitə olduğunu bildirən Ş.Seyidzadə bu dili öyrənməklə tələbələrin öz gələcəklərinə investisiya qoymaq şansı əldə edəcəklərini qeyd edib.

Təhsilin insan həyatında geniş imkanlar açan bir şans olduğunu deyən Stefani Düfo DAAD-ın yay məktəbləri, dil kursları və təqaüd proqramları haqqında tələbələrə məlumat verib.

Alman Dili Tədrisi Mərkəzinin direktoru Zəhra Əliyeva və DAAD-ın əməkdaşı Rəna Hüseynova Almaniyada təhsil, dil kursları və tələbələrə təklif edilən güzəştli kurslar haqqında geniş təqdimatla çıxış ediblər.

# "Peşəkar ol" layihəsinə başlanılıb

Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu (TİPİİ) pedaqoji ixtisaslar üzrə təhsil alan sonuncu kurs tələbələri və magistrlər üçün "Peşəkar ol" proqramına start verib.

Layihənin məqsədi pedaqoji ali təhsil alan tələbələrdə qeyri-standart təfəkkürü inkişaf etdirmək, yeniliyə açıq təhsil işçiləri formalaşdırmaq, onlarda peşəyə loyallıq tərbiyə etmək, eləcə də xüsusi fərqlənənləri institutla əməkdaşlığa cəlb etməkdir.

"Peşəkar ol" proqramı "Oyrətmək iddiası olanın öyrənmək əzmi gərək" devizi altında təşkil olunub. Proqram üzrə seçilən tələbələr "Müasir təhsilin xüsusiyyətləri", "Təhsilin məzmunu, kurikulum, tədris metodikası", "Şagird-müəllim münasibətləri", "İKT-nin təhsilə tətbiqi", "Auditoriya ilə iş" və digər mövzulu seminarlarda iştirak edəcəklər.

"Media savadlılığının əsasları" adlı modula isə proqramda xüsusi yer ayrılır. Bu modul üzrə müxtəlif məzmunlu və formalı informasiyanı axtarmaq, təhlil etmək, qiymətləndirmək, habelə mediamətn hazırlamaq bacarıqları öyrədiləcəkdir.

Seminarlar TİPİİ-nin əməkdaşları və dəvət olunmuş mütəxəssislər tərəfindən keçirilir. İki ay davam edəcək proqramı uğurla bitirən iştirakçılara sertifikat veriləcəkdir.

# Təhsil Nazirliyində görüş



Aprelin 8-də təhsil naziri Mikayıl Cabbarov Estoniya Respublikasının dövlət idarəçilik naziri, Azərbaycan-Estoniya Hökumətlərarası Komissiyasının sədri Mixail Korb ilə görüşüb.

Görüşdə Azərbaycan və Estoniya arasında təhsil sahəsində əlaqələrin cari vəziyyəti və inkişafı, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın müəyyən etdiyi hədəflərə uyğun olaraq, gələcək əməkdaşlığın perspektivləri müzakirə edilib.

# "Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

"Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2017-ci il tarixli 2597 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** "Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2017-ci il tarixli 2597 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Təhsil Nazirliyinin Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).

**2.** Naxçıvan MR Təhsil Nazirliyi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, rayon (şəhər) təhsil şöbələri, ali təhsil müəssisələri, Təhsil Nazirliyinin tabeliyindəki ümumi təhsil, orta ixtisas təhsili və yaradıcılıq profilli məktəbdənkənar təhsil müəssisələrinin rəhbərləri:

2.1. Molla Pənah Vaqifin yubileyi ilə bağlı təsdiq olunmuş Tədbirlər Planının yerinə yetirilməsini təmin etsinlər.

2.2. əmrin icrası ilə bağlı görülmüş işlər barədə 20 dekabr 2017-ci il tarixədək Təhsil Nazirliyinə hesabat təqdim etsinlər.

**3.** İnformasiya şöbəsi (E.Əliyev) əmrin əlavəsi ilə birlikdə çoxaldılıb aidiyyəti müəssisələrə göndərilməsini, əmrin əlavəsi ilə birlikdə Təhsil Nazirliyinin internet səhifəsində yerləşdirilməsini və "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını təmin etsin.

**4.** Əmrin icrasına nəzarət nazir müavini C.Bayramova həvalə olunsun.

**Mikayıl CABBAROV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*7 aprel 2017-ci il*

# Məktəblilər arasında yarışlar davam edir





IV İslam Həmrəyliyi Oyunlarının məktəblilər arasında təbliğinə həsr olunmuş kütləvi idman yarışları davam edir.

İxtisaslaşmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Gimnastika Məktəbində akrobatika gimnastikası, Xaçmaz Olimpiya İdman Kompleksində sərbəst güləş və yunan-Roma güləşi, Cəlilabad Olimpiya İdman Kompleksində basketbol, Şirvan Olimpiya İdman Kompleksində taekvando, Lənkəran Uşaq-Gənclər İdman Məktəbində atletika idman növləri üzrə zona yarışları keçirilib.

İxtisaslaşmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Gimnastika Məktəbində keçirilən yarışın açılış mərasimində təhsil nazirinin müavini Firudin Qurbanov, idman ictimaiyyətinin nümayəndələri iştirak edib.

Tədbirdə çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov idmançıları təbrik edib, IV İslam Həmrəyliyi Oyunlarının mahiyyətini məktəblilər arasında təbliğ etmək məqsədi ilə keçirilən yarışların şagirdlər arasında idmana meyil və marağın gücləndirilməsində, idmanın kütləviliyinin artırılmasında əhəmiyyətli rol oynadığını bildirib.

700 nəfərə yaxın məktəbli idmançının qatıldığı yarışlarda sərbəst güləş idman növü üzrə I yerə Xaçmaz, II yerə Siyəzən, III yerə Abşeron, yunan-Roma güləşi idman növü üzrə I yerə Sumqayıt, II yerə Abşeron, III yerə Qusar, basketbol idman növü üzrə I yerə Cəlilabad, II yerə Lənkəran, III yerə Lerik, taekvando idman növü üzrə I yerə Zərdab, II yerə Laçın, III yerə Saatlı, atletika idman növü üzrə I yerə Lənkəran, II yerə Salyan, III yerə Astara, akrobatika gimnastikası idman növü üzrə I yerə Səbail, II yerə Nizami, III yerə Suraxanı rayon və şəhərlərin komandaları layiq görülüb.

Qaliblər diplom və medallarla təltif edilib.

Kütləvi idman tədbirlərinin keçirilməsində məqsəd IV İslam Həmrəyliyi Oyunlarının proqramına daxil olan idman növlərini məktəblilər arasında təbliğ etmək, onların idmana marağını artırmaq, məktəbliləri sağlam həyat tərzinə cəlb etməkdən ibarətdir.

Yarışlar ölkənin 76 şəhər və rayonu əhatə olunmaqla 6 zona və 11 idman növü - sərbəst güləş, yunan-Roma güləşi, cüdo, taekvando, karate, boks, atletika, stolüstü tennis, basketbol, akrobatika gimnastikası, bədii gimnastika üzrə keçirilir. Kütləvi idman tədbirlərinə 6 mindən çox şagirdin qatılması gözlənilir.

Yarışlar aprelin 26-da başa çatacaq.

# İcbari təhsil tamamlandı, bəs sonra?

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

### Təhsildə kütləviliyin təmin olunması əhəmiyyətli addımdır

Hazırda 4 təmayül nəzərdə tutulub: texniki, riyaziyyat- iqtisadiyyat, humanitar və təbiət fənləri. Hər birinin tədris planında 9-10 fənn yer alıb. Şagirdlərə yalnız öz seçdikləri fənlər tədris olunacaq. Bundan başqa, onların meyil və maraqlarına uyğun kurslar da təşkil ediləcək.

Məlumat üçün qeyd edək ki, sözügedən dəyişiklik - təmayülləşmənin tətbiqi 2009-cu ildə təsdiq edilən "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda əksini tapıb və ondan sonrakı digər sənədlərdə də təsbit olunub. 2013-cü ildə Azərbaycan Prezidentinin təsdiq etdiyi "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da vacib vəzifə kimi qarşıya qoyulub. Qanunun qəbulundan 2 il sonra pilot qaydada 5 məktəbdə tətbiqinə başlanılıb. Sonradan bu prosesə 3 məktəb də qoşulub. 2011-ci ildən bu yana proses 182 məktəbdə pilot qaydada həyata keçirilib və günün mənzərəsi göstərir ki, layihə bütün regionları əhatə edir.



"Azərbaycan müəllimi" qəzetinə açıqlamasında Təhsil Nazirliyinin şöbə müdiri Aydın Əhmədov mövcud durumu dəyərləndirərək bildirib ki, pilot qaydada həyata keçirilən prosesin sonunda bütün regionlar və şəhərlər üzrə ümumi mənzərə aydınlaşıb: "2017-2018-ci dərs ilində ümumtəhsil məktəblərində təmayülləşmənin tətbiqi ilə bağlı artıq 182 məktəbin təcrübəsi var. Ortaya çıxan problemlərin həlli məqsədilə Təhsil Nazirliyi müvafiq addımlar atır. Aparılan genişmiqyaslı təşkilati işlərin nəticəsi olaraq deyə bilərik ki, bütün regionlar və şəhərlər üzrə ümumi mənzərə aydındır. Artıq hansı məktəbdə neçə sinif açıla bilər, nə qədər uşaq cəlb oluna bilər və s. məsələlərdə qəti qənaət mövcuddur".

### 3 nəfərdən biri təmayülləşməyə cəlb oluna bilər

A.Əhmədov ortaya çıxan problemlərdən də danışıb: "Bir sıra məktəblərdə buraxılış siniflərinin sayı azdır. Halbuki təmayül siniflərin təşkilində paralelliyin təmin olunması vacib şərtdir. Odur ki, bu yeniliyin hər hansı məktəbdə uğurla tətbiqi üçün orada siniflərin sayı çox olmalıdır ki, paralel siniflərdən eyni təmayüllü uşaqları seçmək mümkün olsun".

Hesablamalara görə, məktəbdə hər 3 şagirddən biri təmayülləşməyə cəlb oluna bilər.

### Təhsildən kənarda qalan olmasın

Amma yerdə qalanların da təhsil məsələsinin necə həll ediləcəyi maraq doğurur. A.Əhmədovun fikrincə, narahatlıq üçün heç bir əsas yoxdur. Peşə yönümlü təhsilə istiqamətlənənlərlə yanaşı, məktəbdə qalıb adi siniflərdə təhsil almaq istəyənlərə də şərait yaradılacaq. Hamının təhsil hüququnun qorunması məqsədi ilə təmayülləşməyən siniflərin təşkili də nəzərdə tutulub. Bir sözlə, real nəticə bundan ibarət olacaq ki, icbari təhsil pilləsini bitirənlərin hamısı bir yolla, eyni xətlə getməyəcək. Onların qarşısında göstərdiyi nəticələrə uyğun olaraq alternativ variantlar qoyulacaq. Peşə məktəblərinə, ya da kolleclərə getmək istəyənlər, təmayül siniflərdə təhsil alanlar, yaxud adi siniflərdə orta təhsilini davam etdirənlər olacaq. Bu istəklərin hər biri nəzərə alınacaq. Azərbaycanda təhsil siyasətinin əsas məqsədi də məhz budur: təhsildən kənarda qalan olmasın.

### Təhsilin keyfiyyətinin artırılmasında təmayülləşmənin xüsusi rolu olacaq

Təmayülləşmə, əslində, bir yenilikdir. Ancaq böyük bir təcrübəyə əsaslanır. Belə ki, uşaqların istedadına, marağına və s. görə təsnifatı təcrübəsi illər əvvəl də olub. Məsələn, ötən əsrin 70-ci illərindən başlayaraq, ayrı-ayrı fənlər üzrə təmayüllü siniflər təşkil olunub. Uzun illər texniki və ya humanitar, hətta ayrı-ayrı xarici dillərin dərindən mənimsənilməsi təcrübəsi mövcud olub. Üstəlik, özünü doğrultduğundan böyük etimad da qazanıb. Sonrakı illərdə hətta təmayüllü məktəblər də təşkil olunub. Riyaziyyat, kimya-biologiya və başqa fənlər üzrə komplektləşən və uğur qazanaraq son illərə qədər fəaliyyətini davam etdirən liseylərin sayı az deyil. Bu proses zamanında yaxşı nəticə verib və özünü daha çox ali məktəblərə qəbulun nəticələrində göstərib. İndiki halda həmin təcrübənin daha böyük miqyasda, bütün regionlarda hər məktəbə tətbiqindən söhbət gedir ki, bu da narahatlıq üçün deyil, əksinə, təhsilin keyfiyyətinin artırılmasında təmayülləşmənin xüsusi roluna inanmaq üçün əsas verir.

# ADU Frankofoniya Universitet Agentliyinin üzvü seçilib

Azərbaycan Dillər Universiteti (ADU) dünyanın 100-dən çox ölkəsində fəaliyyət göstərən və 850-dən çox universiteti birləşdirən Frankofoniya Universitet Agentliyi şəbəkəsinin üzvü seçilib. Bu barədə Frankofoniya Universitet Agentliyinin Mərkəzi və Şərqi Avropa üzrə direktoru Mohamməd Ketatanın ADU-nun rektoru vəzifəsini icra edən professor Əfqan Abdullayevə ünvanlanmış məktubunda bildirilir. Azərbaycana səfəri çərçivəsində ona göstərilən xoş münasibətə görə professor Ə.Abdullayevə təşəkkürünü bildirən M.Ketata bu üzvlüyün ADU-ya fransızdilli insanlar üçün bütün maliyyə dəstəyindən yararlanmağa imkan yaratdığını vurğulayıb.

Qeyd edək ki, aprelin 4-də ADU-da M.Ketatanın iştirakı ilə Frankofoniya Mərkəzinin açılış mərasimi keçirilib. Mərkəzin rəhbəri filologiya elmləri doktoru Gülnarə Sadıxovadır.

Məlumat üçün bildirək ki, Frankofoniya Universitet Agentliyi 1961-ci ildə Kanadanın Monreal şəhərində yaradılıb. 8 dekabr 2015-ci ildən Jean-Paul de Gaudemar tərəfindən idarə olunur. Dünyada 18 regional ofis və nümayəndəliyi var. Təşkilat yarandığı gündən fransız dilində elm və tədqiqat sahələri üzrə araşdırmalar aparan tələbə və müəllimləri dəstəkləyir. İl ərzində 2000-ə yaxın təqaüd proqramı təklif edir. Başda Fransa olmaqla, Kanada, Belçika, İsveçrə və digər fransızdilli dövlətlərin dəstək verdiyi təşkilatın illik büdcəsi 40 milyon avrodan çoxdur. ADU indiyədək həmin agentlikdə müşahidəçi qismində iştirak edib.

# Danışıq Klubları fəaliyyətə başlayıb

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində olan 60 ümumi təhsil məktəbində İngilis dilində Danışıq Klubları fəaliyyətə başlayıb.

İngilis dilində Danışıq Klublarının yaradılmasında məqsəd müxtəlif yaş qruplarından olan şagirdlərin məktəbdə əldə etdikləri xarici dil biliklərini praktiki danışıq məşğələləri vasitəsilə daha da möhkəmləndirmək, məktəblilərin ingilis dilində fikirlərini düzgün və səlis ifadə etməsinə dəstək vermək, ünsiyyət vərdişlərini təkmilləşdirmək və xarici dildə ünsiyyət komplekslərini aradan qaldırmaqdan ibarətdir.

İctimai əsaslarla məktəb daxilində fəaliyyət göstərən danışıq klublarında I-XI sinif şagirdləri könüllü iştirak edirlər.

Qeyd edək ki, klubların səmərəli fəaliyyəti və ümumi təhsil məktəblərinə lazım olan dəstəyin göstərilməsi üçün paytaxtdakı pilot məktəblərin ingilis dili müəllimləri Bakı Şəhəri üzrə Təhsil İdarəsi və Amerika səfirliyinin birgə əməkdaşlığı çərçivəsində həyata keçirilən "Ümumi təhsil məktəblərində İngilis dilində Danışıq Klublarının yaradılması" layihəsi çərçivəsində təlimlərə cəlb olunub.

Fəaliyyətdə olan Danışıq Klublarını təlimləri müvəffəqiyyətlə tamamlamış dil müəllimləri idarə edir.

Qeyd edək ki, klub dərsləri layihə koordinatorları tərəfindən müşahidə edilir və dərslərin sonunda rəy verilir.

# Tarixçi-alim şagirdlərlə görüşüb

Aprelin 11-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı Yaqub Mahmudov orta məktəb şagirdləri ilə görüşüb.

Görüşdə Bakı şəhəri 87 nömrəli tam orta məktəbin şagirdləri iştirak ediblər.

Tarixçi-alim Yaqub Mahmudov şagirdlər qarşısında çıxış edərək, Azərbaycanın dövlətçilik tarixindən və tarixi şəxsiyyətlərindən danışıb: "Azərbaycan xalqı 5 min illik dövlətçilik tarixinə malikdir. Regionun ən qədim dövlətçilik tarixi bizə məxsusdur. Azərbaycan xalqı dünya miqyaslı tarixi şəxsiyyətlər yetişdirib".

İnstitut direktoru şagirdləri milli dəyərlərimizə söykənməyə, tariximizə həmişə böyük diqqət ayırmağa çağırıb.

"Bu gün təcavüzkar Ermənistanın işğalçılıq siyasətinə qarşı informasiya müharibəsində fəal iştirak edən AMEA-nın Tarix İnstitutu Prezident İlham Əliyevin çağırışları, tapşırıq və tövsiyələri ilə mükəmməl elmi araşdırmalar ortaya qoymaqla yanaşı, həm də yeniyetmələr arasında "Tarixi şəxsiyyətlərimizə sahib çıxaq" layihəsini həyata keçirir", - deyə professor qeyd edib.

Görüşdə tarixçi-alim bildirib ki, Azərbaycan xalqı orta əsrlərin böyük dövlətlərini - Eldənizlər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Əfşarlar, Qacarlar imperiyalarını yaradıb.

Yaqub Mahmudov "Azərbaycanı gələcək qələbələrə bilikli insanlar aparacaq" deyərək fikrini yekunlaşdırıb.

Tədbirin sonunda şagirdlərə Tarix İnstitutunun nəşrləri hədiyyə olunub.

# “Sanki dünyanın böyük bir probleminin həlli yolunu mən tapacam...”

*132-134 nömrəli təhsil kompleksində “Dünyanın ən böyük dərs”i*

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

### “Böyük dərs”i “böyüklər” də dinlədi

Həmin layihə Bakının UNESCO məktəblər şəbəkəsinə üzv olan 132-134 nömrəli təhsil kompleksində də reallaşdırılıb və bu, sözügedən məktəbdə BMT-nin dayanıqlı inkişaf məqsədləri çərçivəsində mütəmadi olaraq təşkil edilən dərslərdən biri olub. Təhsil kompleksinin ayrı-ayrı müəllimlərinin keçdiyi dərslər zəncirinə bu dəfə Azərbaycan dili və ədəbiyyat müəllimi Aynur Dadaşova bir halqa salıb.

17 qlobal məqsəddən dördüncüsü - keyfiyyətli təhsil sözügedən dərsin mövzusu olub. Problem 8-ci sinif şagirdlərindən ibarət 20 nəfərlik qrupla müzakirə olunub. Dərsi baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov, Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov, BMT-nin İnkişaf Proqramının (BMT İP) rezident əlaqələndiricisi Qulam İsakzai, Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, əmək və əhalinin sosial müdafiəsi və təhsil nazirlərinin müavinləri də dinləyib.

### Təhsilli insan cizgiləri

Keyfiyyətli təhsil dövlətin, cəmiyyətin və təhsilalanların təhsil sisteminə sosial tələbidir. Həmin sosial tələbin yerinə yetirilməsi nəticəsində təhsilli insanlar nəsli yetişər ki, onlardan da hər kəsin öz gözləntiləri var. Bəs şagirdlərin gözləntisi nədir?

İlk tapşırıq təhsilli insanda şagirdlərin nə görmək istədiyini anlamaq məqsədi daşıyıb. Maraqlıdır, təhsilli insan cizgiləri şagird qələmindən necə çıxar?

İlk tapşırığı yerinə yetirmək üçün verilən vaxtın sonunda şagirdlər çox maraqlı keyfiyyətlərə xas bir insan obrazı yaradıb.

Bəs, dünya bu cür insanlarla dolu olarsa, heç cahil birinə rast gəlməsək, necə olar? İkinci tapşırıq olan bu sualın cavabı da uşaq dünyasının zənginliyindən, xəyal gücünün itiliyindən xəbər verib.

Yaxşı təhsil almış insanın qarşısına çıxan imkanların, onların bu dünya üçün edə biləcəklərinin şagird təxəyyülündəki siyahısı da böyük maraq doğurub.

**Müzakirə etdiyimiz məsələ düşüncələrimi o qədər məşğul etdi ki, ətrafımda olanları unutdum. Özümü böyük insan kimi hiss edirdim. Sanki dünyanın böyük bir probleminin həlli yolunu mən tapacam. Bəşəri düşündürən bir problemin həllində mənim də rolum ola biləcəyinə inandım.**

Sonda hər şagird bir məktub yazıb. Hədəflərində böyük problemlər olan həmin məktubları onu həll etmək iqtidarında olduğunu düşündükləri siyasətçiyə ünvanlayıblar. Şagird qələmi ilə Prezident İlham Əliyevdən, Azərbaycanın birinci xanımı, Birinci vitse-prezident Mehriban Əliyevadan, BMT-nin baş katibindən, ayrı-ayrı dövlət qurumlarının rəhbərlərindən bəşərin müxtəlif problemlərinin həllini xahiş ediblər.

### Bu dərsi hamı bəyəndi

Dərsi dinləyən Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İsakzai, təhsil nazirinin müavini Ceyhun Bayramov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İdris İsayev şagirdlərin bacarıqlarını, dərsin keyfiyyətini yüksək qiymətləndiriblər. Şagirdlərin problemə böyüklərə xas baxışının onları təəccübləndirdiyini qeyd ediblər.

### Bəs müəllim özü?

Aynur Dadaşova özü də dərsindən razı qalıb. Hesab edir ki, qarşısına qoyduğu məqsədə çatıb: “Uşaqlar dərs prosesinin əvvəlindən sonunadək fəal iştirak etdilər. Həm düşündülər, qrup şəklində müzakirə etdilər, həm də düşüncələrini paylaşdılar, bacarıqlarını nümayiş etdirdilər. Yəni, şagirdlər bir problemi həll etməyə çalışdılar. Sonda yazdıqları məktubla isə onları düşündürən məsələylə bağlı dəstək istədilər. Kimin dəstək verə biləcəyini, həmin şəxsin problemi hansı istiqamətdə həll edəcəyini düzgün müəyyənləşdirdilər. Fikrimcə, onların dostları, paralel sinifdə oxuyan şagird yoldaşları ilə bölüşə biləcəkləri, hətta ömür boyu xatırlayacaqları bir dərs oldu. Şagirdlərimizin bu təcrübəsini dinləmək başqaları üçün də maraqlı olacaq”.

Müəllimin sözlərinə görə, 17 məqsəd ətrafında keçirilən dərslərdə diqqət etdikləri məqam da var: “İstənilən mövzunun müzakirəsində dünyanın digər qlobal problemlərinə toxunur, mütləq mövzuların qarşılıqlı əlaqələrini qururuq. Onların diqqətinə çatdırırıq ki, bu problemlər miqyasının böyük olmasına baxmayaraq, 2030-cu ilədək öz həllini tapmalıdır. Uşaqları bu istiqamətdə düşünməyə təhrik edirik: bunun üçün hansı imkanlardan istifadə etməliyik, hansı çıxış yollarını axtarıb tapmalıyıq ki, bu qlobal problemlər həllini tapsın”.

A.Dadaşova onu da qeyd edib ki, bir ildir davam edən bu prosesə məktəbin ayrı-ayrı fənn müəllimləri də qatılıb: “Məktəbimiz UNESCO məktəblər şəbəkəsinə qoşulduğundan bu proses 2016-cı ildən başlayaraq həyata keçirilir və BMT-nin inkişaf məqsədlərini əhatə edən 17 mövzu ətrafında rəsm, tarix, coğrafiya və başqa fənlərin müəllimləri də öz dərslərində müzakirə açır, dərsin əsas mövzusu ilə qlobal məqsədlər arasında əlaqələr qurmağa çalışırlar”.

### Hamı qlobal məqsədlərə öz töhfəsini verməlidir

A.Dadaşovanın fikrincə, UNESCO məktəb şəbəkəsinə qoşulub-qoşulmamasından asılı olmayaraq, bütün məktəblər bu prosesin fəal iştirakçısı olmalıdır: “BMT-nin həlli vacib məsələ kimi irəli sürdüyü qlobal problemlərin hər biri həyatımızı və bütövlükdə gələcəyimizi təhdid edir. Düşünürəm ki, bu mövzuların müzakirəsinə həsr olunan dərslər təşkil etmək, şagirdləri həmin problemlərin həllinə cəlb etmək çox önəmlidir. Üstəlik, bu, hər hansı layihə çərçivəsində edilməməli, hər bir dərsin mövzusu, hər müəllimin əsas məqsədi olmalıdır. Bizim şagirdlər bu dərslər keçirilmədən də müharibə, yoxsulluq, yaxşı təhsil, içməli su, çirkli ətraf mühit və s. nə olduğunu bilirdilər. Məktəblərdə mütəmadi olaraq sinif saatları keçirilir. Məsələn, biz həmin saatlarda təhsilli insanın qarşısında hansı imkanların açıldığını şagirdlərimizlə müzakirə edirik. Ayrı-ayrı mövzular ətrafında şagirdlər çox həvəslə fikir mübadiləsi aparırlar.







### “Özümü böyük insan kimi hiss etdim”

Bəs, bu dərsin iştirakçıları nə düşünür? Onlar özləri də cizgilərini yaratdığı insan kimi olmaq istəyirlərmi?

Dərsin iştirakçısı Aydan Hacıyeva “Azərbaycan müəllimi”nə təəssüratlarını bölüşüb: “Belə bir dərsdə ilk dəfə iştirak edirdim. Qonaqlarımızın çox olması dərsin əvvəlində bir az həyəcan yaratsa da, sonradan müzakirə etdiyimiz məsələ düşüncələrimi o qədər məşğul etdi ki, ətrafımda olanları unutdum. Özümü böyük insan kimi hiss edirdim. Sanki dünyanın böyük bir probleminin həlli yolunu mən tapacam. Bəşəri düşündürən bir problemin həllində mənim də rolum ola biləcəyinə inandım. Məktubumu isə BMT-nin baş katibinə yollayacam. Qoy o, Qarabağda ermənilərin ətraf mühiti çirkləndirməsinin qarşısını almaqda insanlığa kömək etsin”.

Dərs başa çatdı, təəssüratlar isə davam edir... Yəqin bu dərsdən hələ çox danışılacaq.

## “Milli mənəvi dəyərlərimizi qoruyaq” mövzusunda tədbir



**Rəşad ZİYADOV**

Aprelin 8-də Bakıdakı 137 nömrəli tam orta məktəbdə 2017-ci il “İslam Həmrəyliyi İli” çərçivəsində “Milli mənəvi dəyərlərimizi qoruyaq” mövzusunda tədbir keçirilib. Əvvəlcə Dövlət himni ifa olunub. Məktəbin direktoru Mətanət Abdullayeva tədbir haqqında iştirakçılara məlumat verib. Sonra direktor müavini Azadə Əliyeva qonaqları kollektivə təqdim edib.

AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor Möhsün Nağısoylu, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktor müavini Cəbi Bəhrəmov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dinşünaslıq ekspertizası şöbəsinin müdir müavini Cahandar Əlifzadə çıxışlarında vurğulayıblar ki, ölkəmiz tolerantlıq mühitinin təşəkkül tapmasına, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qurulmasına, İslam dəyərlərinin dünyada təbliğinə böyük töhfələr verib. 2017-ci ilin ölkəmizdə “İslam Həmrəyliyi İli” elan olunması da məhz Azərbaycanın İslam dünyasındakı nüfuzundan və hörmətindən qaynaqlanır. Qeyd olunub ki, IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsi ilə bağlı qərarın verilməsi də ölkəmizin İslam həmrəyliyinin möhkəmləndirilməsi sahəsində növbəti əməli addımı, böyük tarixi əhəmiyyətə malik ictimai-siyasi hadisədir.

Məktəbin tarix, Azərbaycan dili və ədəbiyyat müəllimləri İlyas Abbasov, Mehman Əliyev İslam dininin insanlara humanizm, dözümlülük xüsusiyyətlərini aşıladığını, dostluq, qardaşlıq, sülh, barışıq yolu göstərdiyini ibildirərək məktəblilər arasında maarifləndirmə tədbirlərinin keçirilməsinin xüsusi əhəmiyyətini vurğulayıblar.

Sonda şagirdləri maraqlandıran suallar cavablandırılıb.

## “Xocalıya ədalət!” kampaniyası çərçivəsində görüşlər

**Rəşad ZİYADOV**

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən “Xocalıya ədalət!” kampaniyası çərçivəsində Fondun nümayəndələri aprelin 13 və 14-də paytaxtın bir neçə orta ümumtəhsil müəssisəsində görüşlər keçiriblər. Tədbirlərdə beynəlxalq terrorizmin bir qolu olan erməni terror təşkilatlarının Azərbaycan torpaqlarında tarixin müxtəlif dövrlərində, xüsusilə XX əsrin sonlarında Ermənistan silahlı birləşmələrinin və onların havadarlarının köməyi ilə işğal olunmuş Dağlıq Qarabağ ərazisində, o cümlədən Xocalı şəhərində törətdikləri kütləvi qırğından, vəhşilikdən, soyqırımından bəhs edilib.



Görüşlərin iştirakçısı olduğumuz 27 və 258 nömrəli tam orta məktəblərdə Fondun nümayəndələri Cavid Məmmədzadə və Vüsalə Məmmədova şagirdlərə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri barədə məlumat veriblər. Çıxışlarda 1905-1907, 1918, 1948 və 1953-cü illərdə baş verən erməni vəhşiliyi haqqında söhbət açılıb. Çıxışçılar 1988-ci ildə azərbaycanlıların yaşadıqları tarixən Azərbaycan torpaqları olan Ermənistanın ərazisindən qovulduğunu və Dağlıq Qarabağ hadisələrində xalqımıza qarşı soyqırımı aktlarının davam etdirildiyini, ermənilərin Xocalıya qarşı hərbi təcavüzünün isə məqsədyönlü xarakter daşıdığını bildiriblər. Çünki Xocalı mühüm hərbi-coğrafi məntəqə, eyni zamanda Əsgəran qalasının yerləşdiyi tarixi məkan kimi mühüm əhəmiyyət kəsb edirdi. Şagirdlərin diqqətinə çatdırılıb ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələrinin keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşmiş, şəxsi heyətinin əksəriyyəti ermənilərdən ibarət olan 366-cı motoatıcı alayının köməyi ilə Xocalı şəhəri yerlə-yeksan edildi. Həmin gün xalqımız tarixdə bənzəri olmayan faciə yaşadı. Dinc əhali, xüsusilə uşaqlar, qadınlar, qocalar ağlasığmaz vəhşiliklə öldürüldülər.

Daha sonra 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə yaradılan “Xocalıya ədalət!” beynəlxalq kampaniyası çərçivəsində görülən işlər barədə məlumat verilib.

## Tələbələr müxtəlif mövzularda məruzə ilə çıxış ediblər

Aprelin 11-də Azərbaycan Dillər Universitetində (ADU) ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə və ali təhsil ocağının yaradılmasının 80 illiyinə həsr olunmuş Tələbə Elmi Cəmiyyətinin (TEC) illik konfransı öz işinə başlayıb.

Universitetin mətbuat xidmətindən bildirilir ki, konfransda çıxış edən ADU-nun rektoru vəzifəsini icra edən professor Əfqan Abdullayev bura gələcək elm fədailərinin məruzələrinin dinləniləcəyini diqqətə çatdırıb və bunun əhəmiyyətindən danışıb. Elmi cəmiyyətlərin tələbələri eyni maraq ətrafında birləşdirdiyini söyləyən Ə.Abdullayev TEC-in universitetin və tələbələrin həyatında mühüm rol oynadığını vurğulayıb. O, dünya təcrübəsində TEC-lərin universitetlərdə fəaliyyət göstərən mühüm bir qurum kimi dəyərləndirildiyini qeyd edib və ADU TEC-in də işini yüksək qiymətləndirib.

TEC-in sədri, professor Əsgər Zeynalov konfransın gedişi və strukturu, həmçinin bölmə iclasları, onların keçiriləcəyi auditoriyalar haqqında ümumi məlumat verib.

Plenar iclasda ADU-nun tələbələri Şahnaz Əsədova, Könül Axundzadə, Nigar Dünyamalıyeva və Səma Quliyeva müxtəlif mövzularda məruzə ediblər.

Plenar iclas təkliflərin dinlənilməsi və fikir mübadiləsi ilə yekunlaşıb.

Qeyd edək ki, plenar iclasdan sonra konfrans öz işini bölmə iclaslarında davam etdirib. 3 gün davam edən konfransda 24 bölmə üzrə 1315 məruzə, yekun iclasda isə bölmə rəhbərlərinin hesabatları dinlənilib, fərqlənən tələbələr mükafatlandırılıb.

# Dövlət Proqramı məzunları növbəti dəfə bir arada

## *Bu dəfə sahibkarlıq və startap fəaliyyəti müzakirə mövzusu oldu*

**Yusif ƏLİYEV**



Qara qızılın insan kapitalına çevrilməsi ideyasının əməli təcəssümü olan "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" məzunlarından cəmiyyətin gözləntiləri çoxdur. Onlar bu gün ölkədə həyata keçirilən genişmiqyaslı iqtisadi islahatlara öz töhfəsini verə bilərlər və verməlidirlər. Bu fikirlər Təhsil Nazirliyinin təşkilatçılığı ilə aprelin 11-də Bakıdakı "Bulvar otel"də Dövlət Proqramı məzunları ilə keçirilən növbəti görüşün əsas leytmotivini təşkil edirdi.

"Sahibkarlıq və startap fəaliyyəti" mövzusuna həsr olunmuş görüşdə məqsəd Dövlət Proqramı çərçivəsində təhsilini başa vuran gənclərin karyera imkanlarının genişləndirilməsi, startap və sahibkarlıq sahəsinin inkişafına dəstək göstərilməsi, bu sahələr üzrə məzunlar arasında bilik, təcrübə və fikir mübadiləsi aparılmasına, əlaqələrin artırılmasına şərait yaratmaq idi. Dövlət Proqramının qəbulunun 10-cu ildönümünə təsadüf edən görüşdə məzunlarla yanaşı bir sıra nazirliklərin rəhbər işçiləri, universitet rektorları, startap və sahibkarlıq sahəsində fəaliyyət göstərən dövlət və özəl qurumların nümayəndələri, bir qrup SABAH tələbəsi iştirak edirdilər.

### İndiyədək Dövlət Proqramı üzrə 1589 məzun olub

İşgüzar panel iştirakçılarını öncə təhsil nazirinin müavini Ceyhun Bayramov salamlayaraq Dövlət Proqramı məzunlarının akademik fəaliyyətə cəlb olunması ilə bağlı ilk görüşün ötən ilin dekabrında "ADA" Universitetində olduğunu, həmin görüşdə məzunlarla birgə müzakirələrin davamlı olaraq keçirilməsinə qərara alındığını bildirdi. "Biz Dövlət Proqramı məzunlarının xidmətlərindən maksimum dərəcədə faydalanmalıyıq",-deyən nazir müavini xatırlatdı ki, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 3500-dən çox gənc dünyanın müxtəlif ölkələrinin aparıcı ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanıb. Onlardan 1589 nəfəri təhsillərini başa vuraraq Azərbaycana qayıdıb. Həmin gənclərin bir çoxu dövlət müəssisələrində, daha böyük hissəsi isə özəl sektorda çalışır. C.Bayramov son illər ali məktəb rəhbərləri ilə aparılan birgə iş nəticəsində xaricdə magistratura təhsili almış yüzlərlə məzunun Azərbaycanın aparıcı universitetlərində pedaqoji fəaliyyətə cəlb olunmasını sevindirici hal kimi dəyərləndirdi. Nazir müavini onu da diqqətə çatdırdı ki, Dövlət Proqramı təqaüdləri ilə təhsil alan gənclərin bir hissəsi hələ təhsillərini davam etdirirlər.

Azərbaycanın çox dərin bir islahat mərhələsində olduğunu deyən C.Bayramov 2016-cı ildə iqtisadiyyatın inkişafına yönəlik bir sıra sənədlərin, onun müxtəlif istiqamətlərini əhatə edən yol xəritələrinin qəbul olunduğunu, bu sənədlərdə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsinin qırmızı xətlə keçdiyini vurğuladı. "Xarici ölkələrdə Dövlət Proqramı çərçivəsində təhsil alan gənclər burada çox fəal ola bilərlər. Biz gənclərimizin aparıcı qüvvəsini təşkil edən xaricdə təhsil üzrə Dövlət Proqramı məzunlarına böyük ümidlərlə baxırıq. Hesab edirik ki, digər sahələrdə olduğu kimi startap və sahibkarlıq fəaliyyətində də onlar çox böyük uğur qazana bilərlər".

### Məzunlar əlverişli biznes mühitindən yararlana bilər

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov çıxışında müzakirə olunan məsələnin aktuallığını qeyd edib, biznes mühitinin yaxşılaşdırılması, kiçik və orta sahibkarlığın daha da inkişaf etdirilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlərdən, ölkə Prezidentinin müvafiq sərəncamları ilə sahibkarlara edilən güzəştlərdən söz açdı. Qeyd etdi ki, sahibkarlıq fəaliyyətinə başlamaq istəyən məzunlar biznesin inkişafı üçün yaradılan əlverişli mühitdən faydalana, öz ideyalarını reallaşdıra bilərlər. Sahibkarlığın təşkili, gənclərin sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi yönündə İqtisadiyyat Nazirliyinin atdığı addımlara diqqət çəkən S.Məmmədov təmsil etdiyi qurumun regional inkişaf mərkəzlərinin, onların nəzdində biznes inkubatorlarının yaradıldığını, bu inkubatorlara müsabiqə əsasında seçilmiş gənclərlə iş aparıldığını, onlar üçün treninqlər keçirildiyini, gənclərə biznes planlarını qurmaqda kömək göstərildiyini, "Ən yaxşı ideyadan biznesə doğru" mövzusunda müsabiqələrin təşkil olunduğunu söylədi. Bildirdi ki, nazirliyin nəzdindəki Sahibkarlığa Kömək Milli Fondu tərəfindən öz bizneslərini qurmaq istəyən gənclərə kreditlər verilir.

### 21 tələbə layihəsi qrant müsabiqəsinin qalibi olub

Nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə ölkəmizin yeni inkişaf modelinə uyğun olaraq son illərdə sahibkarlığın, startap hərəkatının genişləndiyini, gənclərin bu hərəkatda yaxından iştirak etdiyini bildirdi. Təmsil etdiyi nazirliyin tabeliyində yaradılmış Yüksək Texnologiyalar Parkı və İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun ölkədə innovativliyin, startap fəaliyyətinin genişlənməsində böyük rolu olduğunu deyən E.Vəlizadə bu qurumların fəaliyyət göstərdiyi son 3 ildə texnopark tərəfindən təxminən 300 layihəyə dəstək verildiyini, fond tərəfindən isə 600-ə yaxın layihənin iştirak etdiyi 4 qrant müsabiqəsinin keçirildiyini diqqətə çatdırdı. Bildirdi ki, qrant müsabiqəsində təqdim olunan layihələrdən 91-i qalib gəlib. Onlardan 21-nin müəllifi tələbələrdir.

### Fond sosial layihələrə üstünlük verir

Əsas vəzifələrinin gənclərin potensialını aşkara çıxarıb inkişaf etdirmək, sosial aktivliyini artırmaq olduğunu deyən Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun icraçı direktoru Fərhad Hacıyev bu baxımdan sosial layihələrə üstünlük verdiklərini diqqətə çatdırdı. Qeyd etdi ki, bizim digər qurumlardan fərqimiz qrant kimi verilən vəsaitin qarşılığında gənclərdən yalnız hesabat tələb etməyimizdir. O, gənclərin startap fəaliyyəti sahəsində daha geniş maarifləndirilməsi üçün sessiyalar keçirilməsini, startapların təkcə informasiya texnologiyaları sahəsində deyil, digər sahələrdə, xüsusən də kənd təsərrüfatı istiqamətində təşkilinə dəstək göstərilməsini məqsədəuyğun saydı.

### Biznesini qurmaq istəyən gənclər üçün yaxşı nümunə

Görüşdə Dövlət Proqramı məzunları, "Golden Pay" şirkətinin rəhbəri Fərid İsmayılzadə, "Yolget.az" layihəsinin rəhbəri Abbas Əlilli sahibkarlıq və startap fəaliyyəti ilə bağlı təcrübələrini iştirakçılarla paylaşdılar, gənclərə öz məsləhət və tövsiyələrini verdilər.

Panel müzakirələrində habelə Təhsil Nazirliyi SABAH İcra Komitəsinin rəhbəri Şahin Seyidzadə SABAH İnnovasiya Forumunun nəticələri barədə təqdimat etdi, bu qruplarda təhsil alan gənclərin startap fəaliyyəti barədə məlumat verdi. Məlumatdan aydın oldu ki, SABAH tələbələri indiyədək 7 startap layihəsi işləyiblər.

Çıxışlarda ölkəmizin bir sıra təhsil müəssisələrində texnopark və startapların yaradılması təqdir olundu, onların fəaliyyətinin daha da genişləndirilməsi təklif edildi.

Açıq müzakirə şəklində keçən görüşdə məzunlar gənc sahibkarlıq və startap fəaliyyətinin inkişafı, gələcək perspektivləri ilə bağlı fikir mübadiləsinə qoşulub, rəy və təkliflərini söylədilər.

Sonra xaricdə təhsil almış məzunlarla ali təhsil müəssisələrinin rəhbər şəxsləri və sahibkarlar arasında işgüzar görüşlər təşkil olundu.

## Məzunlar nə düşünür?

**Asif Əşrəfov,** *Malayziya Texnologiya Universitetinin məzunu:* - Bugünkü tədbir məndə çox böyük təəssürat yaratdı. Məzunları bir araya toplaması, öz iş ideyalarını reallaşdırmaq üçün onlara hansı dəstəyin verilməsinin mümkünlüyü məsələsinə aydınlıq gətirməsi baxımından onu çox dəyərli hesab edirəm. Mənim hələlik heç bir layihəm yoxdur. Amma onlarla tanış oluram və gələcəkdə özümü sınamaq fikrindəyəm.

**İlkin Məmmədzadə,** *Türkiyənin Egey Universitetinin məzunu:* - Türkiyənin Egey Universitetində informasiya texnologiyaları üzrə magistr təhsili almışam. Hazırda Dövlət Proqramının digər məzunları ilə bərabər bir layihəmiz var. Layihənin adı LUNCHİFY-dır. Biz bu yaxınlarda layihəni reallaşdırmağa başlayacağıq. Belə tədbirlərin keçirilməsi bizim üçün çox yaxşıdır. Bu bizə bir təcrübə olur. Bu sahədə uğur qazanmış insanlardan məlumatlar, məsləhətlər alırıq ki, bu da gələcək fəaliyyətimiz üçün çox vacibdir.

**Səbinə Vəliyeva,** *ADİU-nun II kurs tələbəsi:* - Mən təbirə SABAH mərkəzindən dəvət almışam. Təəssüratlarım çox zəngindir. Fikrimcə, bu görüş gənclər üçün çox faydalıdır. Belə təlimlərə gəlib özünü inkişaf etdirmək, məncə, çox yaxşıdır. Belə bir fürsəti bizə verdiyi üçün SABAH mərkəzinə minnətdaram. Hazırda layihəm yoxdur, amma gələcəkdə startap fəaliyyətinə başlamağı nəzərdə tutmuşam.

# AzTU-da Fransa ali məktəblərinin təqdimatı keçirilib

**Nicat ABDULLAYEV**



Fransanın Azərbaycandakı səfirliyinin universitetlərarası əməkdaşlıq üzrə məsul işçisi Batist Minyo Azərbaycan Texniki Universitetində I kurs tələbələri ilə görüşüb.

Batist Minyo Fransa universitetlərində təhsilin keyfiyyəti, tədrisin istehsalatla birgə fəaliyyəti və təqaüd proqramları haqqında tələbələrə ətraflı məlumat verib. Səfirliyin nümayəndəsi bildirib ki, biznes və menecment üzrə dünyanın ən yaxşı ali təhsil müəssisələrinin 25%-i Fransada yerləşir.

Fransada təhsil bakalavriat pilləsində fransız dilində, magistratura pilləsində isə tələbənin seçimi ilə fransız, yaxud da ingilis dilində aparıldığını deyən Batist Minyo təhsilin ödənişli və ödənişsiz əsaslarla olmasından asılı olmayaraq universitetlərin dövlət tərəfindən maliyyələşdirildiyini qeyd edib.

Görüşdə AzTU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Natiq Əhmədov Fransa universitetləri ilə mövcud əməkdaşlığından danışaraq bu əlaqələrin nəticəsi olaraq müəllim-tələbə mübadiləsi, birgə konfransların keçirilməsi, elmi-tədqiqat işlərinin aparılmasını qeyd edib və gələcəkdə ikili diplomların alınması üzrə mühüm işlər həyata keçirildiyini bildirib.

Sonda tələbələri maraqlandıran bütün suallar Fransa səfirliyinin nümayəndəsi tərəfindən cavablandırılıb.

# Əməkdaşlığa tələbə mübadiləsi ilə başlamaq üçün geniş imkanlar var

Malayziyanın Kuala Lumpur Universitetinin birinci vitse-prezidenti Azanam Şah Haşim və fakültə dekanı Sayrul İzvan Safi Azərbaycan Texnologiya Universitetində (ATU) olub. Görüşdə iki universitet arasında əməkdaşlıq imkanları müzakirə olunub.

Əvvəlcə ATU-nun rektoru, professor Akif Süleymanov rəhbərlik etdiyi ali təhsil müəssisəsi haqqında məlumat verib. Universitetin keçdiyi inkişaf yolu və perspektiv planları haqqında danışan rektor qeyd edib ki, Kuala Lumpur Universiteti ilə əməkdaşlığın qurulması da hər iki tərəf üçün səmərəli ola bilər.

Kuala Lumpur Universitetinin tədris və texnologiya üzrə vitse-prezidenti, professor Azanam Şah Haşim isə qeyd edib ki, təmsil etdiyi ali təhsil ocağı 2002-ci ildə qurulub. Universitet hazırda Malayziyada mühəndislik texnologiyaları üzrə mütəxəssis hazırlayan əsas ali təhsil müəssisəsidir. Professor Azanam Şah Haşim bildirib ki, ATU ilə əməkdaşlığa tələbə mübadiləsilə başlamaq üçün hər cür imkan mövcuddur.



Kuala Lumpur Universitetinin Sənaye texnologiyaları fakültəsinin dekanı, dosent Sayrul İzvan Safi isə iki ali təhsil ocağının eyni profil üzrə fəaliyyət göstərməsinin əməkdaşlıq üçün əlverişli zəmin yaratdığını bildirib. Universitetlərdə 15 oraq ixtisasın mövcudluğunu qeyd edən qonaq bu faktın əməkdaşlığı daha da genişləndirməyə, birgə konfransların təşkilinə və müştərək elmi tədqiqatların aparılmasına imkan verdiyini qeyd edib.

Sonra Azərbaycan Texnologiya Universiteti ilə Kuala Lumpur Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb.

# "Sülh, mərhəmət, dözümlülük və ədalət İslam dininin dəyərləridir"

Sifai SƏFƏROVA

Bakı Dövlət Universitetinin nəzdində "Gənc istedadlar" liseyində "Sülh, mərhəmət, dözümlülük və ədalət İslam dininin dəyərləridir" mövzusunda konfrans keçirilib. Konfransı BDU-nun elm və elmi innovasiyalar üzrə prorektoru, AMEA-nın müxbir üzvü, professor Aydın Kazımzadə açaraq mövzu ilə bağlı ətraflı məlumat verib. Qeyd edib ki, dünya mədəniyyətinin sehrli açarı İslam mədəniyyətinin mahiyyətində və məzmunundadır.

Sonra BDU-nun ilahiyyat fakültəsinin dekanı, akademik Vasim Məmmədəliyev "İslam həmrəyliyi müasir dünyanın ən zəruri tələblərindən biridir" mövzusunda çıxış edib. Bu mövzunun geniş təbliğata ehtiyacı olduğunu vurğulayan akademik İslam həmrəyliyinin multikultural dəyərlərin tərkib hissəsi olduğunu söyləyərək deyib: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci ili ölkəmizdə "İslam Həmrəyliyi İli" elan etməsi onun İslam dünyasının ən böyük ehtiyacını çox dəqiqliklə müəyyənləşdirdiyini sübut edir. Bu sərəncamı Azərbaycan Prezidentinin 2016-cı ilin "Multikulturalizm ili" elan etməsinin davamı kimi də səciyyələndirmək olar. Çünki Azərbaycan multikultural dəyərlər baxımından bütün dünyaya örnək olmaqla yanaşı, İslam həmrəyliyi baxımından da İslam dünyasına örnəkdir. Azərbaycan sözün tam mənasında İslam həmrəyliyi, bütövlükdə dini həmrəylik baxımından model bir ölkədir.

Tədbirdə həmçinin BDU-nun şərqşünaslıq fakültəsinin professoru Nəsrulla Məmmədov "İslamda milli ənənələr və millətlərarası nünasibətlər", Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin analitika şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Rəşad İlyasov "İslam elm tarixində Azərbaycan məktəbi", BDU-nun ilahiyyat fakültəsinin İslam elmləri kafedrasının baş müəllimi, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov "Azərbaycan nümunəsində İslamda tolerantlıq" mövzularında məruzələrlə çıxış ediblər.

Sonda mövzu ətrafında şagirdləri maraqlandıran suallar cavablandırılıb.

# Xalq şairi Nəriman Həsənzadə ilə görüş



Bakı şəhəri 58 nömrəli tam orta məktəbdə xalq şairi Nəriman Həsənzadə ilə müəllim və şagirdlərin görüşü oldu. Tədbirin aparıcısı Azərbaycan Yazıçılar Birliyinin üzvü və əməkdaşı şair Nuranə Nur şairin həyat və yaradıcılığı haqqında geniş məlumat verdi. Sonra Nəriman Həsənzadə haqqında film nümayiş etdirdi. Məktəbin direktoru Ulduzxan Abdullayev orta məktəblərdə belə görüşlərin keçirilməsinin əhəmiyyətini vurğuladı. Qeyd etdi ki, Nəriman Həsənzadə ədəbi irsi şagirdlərdə vətənpərvərlik hisslərini daha da gücləndirir, onların elmə, təhsilə marağını artırır.

Görüşdə iştirak edən Xətai Rayon İcra Hakimiyyətinin şöbə müdiri Pənah İmanov, şair Qəşəm Nəcəfzadə, təbrizli şair Aqşin Ağkəmər, yazıçı Atababa İsmayılov Nəriman Həsənzadənin ədəbiyyatda və həyatda mövqeyinin həmişə dəyişməz olduğunu qeyd etdilər. Bildirildi ki, Nəriman Həsənzadə ictimai xadim, redaktor, şair kimi daim vətənimizin, xalqımızın sevincini və dərdini ifadə edib. Məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Yeganə Əliyeva şairin vətən şeirləri haqqında fikirlərini söylədi. Lap uşaq yaşlarından Nəriman Həsənzadənin yaradıcılığını izləyən və bu gün də onu sevə- sevə oxuyan, həmişə onu görmək arzusu ilə yaşayan, məktəbin şagirdi Şəfəq Qasımlının nənəsi Almaz xanımın şair haqqında dediyi sözlər hamını kövrəltdi.

Şagirdlərdən Ülkər Ömərova, Validə Bayramova, Şəfəq Qasımlı, Nazilə Musayeva, İlkanə Soltanzadə, Səbinə Novruzova, Şəfa Səfərova, Ləman Kərimova, Səma Əsədova və Rəqsanə Əliyeva şairin şeirlərini söylədilər. Sonda Nəriman Həsənzadə məktəb rəhbərliyinə təşəkkür etdi, şagird və müəllimlərin suallarını cavablandırdı, kitablar imzaladı və xatirə şəkilləri çəkildi.

# Qazaxıstanlı tələbələr elmi təcrübə keçirlər

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti ilə T.K.Jurqenova adına Qazaxıstan Milli İncəsənət Akademiyası arasında imzalanan əməkdaşlıq müqaviləsinə əsasən 9-20 aprel 2017-ci il tarixlərində akademiyanın müxtəlif ixtisasları üzrə təhsil alan I kurs magistr tələbələri ADMİU-da elmi təcrübə keçəcəklər.

Teatr sənəti fakültəsində Natalya Menşikova, Aydın Berdiyarova, Saya Bakıt, Daniya Batırxanova (xoreoqrafiya), Bayan Beketaeva (rejissor), rəssamlıq fakültəsində Kseniya Omelçenko (təsviri sənət), Samal Mamitova, Talğat Əbdildayev (sənətşünaslıq), musiqi sənəti fakültəsində Tolğanay Pazılakın, Miras Sabitov (estrada sənəti), Janqali Musayev, Kuanış Altıbayev (ənənəvi musiqi sənəti) dissertasiya mövzusunda araşdırmalar aparacaqlar. Tələbələr ADMİU-nun Kitabxana və İnformasiya Mərkəzində, Azərbaycan Milli Kitabxanasında və Azərbaycan Milli İncəsənət Muzeyində məlumatlar əldə edib, universitetin professor-müəllim heyətinin dərslərində elmi təcrübə keçərək, müxtəlif mövzular üzərində müzakirələr aparacaqlar.

Tələbələrin Bakıya səfəri çərçivəsində elmi təcrübə ilə yanaşı gündəlik mədəni proqram da təşkil edilib. Onlar 10 gün ərzində Şəhidlər Xiyabanı, Şirvanşahlar Sarayı Kompleksi, Azərbaycan Xalça Muzeyi, Azərbaycan Tarix Muzeyi, Bakı Müasir İncəsənət Muzeyi, Muzey Mərkəzi, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Qobustan Milli Tarix-Bədii Qoruğunu ziyarət edib, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Heydər Əliyev sarayında, Azərbaycan Dövlət Filarmoniyası və ADMİU-da keçirilən konsert və tədbirlərdə iştirak edəcəklər.

# İnternat məktəbinin animasiya filmi çəkənləri

## Şagirdlər daha çox sosial mövzulara müraciət edirlər

Niyazi RƏHİMOV

Eşidəndə ki, Bilgəh qəsəbəsində yerləşən 11 nömrəli inteqrasiya təlimli internat məktəbdə animasiya studiyası açılıb və bu studiyada hazırlanan filmlər beynəlxalq festivalda nümayiş olunub, vaxt itirmədən həmin ünvana yollandım. Nəzərə çatdırım ki, bu tədris ocağına ilk dəfə təxminən 3 il öncə KİV nümayəndələri ilə birgə səfər etmişdim. Həmin səfər zamanı məktəbdə nə qədər istedadlı, yaradıcı şagirdlərin olduğunun şahidi olmuşdum. Lakin 3 il bundan öncəkindən fərqli olaraq budəfəki səfərimdə internat məktəbinin simasının xeyli dəyişdiyini gördüm. Belə ki, əsaslı təmir olunmuş məktəbdə səliqəli sinif otaqları, yeməkxana, yataq otaqları müasir standartlara uyğun idi. Məktəbin direktoru Gülnarə Abdullayeva ilə görüşüb birgə yeni fəaliyyətə başlayan animasiya sinfinə yollandıq. Studiyada dərs və yaradıcılıq prosesini izlədikdən sonra məktəb direktoru, studiyanın rəhbəri və şagirdlərlə söhbətləşdik.





### "Qurama" uşaq animasiya studiyası ölkəmizdə ilk və yeganə uşaq studiyasıdır

**Gülnarə Abdullayeva,** *11 nömrəli inteqrasiya təlimli internat məktəbin direktoru:* - Məktəbimizdə "ART" studio fəaliyyət göstərir. Bu studiyanın tərkibində dulusçuluq, xalçaçılıq, keramika, mozaika, tətbiqi incəsənət və digər dərnəklər mövcuddur. "ART" studiyasının tərkibində fəaliyyət göstərən siniflərdən biri də "Qurama" uşaq animasiya studiyasıdır. "Qurama" uşaq animasiya studiyası ölkəmizdə ilk və yeganə uşaq studiyasıdır. Studiyaya əməkdar mədəniyyət işçisi, ölkəmizdə animasiya sahəsində xüsusi yeri olan, 30-dan çox cizgi filmlərinin hazırlanmasında iştirak edən Elçin Hami Axundov rəhbərlik edir. Elçin Hami Axundov studiya açılmadan öncə dəfələrlə internat məktəbdə olmuş, uşaqlarla görüşmüş, maraqlı söhbətlər aparmışdır.

Studiyanın yaranması çoxdankı arzumuz idi. Elçin Hami Axundovla bu haqda çox düşünmüşdük. Çünki şagirdlərimizin də bu sahəyə xüsusi marağı olduğu suallarından aydın görünürdü. Onlar axşam saatlarında istirahət vaxtı Azərbaycanın cizgi filmlərinə çox maraqla baxırdılar və belə filmlərin çəkilməsi, ərsəyə gəlməsi haqqında düşünürdülər. Elçin müəllimə də animasiyanın necə çəkildiyi, hazırlandığı haqqında tez-tez suallar verir, animasiya filmlərini özlərinin çəkməsini xəyal edirdilər. Onların xüsusi marağını nəzərə alaraq Elçin müəllimlə uşaq studiyasının yaradılması qərarına gəldik. Fikirləşirdik ki, belə bir studiyanın açılması həm animasiya sahəsində şagirdlərimizin yaradıcılıq qabiliyyətinin, potensiallarının üzə çıxmasında, həm də onların asudə vaxtlarının səmərəli təşkilində çox faydalıdır. Bundan başqa, animasiya filmlərinin şagirdlərimizin milli ruhda tərbiyə olunmasında, onların sərbəst düşüncə bacarıqlarının formalaşmasında da xüsusi rolu olacaq. Bu fikirlərimizi və uşaqların arzularını həyata keçirmək məqsədilə təkliflər paketi hazırladıq. Həmin təkliflər paketini Təhsil Nazirliyinə göndərdik. Nazirlik müraciətimizə müsbət cavab verdi və studiyanın səmərəli fəaliyyəti üçün nəzərdə tutulan avadanlıqlarla bizi təmin etdilər. Bununla da biz ötən ilin sentyabr ayında animasiya studiyasını açdıq. Studiyamızın yaranmasından qısa müddət keçməsinə baxmayaraq artıq uşaqlarımız 12 qısametrajlı animasiya filmi hazırlayıb. Hətta filmlərdən 5-i bu yaxınlarda Elçin müəllimin iştirakı ilə Çexiyanın Praqa şəhərində keçirilən çex və Azərbaycan animasiyalarının birgə sərgisində də nümayiş olunub.

Ötən ay Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva yenidənqurma işlərindən sonra məktəbimizlə tanış olarkən bu sinifdə də oldu. Uşaqların hazırladıqları animasiya filmlərinə baxan Mehriban xanım Əliyeva studiyanın fəaliyyətindən razı qaldı. Biz də kollektivimiz adından məktəbimizə göstərdiyi xüsusi diqqət və qayğıya görə Mehriban xanıma minnətdarlığımızı bildiririk.

Bu studiyanın fəaliyyəti ilə bağlı gələcəkdə bir sıra planlarımız var. Düşünürük ki, daha genişmetrajlı, yüksək səviyyəli animasiya filmləri hazırlayaq və bu filmləri beynəlxalq səviyyəli müsabiqələrə təqdim edək. Bunun üçün şagirdlərimizin kifayət qədər potensialı var.

Fürsətdən istifadə edib bir məsələyə toxunmaq istəyirəm. İstərdik ki, animasiya filmlərimiz Müəllif Hüquqları Agentliyi tərəfindən təsdiq edilsin. Uşaqların və Elçin müəllimin uzun zəhməti hesabına başa gələn bu animasiya filmlərimizin kimlərinsə əlinə keçməsindən ehtiyat edirik.

### "Studiyada uşaqlara tam sərbəstlik verilib"

**Elçin Hami Axundov,** *əməkdar mədəniyyət işçisi, quruluşçu rəssam, quruluşçu animator:* - Uşaqlar studiyada çox həvəslə çalışırlar. Burada15 nəfərdən ibarət qrupumuz var. Studiya yeni yarananda uşaqlar arasında seçim apardım. Onların arasından ən istedadlı, yaradıcı uşaqları bura cəlb etdik. Hazırda qrupda olan uşaqlar arasında yaxşı rəsm çəkən, ssenari yazan şagirdlər var. Studiyada assistentim Kəbirə Həşimova ilə birgə uşaqlara kadrların hərəkət qaydaları, ssenari yazmaq, onu kadrlaşdırmaq, montaj işi, səsləndirmə və animasiyanın digər sirlərini öyrədirik.

Uşaqlarla işləmək mənə xüsusi zövq verir. Belə bir studiyanın yaradılması məni çox sevindirdi. Müxtəlif ölkələrdə festivallarda olarkən digər xalqların uşaq studiyalarının animasiyaları nümayiş olunurdu. Həmin zaman düşünürdüm ki, bizdə niyə belə bir studiya olmasın. Şükürlər olsun ki, bu yaxınlarda bizim animasiyalar Praqa şəhərində keçirilən sərgidə nümayiş olundu. Gələcəkdə uşaqların işlərinin beynəlxalq səviyyədə tanıdılması və müsabiqələrdə iştirakını nəzərdə tuturuq. Bu işləri görmək üçün studiyamızda kifayət qədər şəraitimiz var. Hər bir uşağa ana qayğısı ilə yanaşan məktəbin direktoru Gülnarə Abdullayeva da studiyanın fəaliyyətinə xüsusi diqqət yetirir, problemlərimizin həllində bizə yardımçı olur.

Nəzərə çatdırım ki, studiyada uşaqlara tam sərbəstlik verilib. Onlar mövzuları özləri seçir və bu mövzuya uyğun ssenari yazırlar. Əsasən sosial mövzulara müraciət edirlər. Uşaqların hazırladığı animasiyalar qısametrajlıdır. Əksəriyyəti 65-75 saniyədir. Lakin qısa olmasına baxmayaraq çox mənalı və məntiqlidir. Onlar bu qısa animasiyalarda həm bitkin fikir ifadə edə bilir, həm də bu vasitə ilə cəmiyyətə bir mesaj göndərirlər. Bu, çox sevindirici haldır.

Nəzərə çatdırım ki, animasiya işi çox çətin bir prosesdir. Belə ki, öncə şəkillər çəkilir. Sonra həmin şəkillər hərəkətə gətirilir. Bunun üçün çoxlu vaxt və diqqət tələb olunur. Lakin şagirdlərimiz bütün bu çətinliklərin öhdəsindən layiqincə gəlirlər.

### "Böyüyəndə dünya şöhrətli animator olmaq arzusundayam"

**Rəna Səfərova,** *"Qurama" uşaq animasiya studiyasının üzvü, məktəbin VII sinif şagirdi:* - Uşaqlıqdan rəsm çəkməyi sevirdim. Burada vaxtımız çox səmərəli keçir. Elçin müəllim animasiya sənətinin sirlərini bizə öyrədir. Boş vaxtlarımızı daha çox burada keçiririk. Elçin müəllim həftənin iki gününü bizimlə olur. Onun gəlişini səbirsizliklə gözləyirik. "Lalənin arzusu" animasiya filmini mən hazırlamışam. Bu mənim ilk işimdir. Ona görə də "Lalənin arzusu" animasiya filmini heç vaxt unutmayacağam. Elçin müəllimin rəhbərliyi altında çəkilən filmin ssenarisini uşaqlarla - Elay və Günellə birgə yazmışıq. Düşünürəm ki, bundan sonrakı işlərim daha da mükəmməl olacaq. Bu sahədə keçirilən müsabiqələrdə iştirak etmək və qalib olmağı çox istərdim. Bunun üçün var gücümlə çalışacağam. Böyüyəndə dünya şöhrətli animator olmaq arzusundayam.

### Bu filmlər mənim üçün o qədər doğmadır ki...

**Yusif Ağayev,** *"Qurama" uşaq animasiya studiyasının üzvü, məktəbin VI sinif şagirdi:* - "Əli müəllimin həyatı", "Ana və üç oğul" animasiya filmləri mənim işlərimdir. Bu filmlər mənim üçün o qədər doğmadır ki, bunu sözlə ifadə etmək mümkün deyil. Bundan başqa, hazırlanan digər animasiyaların da çoxunu mən səsləndirirəm. Hər bir filmimiz hazır olanda elə bilirik ki, böyük bir qəhrəmanlıq etmişik. Düşünürəm ki, animasiya sənətinin artıq müəyyən sirlərini öyrənmişik.

Çox səmimi, mehriban kollektivimiz var. Burada vaxtımızın necə keçdiyini hiss etmirik. Gələcəkdə böyük həcmdə daha yaxşı animasiya filmlərini hazırlamağı qarşıma məqsəd qoymuşam.

### "Cizgi filmlərinin belə hazırlanmasını heç təsəvvür etmirdim"

**Cəsarət Əliyev,** *"Qurama" uşaq animasiya studiyasının üzvü, məktəbin VIII sinif şagirdi:* - Lap balaca vaxtlarımdan cizgi filmlərinə xüsusi marağım olub. Cizgi filmlərinin belə hazırlanmasını heç təsəvvür etmirdim. Ağlıma belə gəlmirdi ki, şəkilləri bu şəkildə canlandırmaq olar. Yaxşı rəsmlər çəkdiyim üçün Elçin müəllim studiya açılanda məni də bura dəvət etdi. Sonra biz müəllimimizdən bu sənətin sirlərini yavaş-yavaş öyrənməyə başladıq. Çox sevinirəm ki, belə filmlər hazırlıyırıq. Sinif yoldaşlarım mənə müxtəlif mövzularda animasiya çəkməyi xahiş edirlər. Çalışacağam ki, onların istəklərini yerinə yetirim.

# "Qarabağ vəhdəti " mövzusunda tədbir

Bakıdakı Həzi Aslanov adına 175 nömrəli tam orta məktəbdə riyaziyyat müəllimi Mehriban Alşanovanın və fizika müəllimi Ləman Hüseynlinin təşkilatçılığı ilə Qarabağ uğrunda döyüşlərdə şəhid olan əsgərlərimizin əziz xatirəsinə həsr olunmuş "Qarabağ vəhdəti" mövzusunda tədbir keçirilib.

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Məktəbin direktoru Qələndər Qələndərov qonaqları salamlayıb və tədbirin şagirdlərin vətənpərvərlik tərbiyəsində mühüm rolunu qeyd edib.

BDU-nun tarix fakültəsinin dosenti Kərəm Məmmədovun, Azərbaycanın tanınmış hərbi diktoru, vətənpərvərlik mahnılarının mahir ifaçısı Şəmistan Əlizamanlının çıxışları şagirdlər tərəfindən maraqla qarşılanıb.

Tədbir diskussiya şəklində başa çatıb.

Şakir CƏFƏROV

# Mütaliə vərdişlərinə həsr olunmuş ədəbi gecə

Paytaxtdakı Məktəb Lisey Kompleksində mütaliə vərdişlərinə həsr olunmuş ədəbi gecə keçirilib. Tədbirdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov, idarənin əməkdaşları, ümumi təhsil müəssisələrinin rəhbərləri və müəllimlər iştirak ediblər. Mütaliə vərdişlərinə həsr olunmuş ədəbi gecədə məktəbin III sinif şagirdləri mütaliə ilə bağlı müdriklərdən maraqlı sitatlar söyləyib, şeir və mahnılar ifa ediblər.

Daha sonra şagirdlər ədəbi gecədə iştirak edən qonaqlara intellektual suallar ünvanlayıb.

Tədbirin sonunda BŞTİ-nin müdir müavini Hüseyn Əsgərov Təhsil Nazirliyinin "Ümumtəhsil məktəb şagirdlərinin mütaliə vərdişlərinin təkmilləşdirilməsi və onlarda mütaliə mədəniyyətinin formalaşdırılması ilə bağlı tədbirlər barədə" əmrinə əsasən, şagirdlərin mənəvi aləminin zənginləşməsində, dünyagörüşünün və bilik dairəsinin genişlənməsində, məntiqi təfəkkürünün, idraki bacarıqlarının inkişafında mütaliənin müstəsna rolu olduğunu bildirib.

# ADNSU fənn olimpiadasının qaliblərinə təqaüd verəcək

Aprelin 14-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) buraxılış siniflərinin şagirdləri üçün riyaziyyat, fizika, kimya və informatika fənn olimpiadalarının yekun mərhələsinin qaliblərinin mükafatlandırılma mərasimi keçirilib.

Fənn olimpiadasının gənclərin dəqiq elmlərə marağının artırılması, istedadlı gənclərin aşkarlanması və onların peşə yönümünün istiqamətləndirilməsi məqsədilə keçirildiyini bildirən ADNSU-nun rektoru, professor Mustafa Babanlı olimpiadanın 1989-cu ildən sonra yenidən keçirilməsini böyük uğur kimi qiymətləndirib. Olimpiadada birinci yeri tutan tələbələrin gələcəkdə



mükafat aldıqları ixtisas üzrə ADNSU-ya qəbul olunacaqları təqdirdə 100 manat təqaüd alacaqlarını deyən rektor M.Babanlı abituriyentlərə universitet haqqında geniş məlumat verib. Tədbir iştirakçılarına ADNSU-nun nəzdində fəaliyyət göstərən Fransa-Azərbaycan Universiteti (UFAZ) haqqında danışan rektor M.Babanlı tələbələrin ölkəni tərk etmədən Strasburq Universitetinin diplomunu almaq şansının olduğunu qeyd edib. ADNSU-da fəaliyyət göstərən çoxsaylı dərnək və klublar haqqında söz açan professor Mustafa Babanlı tələbələrin məzun olduqdan sonra işlə təmin olunması üçün universitet daxilində gündəlik təcrübə proqramı, Karyera Sərgisi kimi layihələr həyata keçirildiyini diqqətə çatdırıb.

Olimpiadanın baş tutmasında əməyi keçən hər kəsə öz minnətdarlığını bildirən rektor, professor Mustafa Babanlı gələcəkdə bu cür olimpiadaların respublika səviyyəsində keçiriləcəyini qeyd edib.

Sonda ən yüksək nəticə göstərən şagirdlər fəxri fərmanla təltif olunublar.

# Gənclərin dəqiq elmlərə marağını artıracaq layihə

Bakı Mühəndislik Universitetində elm və texnologiyalara həvəsi olan gənclərə öz maraqlarını ictimaiyyətlə bölüşməyə imkan verən FameLab layihəsinin yarımfinal mərhələsinə start verilib. Bu mərhələyə 30-dək layihə seçilib. Yarışın qaydasına əsasən hər bir iştirakçı 3 dəqiqə ərzində layihəsini təqdim etməlidir.

Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədov çıxış edərək rəhbərlik etdiyi universitetin yeni yaradılmasına baxmayaraq yüksək səviyyəli kadrlar hazırlanması üçün innovativ texnologiyalara əsaslanan bütün layihələrin keçirilməsini dəstəklədiyini bildirib. Rektor məqsədi elmi sevdirmək və gənclərin dəqiq elmlərə marağını artırmaq olan FameLab layihəsinin keçirilməsinin əhəmiyyətli olduğunu söyləyib.

"British Council"in nümayəndəsi Nigar Nəsrullayeva BMU ilə əməkdaşlıqdan məmnun olduqlarını bildirib. O, yarışmanın qaydalarını izah edib və iştirakçılardan əyləncəli çıxışlar gözlədiyini qeyd edib.

Sonda təqdimatlar münsiflər tərəfindən qiymətləndirilib və 10 nəfər finalda iştirak hüququ qazanıb. FameLab milli istedad yarışmasının may ayında final mərhələsində qalib gələn layihə Böyük Britaniyada keçiriləcək Çeltenham Elm Festivalında iştirak etmək hüququ qazanacaq.

# Naxçıvan Dövlət Universitetində konfrans

Naxçıvan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsində bu ali təhsil ocağının 50 illiyinə həsr olunmuş elmi konfrans keçirilib. Bu barədə NDU-nun mətbuat şöbəsindən aldığımız məlumatda bildirilir.

Tədbiri giriş sözü ilə açan rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 yanvar 2017-ci il tarixdə Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyinin keçirilməsi ilə bağlı imzaladığı Sərəncamı ali təhsilin inkişafına göstərilən yüksək dövlət qayğısı kimi dəyərləndirib. Muxtar respublikada bütün sahələrə olduğu kimi, dəqiq fənlərin də inkişafına göstərilən diqqətdən danışan rektor universitetdə fizika, biologiya və kimya fənlərinin mükəmməl tədrisi üçün maddi-texniki bazanın mövcud olduğunu, yeni-yeni avadanlıqların alınaraq kabinə və laboratoriyalara verildiyini bildirib. İnformatikanın digər elm sahələrinə təsirindən danışan rektor qeyd edib ki, bütün sahələrdə hesablamalardan istifadə olunur, bu da öz növbəsində informatikanı daha yaxşı öyrənmək zərurətini yaradır.

İnformatika kafedrasının dosenti, riyaziyyat üzrə fəlsəfə doktoru Vüqar Salmanov "Müasir təhsil sistemində "Visual Basic" proqramlaşdırma dilinin rolu" adlı təqdimat edib. Sonra hazırlanmış slayd vasitəsilə verilənlər bazası, Visual Basic proqramlaşdırma dilindən istifadə qaydaları, imkanları və üstünlükləri haqqında tədbir iştirakçılarına məlumat verilib.

"Naxçıvan Dövlət Universiteti mənim həyatımda" adlı məruzə ilə çıxış edən riyazi analiz kafedrasının müdiri, dosent Elşad Ağayev ali təhsil ocağının yaranma tarixi, inkişaf yolu və universitetdəki fəaliyyəti haqqında danışıb.

Sonda universitetin tarixinə aid fotoslayd nümayiş olunub.

# İslam həmrəyliyi: elm və təhsildə hədəflər

Aprelin 14-də Azərbaycan Dövlət Pedaqoji Universitetində "İslam həmrəyliyi elm və təhsildə: hədəflər və çağırışlar" mövzusunda Respublika elmi konfransı keçirilib.

Konfransı giriş sözü ilə açan ADPU-nun rektoru, professor Cəfər Cəfərov elmi məclisin 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında Azərbaycan Prezidentinin sərəncamına uyğun olaraq keçirildiyini bildirib. Rektor qeyd edib ki, İslam dini humanist, dünyəvi, ümumbəşəri və demokratik, insanları əmin-amanlığa, sülhə, xeyirxahlığa, həmrəyliyə səsləyən dindir. Azərbaycan xalqı İslami dəyərlərə böyük qiymət verir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş sağlam dövlət-din münasibətləri yüksək səviyyədə inkişaf edir. Ölkə rəhbərliyinin müdrik siyasəti nəticəsində Azərbaycanda mövcud olan tolerantlıq və multikulturalizm bütün dünya üçün layiqli nümunədir. Rektor diqqətə çatdırıb ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının, ISESCO-nun, həmçinin müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü seçilərək İslam aləmi ilə qarşılıqlı faydalı münasibətlər qurmuş, qlobal əhəmiyyətli bir sıra mühüm mədəni forumların təşkilatçısı kimi çıxış etmişdir.

ADU-nun rektoru vəzifəsini icra edən professor Əfqan Abdullayev, BDU-nun elmi işlər üzrə prorektoru, AMEA-nın müxbir üzvü, professor Aydın Kazımzadə çıxış edərək konfransın aktual mövzuya həsr edildiyini bildiriblər.

Plenar iclasda Azərbaycan Təhsil Şurasının sədri, professor Əjdər Ağayevin "İslami dəyərlər və şəxsiyyətin formalaşması", ADPU-nun Azərbaycan dilçiliyi kafedrasının müdiri, professor Nizami Xudiyevin "İslam həmrəyliyi birlik və Əməkdaşlıq hərəkatı kimi", BDU-nun Türk xalqlarının tarixi kafedrasının professoru Nisbət Mehdiyevanın "XIX əsrdə Qazaxıstanda dini və dünyəvi təhsil" mövzularında məruzələri dinlənilib.

Plenar iclasdan sonra konfrans işini 4 elmi bölmədə davam etdirib. Bölmələr üzrə 65 məruzə dinlənilib. Sonda bölmə rəhbərlərinin hesabatı əsasında yekun qərar qəbul edilib və hər bölmə üzrə "Ən yaxşı məruzə" müəllifləri seçilib.

# Tələbənin fərdi yaradıcılıq sərgisi açılıb

Aprelin 12-də Azərbaycan Memarlıq və İnşaat Universitetinin Sərgi salonunda memarlıq fakültəsinin dizayn ixtisasında təhsil alan 3-cü kurs tələbəsi Xuraman İbadullayevanın fərdi yaradıcılıq sərgisi açılıb. Sərgini memarlıq fakültəsinin dekanı Zahidə Məmmədova açıb.

X.İbadullayeva sərgidə iştirak edən AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədovaya və tədbir iştirakçılarına öz təşəkkürünü bildirib.

AzMİU-nun rektoru, professor G.Məmmədova X.İbadullayevaya yaradıcılığında və təhsilində uğurlar arzulayıb. Sonra sərginin qırmızı lenti kəsilib, tədbir iştirakçı-



ları gənc dizaynerin əsərləri ilə tanış olublar.

X.İbadullayevanın pastel, yağlı boya, karandaş, qələmlə çəkdiyi rəsmlərdən ibarət əl işləri nümayiş olunub. Sərgidə əsasən, natürmort, şəhər mənzərəsi janrında çəkilmiş rəngbərəng, müxtəlif güllər, Şirvanşahlar sarayı, Qız qalası, İçərişəhər, şüşə üzərində gül, binalar, insan təsvirləri yer alıb. Eyni zamanda buta elementlərindən istifadə etməklə insan siluetləri təsvirləri də sərgidə ziyarətçilər tərəfindən maraqla qarşılanıb.

Tədbirdə universitetin fakültə, kafedra və ictimai təşkilatlarının nümayəndələri, tələbələr iştirak ediblər.

Onu da qeyd edək ki, bu sərgi universitetin Sərgi salonunda nümayiş olunan 100-cü sərgidir. Xatırladaq ki, sərgi aprelin 21-dək davam edəcək.

# Təhsilin diaqno(stikası)zu...



Jalə MÜTƏLLİMOVA

Keyfiyyətli təhsilin təşkili həm də ölkənin, dövlətin yaxşı perspektivinin zəmanətidir. Yəni strateji əhəmiyyətlidir. O üzdən son illər Azərbaycan təhsilinin uğuru və qüsurları haqda ölkə mətbuatında, həmçinin ictimai rəydə səslənən ən primitiv fikir, xəbər belə diqqətdən kənarda qalmır.

Təhsil sistemindəki nəzərəçarpacaq son dəyişikliklərdən və səs-küylü hadisələrdən biri də müəllimlərin diaqnostik qiymətləndirilməsi oldu. Əvvəla yada salaq ki, diaqnostik qiymətləndirməni zəruri edən səbəb hansı idi?

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənin formalaşdırılması hədəfi qoyulub. Göstərilən hədəfə nail olmaq üçün müəllimlərin peşəkarlıq səviyyəsinin daim yüksəldilməsi, müəllim peşəsinin, nüfuzunun artırılmasını təmin edən yeni sistemin yaradılması nəzərdə tutulub.

Bu istiqamətdə 2014-cü ildə Bakı şəhərinin dövlət ümumi təhsil müəssisələrində fəaliyyət göstərən 30 mindən çox müəllimin bilik və səriştəsinin diaqnostik qiymətləndirilməsi keçirilib. 2015-ci ilin noyabr-dekabr aylarında isə Gəncə, Sumqayıt, Şirvan şəhərləri, Abşeron, Cəlilabad, Hacıqabul, Xaçmaz, İmişli, Qubadlı, Masallı, Saatlı, Sabirabad rayonlarının dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin diaqnostik qiymətləndirilməsi baş tutub.

**Bəlkə saxta sənədlilər indi ziyanın yarısından özləri geri qayıtsınlar, dərs otaqlarını əsl peşə sahiblərinə özləri təhvil versinlər?!**

Ötən ilin noyabr-dekabr aylarında qiymətləndirmə ölkənin 26 rayon və şəhərində davam etdirildi. Sualların 80%-dən çoxuna düzgün cavab verən müəllimlər daha çox alman, fransız dili, kimya, tarix, coğrafiya, rus dili və ədəbiyyatı fənlərini tədris edənlər olub. Fənlər üzrə müəllimlərin topladığı orta bala əsasən, ən aşağı nəticələri rus bölməsində Azərbaycan dili, ləzgi dili, ərəb dili, fiziki tərbiyə və ibtidai sinif müəllimləri göstəriblər. Qiymətləndirilmənin nəticələrinə əsasən aşağı bal toplayan müəllimlərin ehtiyacları müəyyənləşdirilib. Onlara xüsusi təlim proqramları hazırlanıb və ixtisaslarının artırılması üzrə təlimlər təşkil edilib.

Bunlar prosesin müsbət və artıq nəticələrə görə tədbir görülən tərəfidir. Bir də məsələnin hələlik sual altında qalan tərəfi var. Məsələn, 2015-ci ilin sentyabrında respublikanın müxtəlif şəhər və rayonlarında müəllim vəzifəsində çalışan, təhsil sənədi dövlət nümunəli olmayan 600-ə yaxın müəllim aşkar edilib. Onlarla bağlanmış əmək müqavilələrinə əmək qanunvericiliyinin tələbləri gözlənilməklə xitam verilməsi yerli təhsili idarəetmə orqanlarına tapşırılıb. Eyni zamanda, 2016-cı ilin sonunda respublikanın 26 şəhər və rayonunda çalışan müəllimlərin diaqnostik qiymətləndirilməsi aparılarkən müəllimlərin təhsil sənədləri yoxlanılıb və 500-ə yaxın müəllimin təhsil sənədinin dövlət nümunəli olmadığı aşkar edilib. Müvafiq tədbirlərin həyata keçirilməsi istiqamətində nazirlik tərəfindən işlər aparılıb.

Amma bütün bu məsələlər təhsilin gələcəyinin diaqnozunu qoymağa hələlik imkan vermir. Və daha dərin araşdırmaların nəticəsində indilik təqdim olunan rəqəmlərin artan istiqamətdə dəyişməyəcəyinə də zəmanət yoxdur.

Yəni yaranan ümumi mənzərə budur ki, ölkədə həyatının uzun müddətini (bunu yaxşı və ya pis etməsi hələlik müzakirə mövzusu deyil - red.) təhsilə, dərs deməyə, məktəbə, şagirdlərə həsr edən və ya həsr etdiyini düşünən böyük bir ordu rəsmi dövlət qurumu ilə üzbəüz durub. Bu uzunsürən məhkəmə prosesləri, əsəbləri dözməyənlərin hansısa aqressiv hərəkəti, baş verən qarışıqlıqda şəxsi maraqlardan istifadə edən adamların səs-küy yaratması deməkdir. İstənilən halda, yəni rəsmi sənədlərə əsaslansaq, haqsız olacaq tərəf müəllimlər, daha dəqiqi, indiyə qədər müəllim olduqlarını düşünənlər və qiymətləndirilməyə buraxılmayanlar olacaq. Amma məsələyə bir də mənəvi borclar pəncərəsindən baxılsa, diaqnostik qiymətləndirməyə buraxılmayanlara da bir qədər haqq vermək olar. Yuxarıda da qeyd edildiyi kimi, ən azından ona görə ki, onlar bu işə demək olar bütün həyatlarını həsr ediblər və bu sahə həm də insanların əməkhaqqı alıb ailələrini dolandırdığı yer olub.

Yenə də istənilən halda üz-üzə qalan tərəflərin - Təhsil Nazirliyinin və qiymətləndirilməyə buraxılmayan müəllimlərin özlərinin də ədalətli davranacağına ümidlər böyükdür. Amma bu məsələ üstündən sadəcə ötülüb keçiləsi hadisə deyil. Çünki ortada çoxsaylı suallar var. Məsələn, bu işdə ədalət hardadır? Yəni nazirlik və narazı vətəndaşlar hansı mövqeyi tutmalıdırlar? Prosesi müşahidə edən tərəfə, ictimai rəyə hər şey detallı izah edildikdən sonra kimə bəraət qazandırılacaq? Kim günahkar olacaq? Ya da məsələn, 4-6 il əziyyət çəkib ali təhsil alan müəllimlə saxta diplomlu müəllim bir məktəbdə dərs verəsi olsa, bu, birinciyə, oxuyub gələnə, psixoloji təzyiq olmayacaqmı? Kim təminat verəcək ki, növbəti etiraz dalğası onlardan gəlməyəcək? Bəs bu məsələyə göz yummuş dövlət qurumu həm suç ortağı, həm də haqlı olanı müdafiə edə bilməmək kimi ikili mövqeyində sonacan necə davam gətirəcək? Bundan başqa, saxta diplomlu müəllim şagirdə bəlli mərhələdən, diaqnostik qiymətləndirmədən sonra nə və necə öyrədəcək? Bu, müəllim-şagird münasibətlərinin gərginləşməsinə gətirməyəcəkmi?!..

Ən vacibi, həm də təhlükəli daha bir məqam: keyfiyyətli təhsili savadlı və bacarıqlı kadr verə bilər. Saxta diplomlu kadrlara şans vermək dövlət qurumlarını bu məqsəddən yayındırmış olmayacaqmı?

Suallar ən azı faktlar qədər çoxdur. Onların cavablandırılması da, faktların araşdırılması qədər vacibdir. Yəni SSRİ-nin dağılması dövründə müxtəlif ali və orta ixtisas məktəblərindən saxta diplom alan, ali və ya orta ixtisası olmayan, amma orta məktəbdə dərs saatı alan "müəllim"in sistemə necə daxil ola bilməsi məsələsi araşdırılmaya bilməz. Çünki bu, üzərinə zamanında gedilməsə, gələcəyin sosial problemidir. O üzdən diaqnostik qiymətləndirmədən sonra hələlik kənarda qalan, ya da kənarda qalacağını düşünərək aqressivləşən, bəlkə də depressiv duruma düşən insanlar, müəllimlərlə bağlı verilən qərarlar min ölçülüb, bir biçilməlidir. Çünki bu, "onlarla insan bundan sonrakı həyatına necə və kim olaraq davam edəcək, maddi problemlərini hansı yolla çözəcək?" sualının cavabıdır həm də. Amma əsas sual saxta sənədlərlə pedaqoji fəaliyyətlə məşğul olanların övladlarımıza hansı keyfiyyətli təhsili verə biləcəyidir.

Deyilənlərə onu da əlavə etmək olar ki, bu mərhələdən sonra ölkədə saxta diplomların verilməsi, təsdiqlənməmiş diplomlu mütəxəssisə iş verilməsi və sair kimi cinayət tərkibli hərəkətlərlə bağlı da ciddi ölçülər götürülməlidir. Yəni bu məsuliyyət təkcə bir dövlət qurumunun üstünə atılacaq məsələ deyil. Bütövlükdə müvafiq dövlət qurumlarının, aidiyyəti təşkilatlarının xüsusi diqqətdə saxlamalı olduqları məsələdir.

Fərd olaraq hər birimizin üzərinə düşən isə saxta yolla peşə sahibinə çevrilməklə gələcəyimizi baltalamamaqdır. Bütün hallarda çoxları bu yolu şüurlu şəkildə seçib.

Sonda bir sual da var, bəlkə saxta sənədlilər indi ziyanın yarısından özləri geri qayıtsınlar, dərs otaqlarını əsl peşə sahiblərinə özləri təhvil versinlər?!

# Pedaqoq alimin ustad dərsləri

## Tələbələrə təhsildəki yeni yanaşmalardan söz açılıb





**Həsənəli EYVAZLI,**
*Naxçıvan Müəllimlər İnstitutu, filologiya üzrə fəlsəfə doktoru, dosent*

Naxçıvan Müəllimlər İnstitutu pedaqoji kadr hazırlığı işində həmişə novator pedaqoqların, görkəmli alimlərin, səriştəli metodistlərin, habelə instituta dəvət olunan ali məktəb rəhbərlərinin gücündən səmərəli şəkildə istifadə etməyə çalışmışdır. İnstitutun rektoru, əməkdar elm xadimi, professor Oruc Həsənlinin təşəbbüsü ilə xarici ölkə ali məktəblərində çalışan alimlərin instituta tez-tez dəvət olunması tədrisin keyfiyyətinin yüksəlməsinə böyük təsir göstərir.

Son illər pedaqoji sahə üzrə Bakıda, İstanbulda və Quzey Kıprısda fəaliyyət göstərən universitetlərin və elmi-tədqiqat müəssisələrinin əməkdaşlarının institutumuza dəvət olunaraq ustad dərsləri keçmələri artıq ənənə halını almışdır. Bu dərslər tələbələrin gələcəkdə bir müəllim kimi yetişməsində xüsusi əhəmiyyət kəsb edir. Bu nəticələri nəzərə alan institut rəhbərliyi bu cür təcrübələrin daha geniş şəkildə həyata keçirilməsinə çalışır.

Bu günlərdə Bakı Elm-Təhsil Mərkəzinin prezidenti, pedaqogika üzrə elmlər doktoru, professor Fərahim Sadiqov Naxçıvan Müəllimlər İnstitutunun bakalavr və magistr tələbələri qarşısında “Təhsilin müasir problemləri və yeni yanaşmalar” mövzusunda ustad dərsləri keçib.

### Pedaqoji fikir tarixinə baxış

Pedaqoji fikir tariximizin müxtəlif mərhələlərinə münasibət bildirən mühazirəçi, təhsilimizin yeni - müstəqillik mərhələsini, müasir mərhələdə pedaqoji prosesin aktuallığını, yeni yanaşma tərzini aydın və geniş şəkildə şərh etdi. O, tələbələrə izah edərək bildirdi ki, 1990-2015-ci illər pedaqoji fikir tariximizin müstəqillik dövrünü əhatə edir. Lakin biz bu dövrün özünü də üç mərhələ üzrə təhlil edirik. Çünki 1990-1992, 1993-2003 və 2004-cü ildən bu günümüzədək olan dövrün hər birinin özünəməxsus pedaqoji yanaşma modelləri olmuşdur.

On illik bir dövrü əhatə edən ikinci mərhələnin memarı olan ulu öndərimiz Heydər Əliyev hər bir cəmiyyətin, ölkənin inkişafında təhsilin əhəmiyyətini, millətin gələcəyini əks etdirən bir sfera olduğunu önə çəkmiş və yeni təhsil strategiyasının hazırlanmasını tövsiyə etmişdir.

Bu gün artıq həyata keçirilən bu strategiyada dünyanın inkişaf etmiş ölkələrində təhsil sistemində əldə olunmuş müsbət nəticələr milli-mənəvi dəyərlərimiz baxımından təhlil edilərək yeni baxışlar müstəvisindən tətbiq edilir.

### Dərslik və dərs vəsaitlərinin təkmilləşdirilməsi

Professor F.Sadiqov təhsil islahatın tələbləri baxımından dərslik və dərs vəsaitlərinin təkmilləşdirilməsinin, müəllim-şagird münasibətlərinin yenidən qurulmasının vacibliyindən və qarşıya çıxan problemlərin aradan qaldırılması yollarından geniş söhbət açdı. Fikirlərini ayrı-ayrı ölkələrdə və yerli məktəblərdə müşahidə etdiyi beynəlxalq pedaqoji təcrübə nümunələri və müəllimlərin pedaqoji yanaşma tərzi ilə əsaslandıran ustad müəllim günümüzün təhsil strategiyasını əhatə edən elektorn dərs sisteminin də oynadığı rola öz münasibətini geniş şəkildə şərh etdi.

### Təhsil qanunvericiliyindəki yeniliklər

Təhsilin mahiyyətini, məzmununu, forma və növlərini, fasiləsiz təhsil sistemini qabaqcıl beynəlxalq təcrübədəki təhsil örnəkləri ilə müqayisəli şəkildə izah edən alim təhsil qanunvericiliyindəki yeniliklərlə də tələbələri tanış etdi. Təhsilin tərbiyələndirici, tərbiyənin təhsilləndirici, təlimin isə həm təhsilləndirici, həm də tərbiyələndirici xarakterini nəzəri və praktik cəhətdən şərh edən professor Fərahim Sadiqov bildirdi ki, ölkəmizdə son təhsil direktivlərindən biri olan “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda təhsilin modernləşdirilməsi istiqamətində qarşıya bir sıra strateji hədəflər qoyulmuşdur.

Məlum olduğu kimi, təhsilin bütün məzmunu, mahiyyəti, məqsədi, vəzifələri, üsul və yolları, inkişaf mərhələləri, növləri, formaları, tipləri üzrə görülən işlərin hamısı təlimin təşkili sistemində cəmləşir. Təlimin ən başlıca təşkilati forması isə dərs hesab olunur. Pedaqogikada dərsə belə bir tərif verilir: Fənlərin və məşğələlərin əks edildiyi, məktəb rəhbərliyi tərəfindən təsdiq edilmiş cədvəl üzrə, müəyyən vaxt çərçivəsində müvafiq sinifdə, yaxud məşğələ otağında tədris planına uyğun olaraq təşkil edilmiş təlim prosesinə dərs deyilir.

Göründüyü kimi, dərsə verilən bu tərif artıq qloballaşma dövrünün nə öyrədəni, nə də öyrənənini təmin edə bilməz. Çünki bugünkü dərs fənlərin, məşğələlərin cərəyan etdiyi məkanda təsdiq edilmiş cədvəl üzrə, müəyyən zaman kəsiyində, müvafiq məşğələ otağında tədris planına uyğun olaraq təşkil edilirsə, müasir dərs sinergetik dövrün interaktiv üsulları, kompüter texnologiyaları, müasir innovasiyalar əsasında keçirilir. Bu elektron dərslər elektron kitabxanaların və elmi-texniki tərəqqinin son nailiyyətləri olan müasir təlim texnologiyalarının gücü ilə keçirilməlidir. Bunun üçün dərsliklərdəki, dərs vəsaitlərindəki nəzəri məlumatlarla yanaşı, dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə də istinad etmək vacibdir.

### Mərhələlər üzrə həyata keçirilən müasir dərs

Hazırda Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində, təhsil kurikulumlarının tətbiqi fonunda yeni təhsil innovasiyalarının gücündən istifadə etməklə çoxvariantlı dərs tiplərindən istifadə edilir. Mərhələlər üzrə həyata keçirilən müasir dərslərdən bir nümunəyə diqqət edək:

*Birinci mərhələdə* sinfin fəallaşdırılması nəzərdə tutulur.

*İkinci mərhələdə* şagirdlərdə dərsə marağın yaradılması və bu marağın gücləndirilməsi keçirilir.

*Üçüncü mərhələ* problemli situasiyanın qoyuluşunu əhatə edir.

*Dördüncü mərhələdə* qruplarla iş aparılır. Hər bir qrupun uşaqlarına verilən tapşırıqların uzlaşdırılması və tapşırıqlar əsasında ümumiləşdirmə aparılaraq nəticələrin hasil olunması vacibdir.

*Beşinci mərhələdə* refleksiya prosesi həyata keçirilir. Məntiqi sorğu ilə şagirdlərin düşüncə tərzinin formalaşdırılması baş verir.

*Altıncı mərhələdə* alınan nəticələrin müzakirəsi olur.

*Yeddinci mərhələdə* isə müsahibə yolu ilə şagirdlərin yenidən fəallaşdırılması və qiymətləndirilməsi baş verir. Müasir dərsin quruluşu həm də *motivləşdirmə* və *layihələşdirmə* əsasında müəyyənləşdirilməlidir.

Deməli, yeni mərhələli dərs tiplərinə istinad etməyin artıq vaxtıdır. Bu dərs tipi şagirdlərə daha geniş, əhatəli və ən zəruri bilikləri verir. Çünki müəllim mövzunu bu sahənin əsas tədqiqatçısı olan mütəxəssislə birgə kecir. Bu gün əsasən standart dərslər daha çox tətbiq olunur. Bu dərs tiplərilə yanaşı, aktivləçdirici dərslərə də geniş yer vermək lazım gəlir. Bu gün ABŞ-da, Almaniyada, İtaliyada, Fransada, Belçikada sujetli-modelləşdirilmiş dərslərə geniş yer verilir.

### Dərsə verilən müasir tələblər

Pedaqoji ədəbiyyatda həm dərsə verilən müasir tələblər, həm də müasir dərsə verilən tələblər kimi müxtəlif tərzdə təsnifatlara təsadüf edilir. Əslində müasirlik həm dərsə, həm tələblərə aid olduğu üçün dərsə verilən tələblərlə bağlı diqqətə çəkilən başlıq və yarımbaşlıqlarda müasir sözünün harda işlədilməsinin heç bir əhəmiyyəti yoxdur. Dərsə verilən tələblər də ənənəvi pedaqogikalarda müxtəlif tərzdə təsnif edilmişdir. Lakin elə tələblər var ki, onları bütün müəlliflər əsas tələblər kimi təsnifata daxil etmişlər. Bütün bunları nəzərə alaraq dərsə verilən müasir tələbləri aşağıdakı kimi sistemləşdirmək olar:

- Dərsin elmi-pedaqoji, fəlsəfi-didaktik məqsədinə uyğun olaraq mərhələlər üzrə təşkilinə nail olmaq.
- Dərsin məntiqi ardıcıllığının həm didaktik, həm də psixoloji cəhətdən tamlığının təmin olunması.
- Dərsin əsas didaktik vəzifələrinin müasir dövrün tələblərinə uyğun olaraq düzgün müəyyənləşdirilməsi.
- Dərsin quruluşunun düzgün müəyyənləşdirilməsi (sinfin fəallaşdırılması, dərsə marağın gücləndirilməsi, problemli situasiyanın yaradılması, motivləşdirmə və layihələşdirmə işinin düzgün qurulması, refleksiya və s.).
- Dərs zamanı təlimin təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici vəzifələrinə uyğun işin həyata keçirilməsi.
- Dərsdə yeni təlim prinsipləri, üsullar, ən aparıcı, ən müasir imkan və yollarından istifadə edilməsi.

### Dünyanın təhsil sistemlərindəki özəlliklərlə müqayisə

Sonra professor F.Sadiqov problemlə bağlı trafaretləri nümayiş etdirdi və slaydları sərgilədi. O, slaydlarda Azərbaycan təhsilinin məzmununu ABŞ-ın, Almaniyanın, İngiltərənin, Fransanın, Çexiyanın, Norveçin, İsveçin, Hollandiyanın, Hindistanın, Çinin, İtaliyanın təhsil sistemindəki özəllikləri ilə müqayisə etdi.

İnternet və kompüter sistemlərindən, innovativ texnologiyalardan istifadə edilməklə qurulan ustad dərslərində magistrlər, dissertantlar, doktorantlar, gənc müəllimlər və pedaqoji kollektivin üzvləri də iştirak etmişlər.

# Pedaqoji təcrübə zamanı dərslərin təhlili



## Təcrübəçi tələbə nəzəri bilik və məlumatındakı çatışmazlığı kollektivin rəyi vasitəsilə öyrənir

**Azad ABDULLAYEV,**
*Astara Pedaqoji Kollecinin metodisti, qabaqcıl təhsil işçisi*

Orta ixtisas təhsili müəssisələrinin tədris planlarına əsasən aprelin ilk həftəsindən etibarən pedaqoji profilli kolleclərdə aktiv pedaqoji təcrübəyə start verilir. Müəllim hazırlığında mühüm vasitə sayılan pedaqoji təcrübə zamanı təcrübəçi tələbə, ilk növbədə, məktəblə tanış olur. Sonra siniflərdən birinə təhkim olunaraq şagirdləri öyrənir, onların psixoloji durumu ilə bağlı müşahidələr aparır. Digər təcrübəçi tələbələrin dərslərində, müzakirələrdə iştirak edir, fikir və mülahizələrini bildirir.

Bu məqsədyönlü və planlı fəaliyyətdə ən ciddi, gərgin və yaradıcı mərhələ tələbənin dərsə hazırlaşması, dərslərin elmi-pedaqoji və metodik baxımdan yüksək səviyyədə keçməsi, dərslərin təhlili zamanı opponentlərinin fikirlərinə münasibət bəsləməsidir. Təkcə dərsin təşkili özü böyük prosesdir: dərsin məqsədinin müəyyən edilməsi, dərsin motivasiyasının işləyib hazırlanması, tədqiqat suallarının qısaca ifadə edilməsi, tədqiqat aparma mərhələsini planlaşdırmaq, fasilitasiya üçün suallar hazırlamaq, məlumat mübadiləsi, məlumatın müzakirəsi və təşkili, nəticələrin çıxarılması, yaradıcı tətbiqetmə, şagird biliklərinin qiymətləndirilməsi, dərs üçün lazım olan ləvazimat və təchizatın müəyyən edilməsi, İKT-dən, testlərdən istifadə və s. hələ pedaqoji stajı olmayan, sinif mühitində az fəaliyyət göstərmiş təcrübəçi tələbə üçün o qədər də asan deyil. Müşahidələr göstərir ki, dərslərə hazırlıq təcrübəçi tələbənin uğurunda başlıca amildir. Dərslərin səmərəli keçməsində həm də sinfin ümumi hazırlıq səviyyəsi, pedaqoji rəhbər və metodistin təcrübəçiyə əməli kömək və məsləhətləri, tələbə yoldaşlarının psixoloji və mənəvi dəstəyi vacibdr.

Ümumilikdə, pedaqoji təcrübədə keçilmiş dərslərin təhlili mühüm əhəmiyyət kəsb edir. Bu təhlil zamanı təcrübəçi tələbə özünün nəzəri bilik və məlumatındakı çatışmazlığı kollektivin rəyi vasitəsi ilə öyrənir, gələcək fəaliyyətində dərs zamanı hansı tərəflərə daha çox diqqət yetirməli olduğunu müəyyənləşdirir, bilavasitə pedaqoji fəaliyyət illərində dərslərə hazırlaşarkən hansı tərəf və motivlərə daha çox diqqət yetirməyin zəruriliyini diqqətində saxlayır.

Bu baxımdan pedaqoji təcrübə zamanı dərslərin təhlili sxemi ilə bağlı təcrübəçi tələbələrə müəyyən məlumat verilməsi xüsusi əhəmiyyət kəsb edir. Bunun üçün pedaqoji təcrübənin elə ilk günlərində tələbələr nümunəvi sxemlə tanış edilməlidirlər. Buraya daxildir:

- Dərsin mövzusu. Mövzu üzrə dərslər sistemində bu dərsin yeri.
- Dərsin təlim-tərbiyəvi məqsədləri.
- Dərsin təşkili. Dərsə davamiyyət və şagirdlərin məşğələyə hazırlığı.
- Şagirdlərin diqqətinin məşğələyə cəlb olunması, sinfin dərsin keçirilməsinə hazırlanması.
- Şagirdlərin bilik, bacarıq və vərdişlərinin yoxlanılmasının məzmunu və metodları, dərsdə yeri və məqsədi. Yoxlamanın metodları. Praktik işlər, müstəqil işlər, məşğələlərin diferensial xarakteri. Şagird cavablarının əhatəliliyi və dolğunluğu. Sinfin fəallığı. Biliyi yoxlamanın nəticələrinin yekunlaşdırılması. Şagird cavablarının qiymətləndirilməsi.
- Yeni biliyin məzmunu və öyrədilməsi metodikası. Müəllimin verdiyi biliyin həcmi və sistemi, çatdırma metodları. Məlumatın elmiliyi, obrazlılığı, mənimsənilmə asanlığı, əvvəlki materiallarla əlaqəliliyi.
- Şagirdlərin mənimsəmə fəaliyyətinin aktivləşdirilməsi, ayrı-ayrı mərhələlərdə onların maraq və diqqətini cəlb etmənin üsul və vasitələri.
- Şagirdlərin yaradıcı fəallığa cəlbi. Cədvəl, xəritə, sxem, şəkil və s. nümayişi, eksperimentlərin təşkili, İKT-dən istifadə, dərslik, əlavə ədəbiyyat və s.
- Keçilmiş materialların məzmununun möhkəmləndirilməsi və yaradıcı tətbiqetmənin metodikası. Diferensiallaşdırılmış müstəqil iş və tapşırıqların verilməsi.
- Ev tapşırıqlarının həcmi, forması və məzmunu. Ev tapşırıqlarını yerinə yetirmənin yollarının öyrədilməsi. Ayrı-ayrı şagirdlərə əlavə (fərdi) tapşırıqların verilməsi.

Bu məsələlər nəzərə alınmaqla təklif olunan nümunəvi sxem təcrübəçilərə öz işlərini səmərəli qurmaqda kömək edir.

Pedaqoji təcrübə prosesində gələcək müəllimlərə çatdırılmalıdır ki, təlim prosesində şagirdlərin diqqətini cəlb etmək mühüm faktordur. Dərsdə diqqəti cəlb etmənin prinsipləri vardır. Bunlara müəllimin zahiri görkəmi, mimika və s. Pedaqoq səliqəli, təmiz və peşəsinə uyğun şəkildə geyinməlidir. Nitqi səlis, rəvan, rabitəli, obrazlı, danışıq tərzi aydın olmalıdır. Şagirdlərin diqqətini cəlb edən tərəflərdən biri əyani vəsaitlərin təzəliyi və səliqəliliyi, cazibədarlığıdır. Dərs mühiti əyaniləşdirilərkən şəkil, sxem, tablo, cədvəl, əsərlərin nüsxələri və s. ardıcıllıq və sistemlilik üzrə yerləşdirilməlidir.

Təcrübə zamanı dərslərdə təcrübəçi tələbə şagirdlərin yeni materialı dərk etmələri üçün mütləq problem situasiyalar yaratmalıdır. Müəllim nəzəri bilikləri öyrədərkən İKT-dən istifadə etməli, suallarla biliyin mənimsənilmə vəziyyətini, dərketməni aşkara çıxarmalı, şagirdləri ilkin ümumiləşdirmə aparmağa yönəltməli, yeni anlayışların mənimsədilməsində qazanılmış biliklərə istinad olunmalıdır.

Bu prosesdə müəllim şəxsiyyəti ilə bağlı məsələlərə diqqət yetirilməli, onun uşaqlara hansı mənəvi-əxlaqi keyfiyyətləri aşıladığı aydınlaşdırılıb müəyyənləşdirilməlidir.

Dərsin təhlili zamanı təcrübəçi tələbələr müəllimə xarakteristika verməlidirlər: materialla bağlı nəzəri biliyi dəyərləndirilməli, metodik ustalığı haqqında obyektiv fikirlər söylənilməli, fənnə marağı və bələdliyi aşkarlanmalı, pedaqoji taktı haqqında mülahizələrlə yanaşı, nitqi (diksiyası, tempi, nitq mədəniyyəti, nitqinin obrazlılıq və emosionallığı) barədə kollektiv rəy formalaşmalıdır.

Dərsin təhlili zamanı təcrübəçilər öyrənməlidirlər:

- Yaxşı dərsin əsas əlamətlərindən biri qarşıda qoyulmuş məqsədə çatmağın dəqiq və məqsəd aydınlığıdır; şagirdlərin yaş və bilik səviyyələrinə müvafiq imkanlardan səmərəli istifadədir;
- Dərs həm əvvəlki, həm də sonra keçiləcək məşğələlərlə əlaqələndirilməlidir. Bunun üçün təcrübəçi əvvəl keçilmiş mövzuları öyrənməli, yeri gələndə bununla bağlı suallar verməli, şagirdlərin fəallığını təmin etməlidir;
- Təcrübəçi tələbənin dərsinin üstün cəhətlərindən biri məşğələdə təlimlə tərbiyənin vəhdətinin təmin olunmasıdır. Proqram materialı planlaşdırılarkən vətənpərvərlik, bəşərilik, qəhrəmanlıq və s. hisslərin aşılanması məqamları aşkara çıxarılmalı və dərsdə öz yerində istifadə olunmalıdır;
- Sınaq və yoxlama dərslərində müəllim 45 dəqiqə ərzində informator olmaqla kifayətlənməməli, həm də şagirdləri fəallaşdırmalıdır;
- Təcrübəçi dərs vaxtından maksimum səmərəli istifadə etməlidir;
- Təhlil zamanı dərsin təchizi məsələsi də qiymətləndirilməlidir;
- Dərsin yekun mərhələsi təhlildə xüsusi diqqət mərkəzində olmalıdır.

Pedaqoji təcrübə zamanı dərslərin təhlili nümunəsinin tələbələrə öyrədilməsi və təhlillər zamanı qeyd olunan prinsip və tələblərə əməl edilməsi pedaqoji təcrübənin səmərəli keçməsi ilə nəticələnir, şagirdlərin pedaqogika və psixologiya, xüsusi metodikalar, müasir təlim texnologiyaları üzrə bilik və məlumatlarını genişləndirir, belə dərslər ümummüktəb işinə fayda verir, dərslər silsiləsində boşluq yaranmır. Eləcə də təcrübə zamanı tələbənin öyrənməsi fasiləsiz xarakter daşıyır.

# "Ən nüfuzlu universitetləri nümunə götürdük"



## Fariz Əhmədov: *"Magistrantlara UNEC diplomu ilə yanaşı, Avropanın nüfuzlu universitetlərinin də diplomunun verilməsi nəzərdə tutulub"*

*Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) davam edən struktur islahatları çərçivəsində əldə olunan ən mühüm nailiyyətlərdən biri Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin (BMDM) yaradılmasıdır. BMDM-nin direktoru, iqtisadiyyat üzrə fəlsəfə doktoru Fariz Əhmədovun mərkəzin fəaliyyəti barədə müsahibəsini təqdim edirik:*

**- Fariz müəllim, ilk növbədə BMDM haqqında məlumat verərdiniz...**

- Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi ali təhsilin magistratura və doktorantura pilləri üzrə müasir tələblərə cavab verən mütəxəssislər hazırlamaq məqsədilə UNEC rektorunun 3 dekabr 2015-ci il tarixli əmri ilə yaradılıb. Mərkəzdə magistrantların tədrisi 5 ixtisas üzrə 4 dildə - Azərbaycan, ingilis, rus və türk dillərində həyata keçirilir. Biznesin təşkili və idarə olunması ixtisası üzrə tədris Azərbaycan, türk, rus, beynəlxalq münasibətlər və diplomatiya ixtisası üzrə Azərbaycan, türk, beynəlxalq iqtisadi münasibətlər və maliyyə menecmenti ixtisasları üzrə ingilis, turizm və otelçilik ixtisası üzrə isə Azərbaycan və türk dillərində təşkil edilir.

**- Mərkəzdə mövcud tədris prosesi nə ilə fərqlənir?**

- Əsasnaməsi, təhsil və tədris sistemi, tədris proqramları beynəlxalq standartlara uyğun şəkildə tərtib edilmiş Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi ali təhsilin magistratura pilləsi üzrə yeni təhsil standartlarının modernləşdirilməsinin təşəbbüskarı olmaqla yanaşı, bu standartlarla ölkəmizdə fəaliyyət göstərən ilk mərkəzdir. BMDM-nin təhsil standartları ilə bağlı qeyd edə bilərik ki, əvvəlki standartlarla müqayisədə bir sıra əhəmiyyətli dəyişikliklər edilib. Belə ki, yeni proqram üzrə tədris olunacaq fənlər həmin ixtisaslaşmaları ümumi şəkildə əhatə etdiyindən, ayrıca ixtisaslaşmalara bölünmə əvəzinə ümumi ixtisas altında birləşdirilmə həyata keçirilib. İxtisas üzrə magistr təhsil proqramının yerinə yetirilməsi müddəti ilə bağlı edilmiş yeniliklərə gəldikdə isə yeni təhsil proqramında nəzəri təlimə ayrılan həftə sayı azaldılaraq 30-a endirilib, "Tədqiqatlar, kommunikasiya və innovasiya" və "Tədqiqat işinin aparılması"na isə 8 həftə ayrılıb. İmtahan sessiyaları 10 həftəyə endirilib, magistr dissertasiyasının hazırlanması və müdafiəsinə isə 24 həftə ayrılıb. Keçilən dərslərin kreditlərinin sayı AKTS-yə (Avropa Kredit Transfer Sistemi) uyğun şəkildə artırılır və ümumilikdə 60 həftəlik təhsil müddətini bitirdikdən və magistr dissertasiya işini müdafiə etdikdən sonra tələbə 120 kreditlik proqramını bitirmiş hesab edilir. Magistrantların yalnız nəzəri bilikləri deyil, müvafiq ixtisas üzrə iş təcrübəsi ilə bağlı məlumat əldə etməsi üçün iş dünyasından olan müəllim heyətinə də ehtiyac duyulur. Bu baxımdan, təhsil standartlarında öz əksini tapmış ən mühüm yeniliklərdən biri müvafiq sahə üzrə iş təcrübəsi olarsa, magistr dərəcəsinə malik olan şəxslərin də tədris prosesinə cəlb edilməsinin mümkünlüyüdür.

**- Bəs, tələbələrin xarici dil bilikləri hansı səviyyədədir? Tədrisdə nəzərdə tutulan digər fənlərdə dəyişikliklər varmı?**

- Xarici dil bilikləri ilə bağlı qeyd edim ki, magistratura pilləsinə qəbul zamanı tələbə xarici dil fənni üzrə də imtahan verdiyi üçün "Humanitar fənlər" bölümündən xarici dil fənninin tədrisi çıxarılıb. Ali məktəb pedaqogikası və psixologiya fənləri isə "Tədqiqatlar, kommunikasiya və innovasiya" fənnində birləşdirilib. Fənnin mahiyyəti ondan ibarətdir ki, magistrant müəllimlə birlikdə bakalavr pilləsi üzrə dərslərdə iştirak etməklə tələbə psixologiyasını və eyni zamanda ali məktəb pedaqogikasını öyrənəcək, tələbələrlə çalışma, onları qiymətləndirmə metodlarına daha yaxından bələd olacaqdır. Bu da magistrantın ali məktəb psixologiya və pedaqogikasını daha keyfiyyətli mənimsəməsinə, yalnız nəzəri deyil, eyni zamanda praktiki vərdişlərə də yiyələnməsinə gətirib çıxaracaq.

Tədqiqat işinin aparılması fənni üzrə isə elmi araşdırmaların aparılma qaydaları tədris olunacaq. Magistrantın dissertasiya işi ilə bağlı bir elmi məqalə yazaraq beynəlxalq və ya yerli elmi jurnal və ya konfranslarda nəşr etdirməsi həmin fənn üzrə müvəffəqiyyət göstəricisi hesab olunacaq. Burada əsas məqsəd magistrantların akademik məqalə yazmaq vərdişlərini inkişaf etdirmək və eyni zamanda onları elmi araşdırmalara daha çox cəlb etməkdən ibarətdir.

"İxtisaslaşma fənləri" bölümündə iqtisad elminin tarixi və metodologiyası fənninin əvəzinə tədqiqat metodları fənni tədris olunur. Bu fənnin tədrisi zamanı tələbə müvafiq ixtisas sahəsi üzrə tədqiqat və araşdırma metodlarını, elmi məqalələrin, tezislərin yazılmasını, akademik etika qaydalarını və s. öyrənir.

Daha bir dəyişiklik "Seçmə fənn" blokunun ləğv olunaraq ali məktəb tərəfindən müəyyən edilən məcburi fənlər blokuna daxil edilməsidir. Bu fənn blokunda ixtisasla bağlı müasir dövrün iş mühitinə uyğun vacib sayılan fənlər müəyyən edilib. Tətbiq edilən yeniliklərdən biri də magistratura pilləsində daha çox məqsədəuyğun hesab edildiyi üçün məşğələ dərsinin əvəzinə məsləhət saatları şəklində müzakirələrin keçirilməsi, mühazirə-seminar dərslərinin isə birləşdirilməsinin nəzərdə tutulmasıdır.

**- Yeni tədris planlarınız barədə nə deyə bilərsiniz?**

- Tədrisin birinci ilində hər semestr üzrə 3-ü məcburi, 2-si seçməli olmaqla cəmi 5 fənn tədris olunur. Tədrisin ikinci ilinin ilk semestri "Tədqiqatlar, kommunikasiya və innovasiya", dissertasiya işi, elmi-tədqiqat və elmi-pedaqoji təcrübəyə ayrılır. Sonuncu, yəni ikinci semestr isə yenə dissertasiya işi və "Tədqiqat işinin aparılması"na həsr edilib. Hər semestr üzrə kreditlərin sayı 30-dur. "Seçməli dərslər" blokunda isə magistrantlara 6 fənn payız, 7 fənn yaz semestri olmaqla ümumilikdə 12 fənn arasından seçim etmək imkanı verilir. Təhsil naziri Mikayıl Cabbarovun əmri ilə yeni standartlar qəbul edildikdən sonra UNEC rektorunun göstərişi ilə 11 ixtisas üzrə 40-a yaxın ixtisaslaşmanın yeni, ən müasir tədris proqramlarını hazırladıq. Biz bu tədris proqramlarını hazırlayanda dünyanın ən nüfuzlu universitetlərini nümunə götürdük və eyni zamanda yerli və xarici mütəxəssislərin rəyini aldıq. Hazırda əminliklə deyə bilərəm ki, BMDM-nin magistrantları ən müasir tədris proqramları ilə təhsil alırlar.

**- Mərkəzin müəllimlərinin iş təcrübəsi hansı səviyyədədir?**

- Ümumiyyətlə, BMDM-də tədris prosesi universitetimizin müəllimləri ilə yanaşı, ABŞ-ın Massaçusets Texnologiya İnstitutu (MIT), Stanford Universiteti, İngiltərənin London İqtisadiyyat Məktəbi, Stirlinq, Qlazqo, Uorvik və Kardif, Türkiyənin Sakarya, Qazi və Ankara universitetləri kimi nüfuzlu xarici ali təhsil ocaqlarında təhsil almış və müvafiq sahə üzrə təcrübəsi olan müəllimlər tərəfindən həyata keçirilir. Qeyd edim ki, dövlət və özəl qurumlarda işləyən, dövlət xətti ilə dünyanın nüfuzlu universitetlərində təhsil alan bir çox menecer Mərkəzdə mühazirə oxumaq üçün bizə müraciət edib.

**- Mərkəzin gələcək beynəlxalq əməkdaşlıq planları nədən ibarətdir?**

- BMDM-də təhsil alan magistrantlara UNEC diplomu ilə yanaşı, Avropanın nüfuzlu universitetlərinin də diplomunun verilməsi nəzərdə tutulub. 2016-cı ilin sentyabr ayında magistratura pilləsi üzrə Türkiyənin Süleyman Dəmirəl Universiteti ilə ikili diplom razılaşması əldə edilib. Bundan əlavə, biznesin təşkili və idarə edilməsi, maliyyə ixtisasları üzrə Uludağ Universiteti, turizm və otelçilik ixtisası üzrə Sakarya Universiteti, biznesin təşkili və idarə edilməsi ixtisası üzrə Makedoniyanın Beynəlxalq Vizyon Universiteti və Litvanın Mikolos Romeris Universiteti ilə bu cür layihələrin həyata keçirilməsi planlaşdırılır.

Ümumiyyətlə, Mərkəzin gələcək hədəfləri arasında nəinki ikili diplomla bağlı beynəlxalq əməkdaşlığın genişləndirilməsi, eyni zamanda yeni ixtisasların açılması, ingilis dilində tədris olunan ixtisasların sayının artırılması, Mərkəzin özünün beynəlxalq elmi jurnalının yaradılması, beynəlxalq elmi konfranslarla və qurumlarla əlaqələrin qurulması və gücləndirilməsi, tədris prosesinə xarici universitetlərin professor-müəllim heyətinin cəlb edilməsi əsas yer tutur.

**- BMDM-də xarici tələbələr də təhsil alır?**

- Bəli, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzində bütövlükdə 141 magistr, o cümlədən, Türkiyə, Rusiya, Almaniya, Banqladeş, Zimbabve, Qambiya kimi ölkələri təmsil edən 10 nəfər əcnəbi magistrant təhsil alır. Ümid edirəm ki, xarici universitetlərlə əməkdaşlığımızın miqyası genişləndikcə, əcnəbi magistrantlarımızın sayı daha da artacaq.

# Əcnəbi tələbələr: UNEC-də keyfiyyətli təhsil alırıq



BMDM-də təhsil alan əcnəbi tələbələrdən biri - Almaniyanın Yena Fridrix Şiller Universitetinin magistrantı olan Qanimete Şolz "Erasmus+" mübadilə proqramı çərçivəsində BMDM-də 2 semestr təhsil almaq imkanı qazanıb. Onun ölkəmiz və BMDM-də təhsillə bağlı təəssüratları zəngindir: "Bakıya gələnədək Almaniyada insanların əksəriyyəti mənim nə üçün Azərbaycanı seçdiyimi anlamırdılar. Bu, başadüşüləndir, çünki Azərbaycan kiçik ölkədir. İnsanların əksəriyyəti Azərbaycanı "Eurovision" mahnı müsabiqəsinə, az bir qismi isə caz musiqisinə görə tanıyır, odlar diyarı və neftlə zəngin ölkə kimi təsvir edirlər. Ailəm, dostlarım və elmi rəhbərim də məndən soruşurdu ki, həqiqətən bu ölkəyə getmək istəyirəmmi? Elə burada da insanlar hardan gəldiyimi soruşduqdan sonra ilk sual olaraq nə üçün Azərbaycanı seçdiyimi bilmək istəyirdilər. Yenə də mən Almaniyada izah etdiyim səbəbləri təkrarlamalı olurdum. Onu deyə bilərəm ki, Avropadan kənara çıxmaq, fərqli mədəniyyət və düşüncələrə malik insanlarla tanış olmaq istəyirdim. İlk növbədə qeyd edim ki, Bakıya və universitetinizə gəldiyimdən bəri istər tələbələr, istərsə də müəllimlər tərəfindən çox böyük qonaqpərvərliklə qarşılandım. Buradakı gözəl və yardımsevər insanların mehriban münasibətinə görə, mənim üçün Bakıda məskunlaşmaq və buranın həyatına uyğunlaşmaq baxımından gözlədiyimin əksinə, heç bir çətinliklə üzləşmədim. Azərbaycanda insanlar avropalılardan bir çox cəhətdən fərqlənirlər, məsələn, burada insanlar digərlərinə də vaxt ayıraraq hər hansı bir problemi həll etməkdə sonadək köməklik göstərirlər. Azərbaycanlıların həyata fərqli yanaşdığını gördükcə, tədricən mən dünyanı fərqli şəkildə dərk etməyə başlayıram.

BMDM-lə bağlı təəssüratlarına gəldikdə, Qanimete Şolz bildirir ki, Azərbaycanın təhsil sistemi Almaniyadan fərqli olaraq, daha çox ABŞ-ın təhsil sisteminə bənzəyir. ABŞ-da olduğu kimi burada da tələbələr semestr ərzində müəyyən cədvəl üzrə beş fərqli dərs ala bilirlər: "Fərqli cəhətlərdən biri də ondan ibarətdir ki, burada dərslərə davamiyyət məcburidir. Buna baxmayaraq, BMDM-nin müəllimlərinin əksəriyyəti təhsil aldıqları sahə üzrə həm də zəngin iş təcrübəsinə malik olduğundan mühazirələr daha maraqlı və motivasiyaedicidir. Xüsusən də, London İqtisadiyyat Məktəbi və digər nüfuzlu universitetlərin məzunu olan müəllimlər öz sahələrində yüksək ixtisaslaşıblar və ingilis dilində çox sərbəst şəkildə dərs tədris edirlər. Müəllimlər tələbələri ölkənin inkişafına töhfə verə biləcək istiqamətdə yetişdirməli və inkişaf etməkdə olan ölkələrin üzləşdiyi problemlərə həssas yanaşmalıdır. Dərs materialı bəzən Almaniya universitetləri ilə müqayisədə az olsa da, bu, müəyyən mövzu ilə bağlı daha dərindən araşdırma aparmağa imkan verir. Müəllimlər mövzunu ətraflı şəkildə izah etdiyindən bu məni dərsi daha yaxşı qavramağa və sonadək dinləməyə təşviq edir. Ümumiyyətlə, qeyd etmək istəyirəm ki, burada təhsil almaq imkanı əldə etdiyim üçün çox xoşbəxtəm. Bu mənim düşüncə tərzimi dəyişdi və inkişaf etməkdə olan ölkələrin problemlərini daha yaxından müşahidə etməyimə imkan verdi. Mən burada tanış olduğum hər kəsə, xüsusən də mənim Azərbaycanı müxtəlif tərəflərdən dərk etməyimdə müsbət rol oynayan bütün insanlara öz təşəkkürümü bildirirəm və bu ölkəyə gələcəkdə hər şeyin ən yaxşısını arzulayıram".



Təhsil aldığı Mərkəzlə bağlı təəssüratlarını bölüşən digər bir magistr Türkiyənin İğdır şəhərində yaşayan Hikmet Alcan işi ilə əlaqədar Bakıya köçüb və magistratura təhsilini də burada almağa qərar verib. Bakalavr təhsilini Eskişehir Anadolu Universitetində bitirib, tədrisin türkcə olması, müəllim heyətinin əksəriyyətinin Türkiyə və xarici universitetlərdə təhsil aldığını nəzərə alaraq BMDM-də oxumağı seçib. Onun fikrincə, mükəmməl müəllim heyətinə malik olduğu üçün UNEC Azərbaycanın aparıcı universitetlərindən biridir. Hikmet UNEC-i digər ali təhsil müəssisələrindən fərqləndirən cəhətin müasir tədris üsullarının geniş tətbiq edilməsi və bu səbəbdən tələbəni əzbərçiliyə deyil, daha çox tədqiqat aparmağa təşviq etməsində görür.



Mərkəzdə təhsil alan əcnəbi magistrantlardan biri də Rusiya Federasiyasının vətəndaşı Arzu Axmatovadır. O, bakalavr təhsilini Dağıstan Dövlət Universitetində maliyyə ixtisası üzrə bitirib. Həmin universitetdə türk dili kursunu başa vurduqdan sonra Türkiyənin İstanbul Universitetində beynəlxalq münasibətlər ixtisası üzrə də təhsil almış Arzu hazırda UNEC-də təhsilini davam etdirir. Mərkəz haqqında məlumatı UNEC-in Dərbənd filialı vasitəsilə əldə edib, təhsilini də türkcə davam etdirmək istədiyindən burada oxumaq qərarına gəlib. Arzu Mərkəzdə yaradılan şəraitdən, keyfiyyətli tədris prosesindən, müəllim və tələbələrin mehriban münasibətindən olduqca məmnun qaldığını qeyd etdi. O, UNEC-də əldə etdiyi dəyərli biliklər sayəsində gələcəkdə Azərbaycan-Rusiya münasibətlərinin inkişafına töhfə verəcəyinə ümid etdiyini də bildirdi.



"Erasmus+" mübadilə proqramının digər iştirakçılarından olan Zimbabve vətəndaşı Qarret Şokod bakalavr təhsilini Əlcəzairin Mulud Mammeri, magistr təhsilini isə Türkiyənin Anadolu Universitetində beynəlxalq biznes ixtisası üzrə alıb, hazırda isə BMDM-də magistr dissertasiya işi üzərində çalışır. Qarret UNEC-ə yeni gəldiyini, lakin bu qısa dövr ərzində özünə qarşı çox mehriban münasibətin şahidi olduğunu bildirdi.



BMDM-in digər əcnəbi magistrantlarından olan Umut Şahin və Eda Bahar Şahin uzun illərdir Azərbaycanda yaşadıqlarını, BMDM-dəki təhsil sistemi və müəllim heyəti haqqında məlumat əldə etdikdən sonra bu sistemdən faydalanmaq üçün müsabiqəyə sənəd verdiklərini və ötən semestrin onların təhsilində çox səmərəli olduğunu bildirdilər. Onlar müəllim heyətinin hər tələbənin ayrı-ayrılıqda qayğısına qalmasının, iş həyatında faydalı olacaq məsləhət və təcrübələrini bölüşmələrinin təqdirəlayiq olduğunu qeyd etdilər.

Umut Şahin BMDM-dəki bu şəraitin ölkədəki təhsil sisteminə müsbət təsir göstərəcəyini düşünür: "Türkiyədəki dostlarımla BMDM haqqında fikirlərimi könül rahatlığı ilə bölüşür və gələcəkdə burada keyfiyyətli təhsil ala biləcəklərini bildirirəm. Çünki BMDM yüksək səviyyədə təhsil verən və tələbə biliyini ədalətli şəkildə qiymətləndirən bir təhsil qurumudur".



Proqram çərçivəsində BMDM-də təhsil alan digər əcnəbi magistrant Banqladeş vətəndaşı Rəşid Cahangirdir. Bakalavr təhsilini maliyyə ixtisası üzrə Banqladeş Şimal Universitetində, magistr təhsilini isə beynəlxalq biznes ixtisası üzrə Türkiyənin Anadolu Universitetində alıb, hazırda isə dissertasiya işi üzərində çalışır. Rəşid də burada insanların mehriban və yardımsevər olduğunu, UNEC-də olmaqdan məmnunluğunu ifadə etdi.



Mübadilə proqramının iştirakçısı olan magistrantlardan biri də Qambiya vətəndaşı Ebrima Qomezdir. Bakalavr təhsilini İqtisadiyyat ixtisası üzrə Qambiya Universitetində, magistr təhsilini də eyniadlı ixtisas üzrə Türkiyənin Anadolu Universitetində almış, digər yoldaşları kimi hazırda magistr dissertasiya işi üzərində tədqiqatla məşğul olur. Ebrima da qeyd edir ki, Azərbaycanda insanlar gülərüz və mehribandır və BMDM-də çox yaxşı münasibətlə qarşılaşıb.

# Dünyanın ən gənc universitetlərinin reytinqi

**Oruc MUSTAFAYEV**

Böyük Britaniyanın təhsil sahəsində ixtisaslaşmış “Times Higher Education Rankings” jurnalı 2017-ci il üzrə dünyanın yaşı 50-dən çox olmayan ən yaxşı universitetlərinin sayca 6-cı illik reytinq cədvəlini açıqlayıb. Öz ölkələrində 50 il əvvəl yaradılmış ən gənc universitetlərin reytinq cədvəlinə son 2 ildə davamlı olaraq İsveçrənin Lozanna Ali Politexnik Məktəbi başçılıq edir. İlk 10-luqda Honkonq Elm və Texnologiya Universiteti (Honkonq), Nanyanq Texnologiya Universiteti (Sinqapur), Pohanq Elm və Texnologiyalar Universiteti (Cənubi Koreya), KAİST Qabaqcıl Elm və Texnologiyalar İnstitutu (Cənubi Koreya), Maastrixt Universiteti (Niderland ), Honkonq Şəhər Universiteti (Honkonq), Ulm Universiteti (Almaniya), Karlsrux Texnologiya İnstitutu (Almaniya), Scuola Superiore Sant'Anna Universiteti (İtaliya) yer alıblar. Bütövlükdə 48 ölkədən 200 ali məktəbin təmsil olunduğu reytinqin ilk 50 sırasında yer almış 29 universitet Avropada, 7-si isə Asiyada yerləşir. Sıralamanın ilk onluğunda 5 Asiya universiteti yer alıb. Bütövlükdə ilk 100-lüyə 40 ölkənin ali məktəbi daxil olub. Ən yaxşı 100 universitet sıralamasında Avstraliya 16, Fransa 12, İtaliya 10, Almaniya 9, ABŞ 5, İspaniya, Türkiyə və Böyük Britaniya 4, Honkonq 3, Cənubi Koreya 2 universitetlə təmsil olunub.

Reytinqin məqsədi ali təhsil məkanında güclü rəqiblərlə rəqabətə qoşulmaqdan çəkinməyən gənc, dinamik ali məktəblərin inkişafını izləməkdir. Reytinq tərtib olunarkən ali məktəblərin akademik nüfuzu, tələbə-müəllim nisbəti, bir elmi-pedaqoji işçiyə düşən elmi məqalələrdən sitatgətirilmə, işəgötürənlər arasında nüfuzu, əcnəbi tələbə və müəllimlərin sayı kimi kriteriyalar nəzərə alınır. Reytinqlə daha ətraflı *www.timeshighereducation.com/world-university-rankings/2017/young-university-rankings* səhifəsindən tanış olmaq olar.

| Tutduğu yer | Ali məktəb | Ölkə | Tələbə sayı | Tələbə-müəllim nisbəti | Beynəlxalq tələbələr | Qadın - kişi tələbə nisbəti |
|---|---|---|---|---|---|---|
| 1. | École Polytechnique Fédérale de Lausanne | İsveçrə | 9750 | 11.2 | 54% | 27 : 73 |
| 2. | Hong Kong University of Science and Technology | Honkonq | 11960 | 27.3 | 38% | əks olunmayıb |
| 3. | Nanyang Technological University, Singapore | Sinqapur | 25278 | 16.1 | 32% | 49 : 51 |
| 4. | Pohang University of Science and Technology | Cənubi Koreya | 3017 | 10.0 | 4% | 22 : 78 |
| 5. | Korea Advanced Institute of Science and Technology (KAIST) | Cənubi Koreya | 9327 | 9.5 | 9% | 20 : 80 |
| 6. | Maastricht University | Niderland | 16030 | 18.3 | 47% | 58 : 42 |
| 7. | City University of Hong Kong | Honkonq | 9871 | 11.6 | 30% | 52 : 48 |
| 8. | Ulm University | Almaniya | 10370 | 27.3 | 12% | 47 : 53 |
| =9. | Karlsruhe Institute of Technology | Almaniya | 25948 | 24.5 | 17% | 27 : 73 |
| =9. | Scuola Superiore Sant’Anna | İtaliya | 679 | 13.1 | 13% | 38 : 62 |
| 11. | University of Luxembourg | Lüksemburq | 5219 | 17.2 | 55% | 51 : 49 |
| 12. | Pierre and Marie Curie University | Fransa | 28473 | 8.0 | 17% | 48 : 52 |
| =13. | University of Antwerp | Belçika | 16445 | 35.8 | 15% | 54 : 46 |
| =13. | University of Duisburg-Essen | Almaniya | 41002 | 53.0 | 12% | 49 : 51 |
| 15. | University of Technology Sydney | Avstraliya | 25069 | 44.0 | 35% | 52 : 48 |
| 16. | University of Dundee | Böyük Britaniya | 11266 | 14.8 | 24% | 61 : 39 |
| 17. | Pompeu Fabra University | İspaniya | 10791 | 20.1 | 12% | 59 : 41 |
| 18. | Autonomous University of Barcelona | İspaniya | 31095 | 12.4 | 11% | 59 : 41 |
| 19. | Paris-Sud University | Fransa | 26642 | 14.1 | 17% | 55 : 45 |
| 20. | Hong Kong Polytechnic University | Honkonq | 21907 | 25.6 | 25% | 54 : 46 |
| 21. | University of Texas at Dallas | ABŞ | 26797 | 21.1 | 23% | 45 : 55 |
| 22. | Bielefeld University | Almaniya | 22279 | 69.6 | 8% | 57 : 43 |
| 23. | Aalborg University | Danimarka | 19286 | 17.4 | 15% | 48 : 52 |
| 24. | Queensland University of Technology | Avstraliya | 48837 | 20.5 | 17% | 54 : 46 |
| 25. | King Abdulaziz University | Səudiyyə Ərəbistanı | 37178 | 8.3 | 21% | 55 : 45 |
| 26. | Gwangju Institute of Science and Technology | Cənubi Koreya | 1575 | 10.7 | 7% | 23 : 77 |
| 27. | Aalto University | Finlandiya | 12653 | 20.1 | 20% | 34 : 66 |
| 28. | Paris Descartes University | Fransa | 32978 | 24.4 | 15% | 63 : 37 |
| 29. | University of Bayreuth | Almaniya | 12709 | 37.8 | 8% | 46 : 54 |
| 30. | University of Wollongong | Avstraliya | 16581 | 25.5 | 24% | 50 : 50 |
| 31. | Paris Diderot University – Paris 7 | Fransa | 27836 | 14.8 | 17% | 63 : 37 |
| 32. | University of South Australia | Avstraliya | 19996 | 29.6 | 33% | 57 : 43 |
| 33. | Rush University | ABŞ | 1987 | 2.2 | 4% | 71 : 29 |
| 34. | Charles Darwin University | Avstraliya | 6096 | 21.3 | 25% | 66 : 34 |
| 35. | Griffith University | Avstraliya | 31031 | 22.3 | 20% | 56 : 44 |
| =36. | Koç University | Türkiyə | 4793 | 14.6 | 10% | 52 : 48 |
| =36. | Swedish University of Agricultural Sciences | İsveç | 3838 | əks olunmayıb | əks olunmayıb | 68 : 32 |
| 38. | James Cook University | Avstraliya | 12004 | 22.9 | 13% | 63 : 37 |
| 39. | Central European University | Macarıstan | 1298 | 5.8 | 77% | 51 : 49 |
| 40. | Centrale Supélec | Fransa | 4130 | 11.4 | 32% | 22 : 78 |
| 41. | University of Bremen | Almaniya | 18904 | 34.8 | 11% | 50 : 50 |
| 42. | Free University of Bozen-Bolzano | İtaliya | 2813 | 4.1 | 16% | 67 : 33 |
| 43. | Deakin University | Avstraliya | 34968 | 31.1 | 17% | 59 : 41 |
| 44. | Sabancı University | Türkiyə | 2999 | 17.7 | 8% | 39 : 61 |
| 45. | Technical University of Dortmund | Almaniya | 30998 | 100.3 | 10% | 46 : 54 |
| 46. | University of Stirling | Böyük Britaniya | 8028 | 15.1 | 20% | 61 : 39 |
| =47. | University of Bordeaux | Fransa | 52169 | 19.5 | 12% | 58 : 42 |
| =47. | George Mason University | ABŞ | 27337 | 17.4 | 8% | 54 : 46 |
| 49. | National University of Ireland, Maynooth | İrlandiya | 7850 | 28.8 | 12% | 55 : 45 |
| 50. | Aix-Marseille University | Fransa | 74345 | 19.6 | 13% | 60 : 40 |
| 51. | University of Calabria | İtaliya | 30219 | 36.4 | 3% | 59 : 41 |
| =52. | University of Cyprus | Kipr | 7025 | 22.5 | 8% | 69 : 31 |
| =52. | Grenoble Alpes University | Fransa | əks olunmayıb | əks olunmayıb | əks olunmayıb | əks olunmayıb |
| 54. | University of Eastern Finland | Finlandiya | 11098 | 17.7 | 6% | 63 : 37 |
| 55. | University of Milan-Bicocca | İtaliya | 32892 | 65.8 | 6% | 62 : 38 |
| =56. | La Trobe University | Avstraliya | 22422 | 29.6 | 25% | 63 : 37 |
| =56. | Victoria University | Avstraliya | 15270 | 32.5 | 22% | 55 : 45 |
| 58. | University of Crete | Yunanıstan | 14518 | 26.7 | 5% | 62 : 38 |
| 59. | National Taiwan University of Science and Technology | Tayvan | 8070 | 19.0 | 11% | 31 : 69 |
| 60. | Linköping University | İsveç | 18966 | 8.2 | 11% | 51 : 49 |
| 61. | Swinburne University of Technology | Avstraliya | 13606 | 26.4 | 27% | 39 : 61 |
| 62. | University of Kaiserslautern | Almaniya | 14226 | 53.7 | 15% | 37 : 63 |
| 63. | Montpellier University | Fransa | 39313 | 19.7 | 14% | 54 : 46 |
| 64. | Toyota Technological Institute | Yaponiya | 505 | 11.2 | 3% | 7 : 93 |
| 65. | Plymouth University | Böyük Britaniya | 18508 | 19.5 | 14% | 52 : 48 |
| 66. | Autonomous University of Madrid | İspaniya | 26969 | 12.4 | 16% | 60 : 40 |
| 67. | University of Macau | Makao | 8981 | 14.6 | 33% | 58 : 42 |
| =68. | Murdoch University | Avstraliya | 16391 | 33.2 | 45% | 59 : 41 |
| =68. | University of Siegen | Almaniya | 19139 | 54.4 | 11% | 50 : 50 |
| =68. | University of Texas at San Antonio | ABŞ | 25870 | 21.4 | 7% | 48 : 52 |
| 71. | University of Salerno | İtaliya | 37862 | 56.3 | 1% | 61 : 39 |
| 72. | Federal University of Toulouse Midi-Pyrénées | Fransa | 93250 | 23.3 | 19% | 54 : 46 |
| 73. | Hasselt University | Belçika | 4913 | 16.8 | 10% | 46 : 54 |
| =74. | Dublin City University | İrlandiya | 8856 | 24.9 | 18% | 50 : 50 |
| =74. | Veltech University | Hindistan | əks olunmayıb | əks olunmayıb | əks olunmayıb | əks olunmayıb |
| =76. | Bilkent University | Türkiyə | 9761 | 14.1 | 4% | 46 : 54 |
| =76. | Örebro University | İsveç | 8698 | 15.9 | 2% | 61 : 39 |
| =76. | University of Rovira i Virgili | İspaniya | 12637 | 13.0 | 10% | 60 : 40 |
| =79. | University of Tsukuba | Yaponiya | 16271 | 12.6 | 17% | 38 : 62 |
| =79. | Western Sydney University | Avstraliya | 30734 | 28.6 | 13% | 57 : 43 |
| =81. | University of Aveiro | Portuqaliya | 10641 | 17.7 | 9% | 51 : 49 |
| =81. | University of Rome III | İtaliya | 35290 | 59.0 | 4% | 59 : 41 |
| =81. | Verona University | İtaliya | 24390 | 18.7 | 6% | 64 : 36 |
| 84. | Curtin University | Avstraliya | 31353 | 18.4 | 36% | 53 : 47 |
| 85. | Claude Bernard University Lyon 1 | Fransa | 35944 | 17.2 | 8% | 50 : 50 |
| 86. | UiT The Arctic University of Norway | Norveç | 12180 | 12.0 | 12% | 60 : 40 |
| 87. | RMIT University | Avstraliya | 30795 | 17.3 | 26% | 47 : 53 |
| 88. | Cyprus University of Technology | Kipr | 3012 | 18.9 | 6% | 57 : 43 |
| 89. | Florida International University | ABŞ | 33983 | 25.8 | 7% | 56 : 44 |
| 90. | Central Queensland University | Avstraliya | 12300 | 26.6 | 28% | 57 : 43 |
| 91. | University of Canberra | Avstraliya | 11287 | 31.0 | 28% | 53 : 47 |
| =92. | Paris-Sorbonne University – Paris 4 | Fransa | 21488 | 27.9 | 19% | 70 : 30 |
| =92 | University of Rome II – Tor Vergata | İtaliya | 31393 | 18.4 | 6% | 51 : 49 |
| 94. | University of Bergamo | İtaliya | 15849 | 49.2 | 6% | 63 : 37 |
| 95. | University of Brescia | İtaliya | 14616 | 26.4 | 7% | 46 : 54 |
| 96. | Higher School of Economics | Rusiya Federasiyası | 16170 | 9.1 | 5% | əks olunmayıb |
| 97. | Université du Québec à Montréal | Kanada | 28830 | 26.1 | 19% | 61 : 39 |
| =98. | Atılım University | Türkiyə | 6394 | 27.2 | 8% | əks olunmayıb |
| =98. | University of Portsmouth | Böyük Britaniya | 18949 | 16.5 | 25% | 45 : 55 |
| 100. | Tokyo Metropolitan University | Yaponiya | 9294 | 9.6 | 4% | 35 : 65 |


*Lozanna Federal Politexnik Məktəbi*


*Honkonq Elm və Texnologiya Universiteti*


*Nanyanq Texnologiya Universiteti*


*Pohang Elm və Texnologiyalar Universiteti*


*Koreya Qabaqcıl Elmlər və Texnologiyalar İnstitutu*

# Hüquqi dövlət quruculuğu və təhsil islahatları

## İnkişafın tarixi xronologiyası



**İntiqam CƏBRAYILOV,**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsil nəzəriyyəsi şöbəsinin müdiri, pedaqogika üzrə elmlər doktoru, professor*

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası öz dövlət müstəqilliyini elan etdi. Beləliklə, ölkəmiz imperiya buxovlarından xilas olaraq müstəqil inkişaf yoluna qədəm qoydu. Lakin ölkəmizin müstəqilliyinin dayanıqlı hala gətirilməsi, müstəqilliyə qarşı çevrilmiş qüvvələrin zərərsizləşdirilməsi, yaranmış kəskin ziddiyyətlərin aradan qaldırılması heç də asan olmadı. Müstəqilliyimizin ilk illərində ermənilərin Azərbaycan torpaqlarına hücumları nəticəsində ölkə ərazisinin müəyyən hissəsi (20 faiz) işğala məruz qaldı. Soydaşlarımız doğma yurdlarından didərgin düşdülər. Respublikamızın daxilində yaranmış gərginlik ölkənin müstəqilliyi üçün böyük təhlükə törədirdi. Belə bir vaxtda xalqımız ulu öndər Heydər Əliyevə müraciət edərək onu respublika rəhbərliyinə dəvət etdi. Xalq ümummilli liderini ölkə Prezidenti seçdi və haqlı olaraq xilas yolunu onun ideyalarında gördü.

1993-cü ilin oktyabrında Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, ölkə rəhbəri kimi fəaliyyətə başlayanda respublikanın ictimai-siyasi həyatı olduqca ağır vəziyyətdə idi. Ulu öndərin rəhbərliyi altında qısa müddət ərzində ölkə həyatında irəliləyişə doğru ciddi dönüş yarandı. Daxili parçalanmalara, pərakəndəliyə son qoyuldu.

Ulu öndər Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra cəmiyyət həyatının bütün sahələrində köklü dəyişikliklər baş verdi.

Ermənistan-Azərbaycan cəbhəsində uğurlu hərbi əməliyyatlar həyata keçirildi. Füzuli, Ağdam bölgələrinin xeyli hissəsi erməni silahlı birləşmələrinin tapdağından azad olundu. 1994-cü il mayın 12-də cəbhədə atəşkəs elan edildi. Bu, Azərbaycanın hərbi, siyasi, iqtidsadi gücünü artırmaq üçün əlverişli imkanlar yaratdı.

Bu dövrdə Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu sahəsində böyük işlər görülməyə başlandı. İqtisadi, siyasi, sosial, mədəni sahələrdə köklü islahatların həyata keçirilməsi Azərbaycanın müstəqil dövlət kimi təməllərini xeyli möhkəmləndirdi. Azərbaycan bazar iqtisadiyyatının dövlət tənzimlənməsi yolu ilə irəliləyərək bu istiqamətdə stabil inkişafı təmin edə bildi. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması xarici şirkətlərə Azərbaycan iqtisadiyyatına sərmayə qoymaq üçün geniş imkanlar açdı.

1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi (referendum) yolu ilə Azərbaycan Respublikasının Konstitusiyası qəbul olundu. Tarixdən məlumdur ki, hələ 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cumhuriyyəti 23 aylıq fəaliyyəti dövründə dövlətin əsas Qanununu qəbul edə bilməmişdir. Azərbaycanın ilk Konstutusiyası 1921-ci il mayın 19-da Umumazərbaycan Sovetlər Qurultayında qəbul olunmuşdur. Bu dövrdə Azərbaycanda Sovet hakimiyyəti mövcud idi. Azərbaycan SSR Konstitusiyasının (1921-ci il) SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası isə, 1925-ci il martın 14-də IV Ümumazərbaycan Sovetlər Qurultayında qəbul olunmuşdur. 1927-ci ildə martın 26-da V Ümumazərbaycan Sovetlər Qurultayı yeni-ikinci Azərbaycan Konstitusiyasını qəbul etmişdir. 1937-ci ildə üçüncü, 1978-ci ildə dördüncü Azərbaycan Konstitusiyası qəbul olunmuşdur.

1995-ci il Konstitusiyası isə müstəqil Azərbaycanın ilk Konstitusiyasıdır. 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 26 sentyabr 2016-cı ildə keçirilmiş ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Konstitusiyasına bir sıra dəyişikliklər edilmişdir.

Ölkə Konstitusiyasında respublikamızın hüquqi, demokratik dövlət olduğu əsaslandırılmışdır. Konstitusiyanın preambulasında deyilir ki, Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsilin qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək çox mühüm vəzifələr, ülvi niyyətlər qarşısına qoymuşdur. Bu ülvi niyyətlər aşağıdakı müddəalarla ifadə olunur:

* Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;
* Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;
* vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;
* xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;
* ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək;
* ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Hüquqi dövlətin əsas şərtlərindən biri dövlət hakimiyyətinin demokratik prinsiplərlə bölüşdürülməsi məsələsidir. Bu məsələ də Konstitusiyada əksini tapmışdır. Azərbaycan Respublikasında dövlət hakimiyyətinin bölgüsü aşağıdakı kimidir:

* Qanunvericilik hakimiyyətini Milli Məclis həyata keçirir (maddə 81).
* İcra hakimiyyəti dövlət başçısına-ölkə Prezidentinə mənsubdur (maddə 99).
* Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir (maddə125).

### Təhsilin inkişafı üçün əlverişli hüquqi imkanlar

Respublikamızda hüquqi dövlət quruculuğu prosesi həm də məqsədyönlü aparılan təhsil islahatları ilə bilavasitə bağlıdır.

Konstitusiyanın 42-ci maddəsi "Təhsil hüququ" adlanır. Bu maddənin hər bir bəndi ölkəmizdə təhsilin inkişafı üçün əlverişli hüquqi imkanlar açır. Belə ki, bu maddədə hər bir vətəndaşın təhsil almaq hüququ (I bənd), dövlətin pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin etməsi (II bənd), təhsil sisteminə dövlət tərəfindən nəzarət edilməsi (III bənd), maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsilini davam etdirməsinə dövlətin zəmanət verməsi (IV bənd) və dövlətin minimum təhsil standartlarını müəyyən etməsi (V bənd) əsaslandırılmışdır.

### Struktur və məzmunda dəyişikliklər

1990-cı illərdə təhsilin struktur və məzmununda, əməyin ödənilməsi sistemində həyata keçirilən dəyişikliklər cəmiyyətin yeni tarixi kimi dəyərləndirilə bilər. Proqram və dərsliklərin tamamilə yenilənməsi, ali məktəblərə tələbə qəbulu sisteminin getdikcə təkmilləşdirilməsi, dövlət təhsil müəssisələrinə dövlət qayğısının gücləndirilməsi və digər tədbirlər ölkəmizdə ulu öndər Heydər Əliyevin rəhbərliyilə hüquqi dövlət quruculuğu yolunda mühüm addımlar kimi qiymətləndirilir.

### Dünya təcrübəsinin öyrənilməsi

Qeyd etmək lazımdır ki, respublikamızda hüquqi dövlət quruculuğu prosesində milli-mənəvi dəyərlərə, tarixən toplanmış zəngin təcrübəyə istinad etməklə bərabər dünya təcrübəsinin öyrənilməsi və ümumi prinsiplərin təhsil sisteminə tətbiq olunması ideyasının irəli sürülməsi təqdirəlayiq hesab olunmalıdır. Ulu öndər Heydər Əliyev təhsil sistemini inkişaf etdirmək üçün belə bir ideyanı rəhbər tutmağı haqlı olaraq doğru hesab edirdi. "Dünya təcrübəsindən Azərbaycanın milli xüsusiyyətlərinə uyğun olan prinsiplər, qaydalar təhsil sisteminə tətbiq edilməlidir. Biz dünyanın bütün ölkələrində - Qərbdə də, Şərqdə də əldə olunmuş nailiyyətləri dərindən öyrənməli və onlardan Azərbaycan üçün müsbət xarakter daşıyan cəhətləri ölkəmizin təhsil sistemində tətbiq etməliyik".

### Yeni dərsliklərin yaradılması

Tədqiqatlar göstərir ki, müstəqillik dövründə Azərbaycan təhsilinin uğurları sırasında yeni dərsliklərin yaradılması ilə bağlı görülən işlər xüsusi qeyd olunmalıdır. Məlumdur ki, sovet dövründə proqram və dərsliklər Moskvada hazırlanır və respublikamızda onların tərcümə variantlarından istifadə olunurdu. Yalnız Azərbaycandilli, ədəbiyyat dərslikləri Azərbaycan mütəxəssisləri tərəfindən hazırlanır və bu, ciddi nəzarət altında tərtib olunurdu.

Azərbaycan tarixi və Azərbaycan coğrafiyası (ümumtəhsil məktəblərində) SSRİ tarixi və SSRİ coğrafiyasının tərkibində qısa kurs kimi nəzərdə tutulur, buna ayrılan saatlardan da əsasən məqsədəuyğun istifadə olunurdu.

Müstəqil dövlət quruculuğunda təhsil siyasətinin mühüm istiqamətlərindən biri də dərslik probleminin həlli idi. Buna görə də ilk növbədə təhsil proqramlarının, standartların, fənn proqramlarının hazırlanması tələb olunurdu.

Dərsliklərin məzmunu təlim materiallarının daha çox yüklənməsi ilə diqqət cəlb edirdi. Bundan başqa, ayrı-ayrı mətnlərdə bəzən məntiqi ardıcıllıq gözlənilmir, eyni məsələ ilə bağlı ziddiyyətli faktlar nəzərə çarpırdı. Bütün bunlara baxmayaraq müstəqil Azərbaycan Respublikasında dərsliklərin yaradılması sahəsində çox iş görülmüş və əldə olunan nəticələr böyük uğur kimi dəyərləndirilə bilər.

Qeyd etməliyik ki, bu gün dərslik siyasətində yeni uğurların qazanılması üçün məzmun məsələlərinə xüsusi diqqət yetirilir. Dərsliklər çap olunmazdan əvvəl xalqın, geniş ictimaiyyətin müzakirəsinə verilir, rəylər alınır. Bu məqsədlə Təhsil Nazirliyinin saytında dərsliklərin qiymətləndirilməsi üçün xüsusi yer ayrılması təqdirəlayiqdir.

### Ali təhsil sistemində əsaslı dəyişikliklər

Müstəqillik dövründə Azərbaycan təhsili bütün pillə və səviyyələr üzrə, o cümlədən ali təhsil pilləsi üzrə böyük inkişaf yolu keçmişdir. 1993-cü ildən ali təhsil sistemində əsaslı dəyişikliklərə başlanmışdır. Belə ki, ali təhsildə bakalavr və magistr proqramları üzrə kadr hazırlığına başlanmış, struktur, məzmun, idarəetmə sahəsində yeni qaydalar tətbiq olunmuşdur. 1997-ci ildə bakalavriat səviyyəsi üzrə ilk buraxılış olmuş, eyni zamanda 26 ali məktəbdə ilk dəfə magistraturaya qəbul keçirilmişdir. Bu dövrdən başlayaraq ali təhsil müəssisələri şəbəkəsinin optimallaşdırılması, bir sıra yeni ixtisaslar üzrə kadr hazırlığının həyata keçirilməsi, təhsil müəssisələrinin səlahiyyətlərinin tədricən genişləndirilməsi, bəzi ali məktəblərə özünüidarəetmə hüququnun verilməsi ali təhsil sahəsində uğurların göstəricilərindən biri kimi qeyd oluna bilər. Bunlarla yanaşı, əldə olunan uğurlar sırasında bu da göstərilə bilər ki, müstəqil dövlət quruculuğu prosesində ali təhsil sahəsində islahatlar milli zəminə əsaslanmaqla Avropaya inteqrasiya kontekstində həyata keçirilmişdir.

Azərbaycan Respublikasının müstəqil dövlətə çevrilməsi ölkədə qeyri-dövlət ali məktəblərinin yaranması üçün əlverişli imkanlar açdı. Dünya təcrübəsi də göstərir ki, hər bir ölkədə özəl və dövlət ali məktəblərinin inkişafı üçün bərabər imkanlar yaradılır, onlar arasında rəqabət mühitinin formalaşdırılması dövlət müəssisələrinin inhisarçılığının aradan qaldırılmasına müsbət təsir göstərir. Bu baxımdan Azərbaycanda özəl ali məktəblərin yaradılması təqdirəlayiq addım kimi dəyərləndirilməlidir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda fasiləsiz təhsil sisteminin inkişafı ilə bağlı 20-dən artıq dövlət proqramı qəbul edilmiş və həyata keçirilmişdir. Bu proqramlar 1999-cu ildə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsil sahəsində islahat proqramı"ndan, 2009-cu ildə qəbul edilmiş "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn vəzifələrin həyata keçirilməsinin təmin edilməsini nəzərdə tuturdu.

### Yeni Təhsil Qanunu

Ölkəmizdə yeni Təhsil Qanununun hazırlanıb qəbul edilməsi ideyasını da ulu öndər Heydər Əliyev irəli sürmüşdür. Ulu öndər təhsilin cəmiyyətdə oynadığı mühüm rolu diqqətə çatdıraraq məruzə və çıxışlarında bu məsələlərə xüsusi əhəmiyyət verilməsinin vacibliyini qeyd edir, ölkəmizi sürətli inkişaf etdirmək üçün təhsil islahatı proqramının hazırlanmasını və onun məqsədəuyğun şəkildə həyata keçirilməsini başlıca vəzifələrdən hesab edirdi. Beləliklə, ulu öndərin ideyaları və fikirləri üzərində İslahat Proqramı yarandı və təhsil islahatları həyata keçirilməyə başlandı. Bir neçə ildən sonra isə Heydər Əliyevin təhsil fəlsəfəsi və ölkə Prezidenti İlham Əliyevin konseptual baxışları əsasında Azərbaycanda yeni Təhsil Qanunu hazırlandı və qəbul edildi. Təhsil Qanunu mövcud dünya təcrübəsini, milli və bəşəri pedaqoji ənənələri özündə əks etdirdi. İnkişafyönümlü ideyaların bu qanunda əksini tapması Azərbaycan təhsil sisteminin və nəticə etibarilə hər bir təhsilalanın, təhsilverənin inkişafına, cəmiyyətin inkişaf mexanizminin daha çevik fəaliyyətinə əlverişli imkanlar yaradır.

Bu qanunda "Təhsil hüququna dövlət təminatı", "Təhsilin keyfiyyət səviyyəsi", "Təhsilin məzmununa və təşkilinə verilən tələblər", "Təhsil formaları", "Təhsil fəaliyyətinin lisenziyalaşdırılması və akkreditasiyası", "Əlavə təhsil müəssisəsinin sahibkarlıq fəaliyyəti" maddələri yeni olmaqla bərabər, dünya təcrübəsini əks etdirir və konseptuallıq baxımından mühüm əhəmiyyət kəsb edirdi.

"Təhsil hüququna dövlət təminatı" maddəsində bir sıra məsələlərlə bərabər, mülkiyyət formasından asılı olmayaraq, bütün təhsil müəssisələrinə qəbulda, vəzifələrə təyin olunmada, əməyin stimullaşdırılmasında, təhsilin davam etdirilməsində və digər bu kimi məsələlərdə kişilər və qadınlar üçün bərabər imkanlar yaradılması, milli təhsil ənənələrinin qorunması və inkişafı, innovasiyaların tətbiqinə təminat verilməsi, xaricdə yaşayan azərbaycanlıların təhsili ilə bağlı xüsusi layihə və proqramların həyata keçirilməsi kimi məsələlər hərtərəfli təsbit olunmuşdur. Qanunda təhsil sahəsində dövlət standartlarının anlayışı da mahiyyətcə konkret ifadəsini tapmışdır.

Qanunda göstərilir ki, təhsil sahəsində dövlət standartları fərdin, cəmiyyətin, dövlətin tələbatına uyğun olaraq, elmi-pedaqoji prinsiplər əsasında hazırlanan və müəyyən dövr (5 ildən az olmayaraq) üçün vahid dövlət tələblərini əks etdirən ümumi normalar məcmusudur (maddə 6.1).

Qanuna əsasən, dövlət təhsil standartları hazırlanarkən təhsil sahəsində sınanmış mütərəqqi beynəlxalq meyarlar, milli və ümumbəşəri dəyərlər, bununla yanaşı təhsilin məzmunu, idarəolunması, maddi-texniki tədris bazası, infrastrukturu, təhsilverənlərin keyfiyyət göstəriciləri, hər bir təhsil pilləsində təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini məhz dövlət təhsil standartları müəyyənləşdirir.

### İslahatlar uğurla davam edir

Bu gün Azərbaycanda təhsil islahatları uğurla davam etdirilir. Bu baxımdan ölkə Prezidentinin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" konseptual sənədlərinin həm də böyük elmi əhəmiyyəti vardır.

Təhsilin bütün pillə və səviyyələrini əhatə edən islahatlar milli zəminə, bəşəri dəyərlərə əsaslanmaqla ölkəmizdə yeni cəmiyyət quruculuğunda, hüquqi dövlətin möhkəmləndirilməsində fəal iştirak edən, vətəndaş-şəxsiyyətin formalaşdırılmasında mühüm rol oynayır.

## SDU-nun tələbələri sertifikata layiq görülüblər

Sumqayıt Dövlət Universitetinin Mətbuat xidmətindən bildirilir ki, aprelin 2-dən 9-dək TEC-in elmi rəhbəri, dosent İslam Paşayevin rəhbərliyi ilə üç tələbə Rusiyaya səfər edərək Pskov Dövlət Universitetində keçirilən beynəlxalq gənclər elmi-praktiki konfransda iştirak edib. Konfransda filologiya fakültəsinin II kurs tələbəsi Nailə Zeynalova "Məktəbəqədər uşaqların ingilis dilini öyrənməsində nağılların rolu", fizika və elektroenergetika fakültəsinin III kurs tələbəsi Tofiq Adıgözəlov "Silisium əsaslı Şotki diodlarının tədqiqi", kimya və biologiya fakültəsinin II kurs tələbəsi Saleh Fərəcov "Propantriol əsaslı aminospirtlərin sintezi və xassələri" mövzularında məruzə ediblər. Nəticədə bölmə iclaslarında dinlənilən məruzələr yüksək qiymətləndirilərək xüsusi mükafata və sertifikata layiq görülüb.

**Şakir CƏFƏROV**

## Yeni layihənin icrasına start verilib

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Gənclərin Elmi Araşdırmalar Mərkəzi" İctimai Birliyi "Məktəblilərin ictimai fəallığının artırılması və ekoloji aksiyaların təşkili" adlı layihənin icrasına start verib.

Layihənin əsas məqsədi yeniyetmə və gənclər arasında ekoloji mühitin formalaşdırılması, onlar arasında sağlam həyat tərzini təbliği üçün ekoloji aksiyaların təşkil edilməsindən ibarətdir.

Birlik sözügedən layihə çərçivəsində Bakı şəhərində 3 ay müddətində mövzu ilə bağlı yeniyetmə və gənclərin iştirakı ilə ekoloji seminarlar və imecilik aksiyası keçirəcək. Tədbirlərə cəlb olunan yeniyetmə və gənclər maarifləndiriləcək və imecilik aksiyalarında iştirak edəcəklər.

Həyata keçirilən layihədən ümumilikdə 200-dən artıq yeniyetmə və gənc faydalanacaq.

## "XXI əsrdə tədris: İnteqrasiya, innovasiya, motivasiya"

"XXI ƏSR" Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzində "XXI əsrdə tədris: inteqrasiya, innovasiya və motivasiya" adlı konfrans keçirilib. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin təsviri sənət tarixi və nəzəriyyəsi kafedrasının müəllimi Fəxri Məmmədli konfransda "Sinfin idarə olunması" mövzusu ilə təlimçi qismində iştirak edib. Təlimdə sinfin effektiv idarə edilməsi, xarici ölkələrin təcrübəsi, modern təhsildə şagird müstəvisində qurulan məsələlər və yeni yanaşmalar öz əksini tapıb.

Konfransın məqsədi ölkəmizdə və onun hüdudlarından kənarda olan təhsil müəssisələri arasında körpülər qurmağa, bilik və təcrübələri bölüşməyə, tədris üsullarının inkişafına və gücləndirilməsinə yönəlib.

Azərbaycan, rus və ingilis dillərində aparılan konfransa ümumilikdə 600 nəfərdən artıq təhsil işçisi qatılıb. Sonda iştirakçılara sertifikat verilib.

# BŞTİ-də hesabat-seçki yığıncağı



Bakı Şəhəri üzrə Təhsil İdarəsi Həmkarlar İttifaqı Komitəsinin hesabat-seçki yığıncağı keçirilib.

Hesabat-seçki yığıncağında Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Məhəbbət Vəliyeva, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə, BŞTİ-nin struktur bölmə rəhbərləri və əməkdaşları iştirak ediblər.

Yığıncaqda Bakı Şəhəri üzrə Təhsil İdarəsi Həmkarlar İttifaqı Komitəsinin 2012-ci ilin aprel ayından 2017-ci ilin aprel ayınadək olan dövr ərzindəki fəaliyyəti haqqında hesabat məruzəsi və Təftiş Komissiyasının hesabatı dinlənilib. Daha sonra təşkilati məsələlər müzakirə olunub.

Hesabat məruzələrindən sonra çıxış edənlər ölkəmizdə ən böyük ictimai təşkilatlardan biri olan ATİAHİ Respublika Komitəsinin BŞTİ-də çalışanların sosial rifahının yaxşılaşdırılması, əmək hüquqlarının müdafiəsi və asudə vaxtlarının səmərəli təşkili baxımından üzərinə düşən vəzifələri nəzərə çatdırıb, bu istiqamətdə qarşıda duran digər məsələlərdən söhbət açıblar. Yığıncaq iştirakçıları Bakı Şəhəri üzrə Təhsil İdarəsi Həmkarlar İttifaqı Komitəsinin hesabat dövründəki fəaliyyətini qənaətbəxş qiymətləndiriblər.

Sonda təşkilati məsələlərə baxılıb. Həmkarlar İttifaqı Komitəsinin yeni üzvləri və sədri, eləcə də Təftiş Komissiyasının yeni heyəti seçilib.

# "Səfir saatı" klubunun ilk qonağı



Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun "Səfir saatı" klubunda Misir Ərəb Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım Suzan Cəmil ilə görüş keçirilib. Görüşdə Bakı Dövlət, Azərbaycan Dillər, Azərbaycan Dövlət İqtisadiyyat, Bakı Slavyan, Azərbaycan Turizm və Menecment universitetlərinin beynəlxalq münasibətlər və diplomatiya ixtisası üzrə təhsil alan tələbələri və Bilik Fondunun əməkdaşları iştirak ediblər.

Fondun icraçı direktoru Oktay Səmədov gərgin iş qrafikinə baxmayaraq, gənclərlə görüşə gəldiyinə görə qonağa təşəkkürünü bildirib. Misirdə baş vermiş terror aktından təəssüfləndiyini deyən icraçı direktor səfirə başsağlığı verib.

2017-ci ilin ölkədə "İslam Həmrəyliyi İli" elan olunmasının dinlərarası, mədəniyyətlərarası dialoqun inkişafına böyük təkan verəcəyini vurğulayan Oktay Səmədov "Səfir saatı" klubunun ilk qonağının məhz Misirin Azərbaycandakı səfiri olmasının təsadüfi xarakter daşımadığını da bildirib.

Xanım səfir Suzan Cəmil səmimi qarşılanmaya və diqqətə görə təşəkkürünü bildirib, xalqlarımız arasında qarşılıqlı hörmət və ehtiramın olmasını dilə gətirərək Bilik Fondunun "Səfir saatı" klubunun ilk qonağı kimi gənclərlə görüşdən məmnunluğunu ifadə edib. Misirin qədim tarixi və coğrafiyası haqqında klub üzvlərinə ətraflı məlumat verən səfir burada xristianlarla müsəlmanların yanaşı yaşamasını tolerantlığın göstəricisi kimi dəyərləndirib, təmsil etdiyi ölkənin xarici əlaqələrinin istiqamətləri barədə danışıb.

Xanım Suzan Cəmil diplomat fəaliyyəti, Misirin siyasi-iqtisadi əlaqələri, elmi və mədəni həyatı, Misir-Azərbaycan münasibətləri ilə bağlı gənclərin çoxsaylı suallarını cavablandırıb.

Bilik Fondunun gənc könüllüsü olan Sumqayıt məktəblisi Fidan Səfərova Misir motivləri əsasında kətan üzərində çəkdiyi rəsmi səfir Suzan Cəmilə hədiyyə edib.

Bilik Fondunun "Səfir saatı" klubunun əsas məqsədi Bakıdakı diplomatik nümayəndələrin vasitəçiliyi ilə Azərbaycan və xarici ölkələrin müvafiq qurumları arasında elm, təhsil və mədəniyyət sahələrində qarşılıqlı əməkdaşlığın qurulmasıdır.

# "Məktəblinin dostu" qalibləri mükafatlandırdı



"Məktəblinin dostu" layihəsi çərçivəsində məktəblər arasında keçirilən "Mənim sevimli müəllimim" şeir müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Bakı şəhəri üzrə 53 nömrəli tam orta məktəbdə keçirilən mükafatlandırılma mərasimində layihə rəhbəri Rüstəm Ağayev bildirib ki, şeir müsabiqəsində məqsəd məktəblərdəki istedadlı şagirdləri üzə çıxarmaq, müəllim peşəsinin dəyərini şagirdlərin dilindən ifadə olunmasını təcəssüm etdirmək və məktəblilərin asudə vaxtlarının səmərəli keçirilməsinə şərait yaratmaqdan ibarətdir.

Qeyd edək ki, layihəyə daxil olan 30 ümumi təhsil məktəbinin şagirdləri qeyd olunan mövzuda öz şeirlərini videoçarx şəklində təqdim ediblər. Hər məktəb üzrə seçilən bir videoçarx məktəb adından müsabiqəyə təqdim olunub və "Məktəblinin dostu"nun rəsmi "Facebook" səhifəsində yerləşdirilib.

İlk mərhələdə ən çox baxılan (baxış sayları bərabər olduğu təqdirdə "like"-lərin sayı nəzərə alınıb) 11 videoçarx münsiflər heyəti tərəfindən qiymətləndirilib.

İkinci mərhələdə münsiflər heyəti tərəfindən dəyərləndirmə əsasında qalib məktəblər seçilib. Qaliblər şeirin bədii gözəlliyinə, səsləndirməyə, videoçarxın keyfiyyətinə və çəkiliş üslubuna görə müəyyənləşdirilib.

Yekun nəticələrə əsasən, "Mənim sevimli müəllimim" şeir müsabiqəsinin qalibləri 5, 57 və 117 nömrəli tam orta məktəblər olub.

# Azərbaycan Dövlət Pedaqoji Kollecində "Dolu" filminə baxış keçirilib



ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində müəllim və tələbə kollektivinin "Azərbaycanfilm" studiyası tərəfindən yazıçı Aqil Abbasın eyniadlı romanı əsasında çəkilmiş "Dolu" filminə baxış və yaradıcı heyət ilə görüş keçirildi.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədov, Milli Məclisin deputatı, əməkdar jurnalist Aqil Abbas, xalq artisti Şamil Süleymanov, teatr və kino aktyoru, əməkdar artist Məmməd Səfa, Bilik Fondunun məsləhətçisi, jurnalist-publisist Ramilə Qurbanlı, aktyorlardan Rza Rzayev, Cavanşir Hadıyev, Elvin Əhmədov iştirak edirdilər.

Görüşü giriş sözü ilə kollecin direktoru, hüquq üzrə fəlsəfə doktoru Qulu Novruzov açaraq ADPK ilə Bilik Fondu arasında 25 yanvar 2017-ci il tarixində imzalanmış "Əməkdaşlıq haqqında" sazişi əsasında təşkil olunmuş bu tədbir barədə danışdı. Belə tədbirlərin tələbələrin vətənpərvərlik ruhunda tərbiyə olunmasında, şəxsiyyət kimi formalaşmasında, Vətəninə, ailəsinə layiqli övlad kimi böyüməsində və dövlətçiliyə sadiq vətəndaş kimi yetişməsində mühüm rol oynadığını qeyd etdi. Eləcə də direktor bu görüşün aprel döyüşlərinin ildönümünə həsr olunduğunu vurğuladı.

Sonra film nümayiş etdirildi.

Daha sonra Bilik Fondunun icraçı direktoru Oktay Səmədov ötən il aprel ayında baş vermiş hadisələri yaxın tariximizin şərəfli səhifəsi kimi dəyərləndirdi. O bildirdi ki, aprel döyüşləri Azərbaycan Ordusunun qüdrətini və əzmini göstərməklə işğal altında olan torpaqlarımızı qısa zaman ərzində azad etmək iqtidarında olduğumuzu bir daha təsdiqlədi. Şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edildi.

O.Səmədov tələbələrə fondun təşkilatçılığı ilə Pedaqoji Kollecdə yaradılmış Tələbə Dram Dərnəyi haqqında məlumat verdi. İcraçı direktor bildirdi ki, dərnək üzvlərinin əməkdar artist Məmməd Səfanın rəhbərliyi ilə səhnələşdirəcəkləri tamaşalar ali təhsil müəssisələrində, eləcə də regionlarda fəaliyyət göstərən Bilik evlərində nümayiş olunacaq.

Sonra yaradıcı heyət ilə müzakirələr keçirildi. Ssenari müəllifi Aqil Abbas çıxış edərək bildirdi ki, 2012-ci ildə rejissor Elxan Cəfərov tərəfindən Qarabağ müharibəsi mövzusuna həsr olunmuş filmdə erməni qəsbkarlarına qarşı son damla qanına qədər döyüşən Azərbaycan oğullarının Vətən uğrunda qəhrəmanlığı və mübarizəsi əks olunur.

Sonda yazıçı qeyd etdi ki, mübahisə edə biləcəyiniz məqamlar ola da bilər, əsas odur ki, Qarabağın taleyini əks etdirən daha bir uğurlu iş tamaşaçıya təqdim olundu.

Sonra Aqil Abbasın kitabları tələbələrə paylanıldı.

# Məktəblilər maarifləndirilir



Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil məktəblərində "Ekoloji aylıqlar" layihəsi çərçivəsində aprel ayı "Azərbaycanın təbii sərvətləri və biomüxtəlifliyi" mövzusuna həsr olunub. Verilmiş mövzunun reallaşdırılması baxımından təhsil müəssisələrinə sərbəstlik verilib.

İdarənin ictimaiyyətlə əlaqələr sektorundan verilən məlumata görə mövzunun seçilməsində əsas məqsəd şagirdlərin diqqətini Azərbaycanın təbii sərvətlərinə və biomüxtəlifliyinə yönəltmək, onları bu barədə daha geniş maarifləndirməkdir.

Bakı şəhərinin 12 inzibati rayonunun hər birində pedaqoji kollektiv və məktəblilər tərəfindən "Azərbaycanın təbii sərvətləri və biomüxtəlifliyi" mövzusu üzrə elmi konfrans, müsabiqə, yarış, "açıq dərs", sərgi və ekskursiyaların keçirilməsi, müxtəlif araşdırmaların aparılması nəzərdə tutulub.

Qeyd edək ki, aprelin sonunda mövzuya uyğun olaraq "Ayın tədqiqatçı bioloqlar məktəbi" nominasiyası üzrə qalib məktəb seçiləcək.

Qalib məktəb orijinallıq, mövzunun əhatəliliyi, fəaliyyətin müxtəlifliyi, şagirdlərin bacarıqlarının formalaşdırılmasına xidmət edən fəaliyyətlərin yer alması, layihədə müxtəlif yaş qrupunu təmsil edən şagirdlərin iştirakı, mövzunun ekoloji problemləri əhatə etməsi, hesabatların təqdim edilməsində təsdiqləyici materialların mövcudluğu (foto və s.) kimi meyarlara əsasən müəyyən olunacaq.

# "Qələbə bizimlədir"

**Rəşad ZİYADOV**



Xırdalan şəhər 2 nömrəli tam orta məktəbdə "Qələbə bizimlədir" adlı tədbir keçirilib. Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümünə həsr olunmuş toplantı torpaqlarımızın azadlığı və bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməklə başlayıb.

Əvvəlcə şagirdlərə 1-4 aprel 2016-cı ildə Milli Ordumuzun əkshücumu zamanı əsgərlərimizin göstərdikləri şücaətdən bəhs olunan videoçarx nümayiş etdirilib.

Məktəbin direktoru Ədalət Camalova çıxış edərək bildirib ki, 2016-cı ilin aprel döyüşlərinin baş verdiyi hər gün hamımız üçün böyük bir sınaq günləri oldu. Həmin günlər Milli Ordumuzun əsgərləri öz canlarını və qanları hesabına doğma Vətən torpaqlarının hər bir qarışının bizlər üçün nə qədər əziz olduğunu bir daha sübut etdilər. Ə.Camalova qeyd edib ki, aprel döyüşlərində əldə etdiyimiz qələbədə vətənpərvərlik tərbiyəsinin əvəzsiz rolu danılmazdır. Bu döyüşlərdə qazanılmış qələbədə gənclərin yüksək vətənpərvərlik nümayiş etdirməsi, nikbin əhvali-ruhiyyə sərgiləməsi Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu gənclər siyasətinin nəticəsidir. Həmin döyüşlərdə Milli Ordumuzun hərbiçiləri şəhidlik zirvəsinə yüksələrək öz canları və qanları hesabına hər birimizə çoxdan gözlədiyimiz qələbənin yollarını göstərdilər. 2016-cı il aprel ayının 1-dən 2-nə keçən gecədən başlayaraq cəbhə bölgəsində Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında baş vermiş dördgünlük müharibə zamanı Milli Ordumuz strateji əhəmiyyətə malik bir neçə yüksəklik və yaşayış məntəqəsini işğaldan tam azad etdi. Sonda tezliklə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında üçrəngli bayrağımızın Qarabağın hər bir guşəsində dalğalanacağına inam ifadə olunub.

# "Alternativ enerji" aylığı başa çatıb



Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil məktəblərində "Ekoloji aylıqlar" layihəsi çərçivəsində keçirilən "Alternativ enerji" aylığının qalibləri məlum olub.

Martın sonunda Bakı şəhərindəki ümumi təhsil məktəblərinin "Alternativ enerji" mövzusu üzrə fəaliyyəti təhlil edilib və müvafiq meyarlar üzrə "Alternativ enerji sahəsində ayın ən maraqlı ideyası" nominasiyasında 5, 156, 191 və 203 nömrəli məktəblər qalib adına layiq görülüb.

Daha 11 məktəb (36, 46, 53, 121, 126, 149, 220, 232, 247, 258, 278) fəallıqları ilə seçilib. Layihə üzrə müəyyənləşdirilmiş mövzuların reallaşdırılması baxımından təhsil müəssisələrinə sərbəstlik verilib.

Bakı şəhərinin 12 inzibati rayonunun hər birində pedaqoji kollektiv və məktəblilər tərəfindən "Alternativ enerji" mövzusu üzrə elmi konfrans, müsabiqə, yarış, "açıq dərs" və sərgilər keçirilib, araşdırmalar aparılıb. Bundan başqa, məktəblilərin Qobustan Eksperimental Poliqonu və Tədris Mərkəzi, Pirallahı Günəş Enerjisi Stansiyası, Qobustandakı dünyada ilk Günəş, Külək, Bioqaz, Hibrid elektrik stansiyasına, AMEA Fizika İnstitutuna ekskursiyaları təşkil edilib.

REGİONLAR

## ATU-nun əməkdaşları şagirdlərlə görüşüb

Azərbaycan Texnologiya Universitetinin nümayəndələri Samux şəhər 1 nömrəli məktəb-lisey və 2 nömrəli tam orta məktəbdə olublar. Görüşdə ATU-nun qida məhsulları və istehlak mallarının texnologiyası fakültəsinin professor və müəllim heyəti, məktəbin müəllim kollektivi və XI sinif şagirdləri iştirak ediblər.

Tədbirdə məktəb direktorları şagirdlərin son illərdə ali məktəbə qəbul zamanı qazandıqları uğurları qeyd ediblər. Sonra qida məhsulları və istehlak mallarının texnologiyası fakültəsinin professoru Əhəd Nəbiyev və digər əməkdaşlar ATU-nun fəaliyyət istiqamətləri və perspektivlərindən söz açıblar.

Sonda müəllim və şagirdlərin sualları ATU-nun əməkdaşları tərəfindən ətraflı cavablandırılıb.

Görüş diskussiya şəklində başa çatıb.

**Nurəddin BABAYEV,**
*Samux Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## Ağsuda şəhidin xatirəsi anılıb

Ağsu rayonunun Bico kəndində ötən ilin aprel döyüşləri zamanı şəhid olmuş Toğrul Fərəczadənin anım günü qeyd olunub. Ağsu Rayon Təhsil Şöbəsinin müdiri Tahir Xasi bildirib ki, mərasimdə rayonun idarə, müəssisə və təşkilat rəhbərləri və digər qonaqlar iştirak ediblər.

Tədbirdə aprel döyüşlərində canlarını qurban vermiş şəhidlərimizin qəhrəmanlıqlarından danışılıb.

Bico kənd məktəbinin direktoru Yaşar Qarayev Toğrulun məktəb illərində nümunəvi şagird olduğunu bildirib və onun keçdiyi qəhrəmanlıq yolundan söz açıb.

Tədbirdə şəhidin valideynləri və başqaları çıxış edib.

Sonda Qarabağ uğrunda həlak olmuş şəhidlərimizin ruhuna dualar oxunub.

# "Müəllim yalnız öyrədən deyil"

## Aynurə Bağırova: "Anladım ki, başqa peşədə çalışa bilməzdim"

Balakən rayonunun Gürcüstanla həmsərhəd olan Qazbölük kənd tam orta məktəbində müəllim işləyən Aynurə Bağırova 1993-cü ildə Bakı şəhərində anadan olub. 2011-ci ildə orta məktəbi, 2015-ci ildə isə Azərbaycan Dillər Universitetinin filologiya fakültəsini bitirib. Təhsil Nazirliyinin keçirdiyi müəllimlərin işə qəbulu imtahanında iştirak edərək 54 bal toplayıb. Şəhər mərkəzindən 22 km. aralıda yerləşən kənd məktəbində Azərbaycan dili və ədəbiyyat fənni üzrə müəllimlik fəaliyyətinə başlayıb. Aynurə xanımın işlədiyi məktəbə gedərək onunla həmsöhbət olduq:



- Əslində, müəllimlik mənim uşaqlıq arzum deyildi, amma müəllim kimi fəaliyyətə başlayanda anladım ki, mən başqa peşədə çalışa bilməzdim. Seçimimdən peşman deyiləm, sənətimi, şagirdlərimi çox sevirəm. Kəndə təzə gələndə çox çətinlik çəkirdim. İlk dəfə idi ki, ailəmdən ayrılmışdım və bundan əvvəl heç bir kəndə getməmişdim. Kənd həyatı barədə təsəvvürüm belə yox idi. Sonra kənd camaatının səmimiliyi və müəllim kollektivinin doğma münasibətilə qarşıma çıxan problemlərin öhdəsindən gələ bildim.

İlk dərs günüm həyəcanlı keçdi, şagirdlər məni sakit və maraqla qarşıladılar. Zaman keçdikcə birbirimizə öyrəşdik. Şagirdlərdən dərsə hazırlıqsız gələndə, onları çıxıb getməklə "hədələyirəm". Keçən il bir şagirdim mənə məktub yazmışdı ki, inşallah işiniz alınmaz və Bakıya qayıtmazsınız...

Seçimim məni qane edir, öz işimə getdikcə daha çox bağlanıram. Bu 2 ildə peşman olmamışam, Bakıdan kəndə müəllim işləməyə ailəmin məsləhəti və razılığı ilə gəlmişəm. Kollektivdə münasibətlərimiz çox yaxşıdır. Fərq ailəmdən ayrı olmağımdır. Tətillərdə isə evimizə gedirəm. Başqa heç bir problemim yoxdur.

Asudə vaxtlarımda kitab oxuyuram. Müəllim həmişə mütaliə etməli və özünü inkişaf etdirməlidir. Fəaliyyətimdə xarici ölkə ədəbiyyatı və dərsliklərindən istifadə edərək yeniliklər yaratmağı çox sevirəm. Təlim prosesinin mərkəzində şagird durur. Ona görə də bu günün şagirdi, yetişməkdə olan şəxsiyyət öz mühakiməsində azad olmalıdır. O, tənqidi düşünməyi, öz mövqeyini ağıllı şəkildə müdafiə, əldə etdiyi bilik və bacarıqları həyatda tətbiq etməyi bacarmalıdır. Ona görə də dərslərimdə şagirdlərimə bunları aşılamağa çalışıram. Axı müəllim yalnız öyrədici yox, həm də istiqamətverici̇dir.

Müəllim olmaq istəyənlərə tövsiyəm budur ki, seçdikləri peşəni sevsinlər. Çünki müəllimlik dünyanın ən müqəddəs və şərəfli peşəsidir .

Məktəbdə olarkən direktor Abakər Nəbiyev Aynurə müəllimdən həvəslə söhbət açdı. Dedi ki, bizim məktəbə gələn gündən o, öz davranışı, dəst-xətti, qabiliyyəti ilə seçilir. Bacarıqlıdır, dərslərini İKT-dən istifadə etməklə keçir. Təbii ki, müəllimin özünə, öz savadına, biliyi və bacarığına inamı varsa, o, heç bir yerdə büdrəməz. Bu gün Aynurə xanım gənc müəllim olsa da, qısa zamanda pedaqoji kollektivin, valideynlərin və şagirdlərin, ən əsası, kənd camaatının böyük hörmətini qazanıb.

**Vüsalə BƏDƏLOVA,**
*Balakən Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# "ASAN xidmət - Azərbaycan brendi" mövzusunda seminar

Sumqayıt Dövlət Universitetinin mətbuat xidmətindən aldığımız məlumata görə, SDU-nun YAP Gənclər Birliyinin təşkilatçılığı, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Sumqayıt "ASAN xidmət" mərkəzinin dəstəyi ilə keçirilən seminarı ali məktəbin Karyera Mərkəzinin müdiri Zahid Bünyadov açıb. Bildirilib ki, qarşılıqlı əməkdaşlıq universitetin tələbələrinə gələcəkdə "ASAN xidmət"də həm könüllülər təşkilatında, həm də dövlət strukturlarında işlə təmin olunma imkanları yaradır. "ASAN xidmət" Azərbaycan brendi kimi beynəlxalq tərəfdaşlar



və ekspertlər tərəfindən yüksək maraqla qarşılanır. Fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət prinsipləri əsasında qurulan "ASAN xidmət" Prezident İlham Əliyevin təşəbbüsü ilə məhz xalqın rifahı, vətəndaşın rahatlığı üçün yaradılıb.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN School" könüllülük məktəbinin rəhbəri, insan resursları və təlim şöbəsinin müdir müavini Cahangir Əliyev, ASAN könüllüləri təşkilatının idarə heyətinin üzvü və Sumqayıt "ASAN xidmət" mərkəzinin könüllülər üzrə məsul əməkdaşı Rəşad Məmmədov mərkəz haqqında ətraflı məlumat veriblər.

Sonda tələbələr "ASAN xidmət" mərkəzlərində yaradılan könüllülük imkanlarının gənclərin gələcək karyeraları üçün tələb olunan iş təcrübəsi və çoxşaxəli praktik vərdişlərinin formalaşdırılmasına mühüm töhfələr verdiyini qeyd ediblər.

## Qubada modul tipli məktəb binaları quraşdırılır

Quba rayonunda şagird sayı 100-dək olan 6 modul tipli məktəb binaları quraşdırılacaq. Belə binalar Çayqışlaq, Ördüc, Çarxaçu, Qarxun, Cağacıq və Zıxır kəndlərində quraşdırılacaq.

Quba Rayon Təhsil Şöbəsindən redaksiyamıza daxil olan məlumata görə, artıq 51 şagirdi olan Cağacıq kənd orta məktəbi üçün modul tipli məktəb binasının quraşdırılmasına başlanılıb. Səkkiz otaqdan ibarət olacaq binanın quraşdırılması bir aya yekunlaşacaq. Bu məktəblərin üstünlükləri azməsrəfli olması ilə yanaşı, qısa müddət ərzində istənilən relyefdə quraşdırılması, asan daşınması, şagirdlərin sayına uyğun olaraq sinif otaqlarının rahatlıqla azaldılıb-artırılmasıdır.

Modul tipli binaların quraşdırılması nəzərdə tutulan məktəblərin ikisi ibtidai, dördü isə ümumi orta təhsil ocaqlarıdır. Həmin məktəblərin əksəriyyəti dağlıq ərazidə yerləşir.

# Azərbaycan Ordusunun zabiti məktəblilərin qonağı olub

Qax rayon Ləkit kənd tam orta məktəbində Azərbaycan Silahlı Qüvvələrinin zabiti Ruslan Süleymanov ilə görüş keçirilib.

Tədbirdə məktəbin hərbi rəhbəri, təşkilatçı müavin, məktəb kitabxanaçısı, Uşaq Birliyi təşkilatının rəhbəri, psixoloq və VII-XI sinif şagirdləri iştirak ediblər. Görüşün təşkil olunmasında məqsəd şagirdlərdə hərbi vətənpərvərlik tərbiyəsini gücləndirmək, qorxmazlıq, dözümlülük kimi əxlaqi keyfiyyətlərin tərbiyə olunmasıdır. Vətənpərvərlik tərbiyəsi şagirdlərin vətəndaş kimi formalaşmasında, öz vətənini, ləyaqətini qorumaqda mənəvi təsir gücünə malikdir.



Hərbi rəhbər Balay Şəfiyev məktəblərdə vətənpərvərlik tərbiyəsinin, vətənə məhəbbət hissinin aşılanması, vətəni sevməyin ən ali hiss olduğu, vətənimizin ərazi bütövlüyü uğrunda öz canlarından keçmiş qəhrəman oğullarımızın igidliyi, eləcə də aprel döyüşlərində əsgərlərimizin göstərdiyi şücaət haqqında məlumat verib.

Sonda zabit Ruslan Süleymanov şagirdləri maraqlandıran sualları cavablandırıb və onlarla xatirə şəkli çəkdirib.

**Günay MAHMUDOVA,**
*Qax Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## Məktəb Şagird Parlamenti fəaliyyətini davam etdirir



E.Məmmədov adına İsmayıllı şəhər 3 nömrəli məktəb-liseydə ənənəvi olaraq cari tədris ilində Məktəb Şagird Parlamenti seçilib və fəaliyyət göstərir. Hazırda məktəbin ən qabaqcıl və bacarıqlı şagirdləri parlamentin işində iştirak etməklə, idarəçilik bacarıqlarına yiyələnirlər.

MŞP-nin 20 üzvündən İlknur Murad sədr, Cəfər Nağızadə müavin seçilməklə, digər üzvlər ayrı-ayrı komissiyalarda təmsil olunurlar. Parlamentin tərkibində təlim, mədəni-kütləvi işlər, intizam və sağlamlıq, hərbi vətənpərvərlik və idman işləri üzrə komissiyalar yaradılıb.

Məktəb Şagird Parlamentinin yığıncağında komissiyalar ay ərzində gördükləri işlər haqqında hesabat veriblər. Təkliflər dinlənilib və qarşıda MŞP-nin, o cümlədən komissiyaların məktəbdə görəcəyi işlər barədə qərar qəbul olunub.

**Sevda QASIMOVA,**
*E.Məmmədov adına İsmayıllı şəhər 3 nömrəli məktəb-liseyin direktor müavini*

# İntellektual yarışmaya start verilib

Saatlı şəhərində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Uşaqların IV Ümumrespublika Forumunda iştirak edəcək şagirdlərin seçilməsi məqsədilə regional görüş keçirilib. Görüşdə komitənin nümayəndələri, Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC-ın multimedia şöbəsinin müxbiri Lamiyə Mustafayeva və Hacıqabul, Şirvan, Sabirabad, Saatlı, İmişli, Biləsuvar, Beyləqan rayonlarının seçilmiş komandaları iştirak ediblər. Hər komanda 5 şagirddən ibarət olub.

Uşaq problemləri şöbəsinin böyük məsləhətçisi Pərviz Əliyev çıxış edərək komitə haqqında geniş məlumat verib. Həmçinin şagirdlər üçün AZƏRTAC-ın uşaq portalı haqqında qısa maarifləndirici film nümayiş olunub.

Sonra Uşaq problemləri şöbəsinin aparıcı məsləhətçisi Fərid Əbilovun rəhbərliyi ilə "Qələbəyə doğru" intellektual yarışmaya start verilib. Final qarşılaşmasında Sabirabad təmsilçiləri Hacıqabul komandasına üstün gələrək yarışmanın qalibi olub.

Azərbaycan Uşaqlarının IV Ümumrespublika Forumunda regionu Sabirabad rayonunun komandası təmsil edəcək. Forumun final mərhələsi Bakı şəhərində keçiriləcək.

**Xalid NƏCİYEV,**
*Saatlı Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*

# IV İslam Həmrəyliyi Oyunlarının təbliğinə həsr olunmuş kütləvi idman tədbirləri davam edir



IV İslam Həmrəyliyi Oyunlarının proqramına daxil edilmiş idman növlərinin məktəblilər arasında təbliğinə həsr olunmuş kütləvi idman tədbirləri çərçivəsində zona yarışları davam etdirilib.

Şəmkir Olimpiya İdman Kompleksində yunan-Roma güləşi, Xaçmaz Olimpiya İdman Kompleksində atletika, Şirvan Olimpiya İdman Kompleksində basketbol, Balakən Olimpiya İdman Kompleksində boks, Masallı Olimpiya İdman Kompleksində cüdo, Salyan Olimpiya İdman Kompleksində stolüstü tennis, Hövsan Olimpiya İdman Kompleksində karate idman növləri üzrə zona yarışları keçirilib.

900 nəfərə yaxın məktəbli idmançının qatıldığı yarışlarda yunan-Roma güləşi idman növü üzrə I yerə Gəncə, II yerə Goranboy, III yerə Şəmkir, atletika idman növü üzrə I yerə Xaçmaz, II yerə Xızı, III yerə Sumqayıt, basketbol idman növü üzrə I yerə Şirvan, II yerə Hacıqabul, III yerə Sabirabad, boks idman növü üzrə I yerə Balakən, II yerə Ağdaş, III yerə Ağsu, cüdo idman növü üzrə I yerə Masallı, II yerə Lənkəran, III yerə Biləsuvar, stolüstü tennis idman növü üzrə I yerə Salyan, II yerə Masallı, III yerə Neftçala, karate idman növü üzrə I yerə Nəsimi, II yerə Sabunçu, III yerə Suraxanı rayon və şəhərlərin komandaları layiq görülüb.

Qaliblər diplom, medal və hədiyyələrlə təltif edilib.

# İdmançılarımız beynəlxalq turnirə vəsiqə qazanıb

Aprelin 6-dan 10-dək İzmir şəhərində “Altınordu” Futbol Klubunun təşkilatçılığı ilə dünyanın ən böyük turnirlərindən olan “U-10 Champions Trophy” futbol yarışının Türkiyə üzrə seçmə yarışları keçirilib. Türkiyənin 40 futbol komandasının qatıldığı yarışa Azərbaycan Respublikası Təhsil Nazirliyinin “Vətən” İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Futbol Məktəbinin komandası da dəvət alıb.

Yarışlar qrup, yarımfinal və final olmaqla üç mərhələdə keçirilib. Finalda komandamız Türkiyənin “Bəylikgücü” futbol komandasını 7:0 hesabla məğlub edərək kubokun sahibi olub və “U-10 Champions Trophy” beynəlxalq turnirinə vəsiqə qazanıb. Turnirin ən yaxşı, eyni zamanda ən sərrast oyunçusu “Vətən” Futbol komandasının üzvü Anar Hüseynov seçilib. Beynəlxalq turnir iyunun 16-dan 18-dək Avstriyanın Vyana şəhərində keçiriləcək.

Yarışda iştirak edəcək “Vətən” futbol komandasının bütün xərcləri Türkiyənin “Altınordu” Futbol Klubu tərəfindən ödəniləcək.

“U-10 Champions Trophy” - 10 yaşlılar arasında dünyanın ən böyük və mötəbər futbol turniridir. Bu turnirə Avropa, Cənubi və Şimali Amerika, Asiya, Afrika, Avstraliyanın ən güclü futbol klublarının komandaları qatılır.

# Bakı Dövlət Universiteti İdman Akademiyasına qarşı




**Rəşad ZİYADOV**

Fevralın 22-dən start götürən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında futbol üzrə VII Respublika çempionatının yarımfinal mərhələsi aprelin 13-də baş tutub. Yarımfinal oyununda Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası ilə Azərbaycan Texniki Universitetinin, Bakı Dövlət Universiteti ilə Azərbaycan Memarlıq və İnşaat Universitetinin komandaları qarşılaşıb.

Final oyunu uğrunda mübarizədə Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının komandaları fərqləniblər. Bu komandalar aprelin 29-da Bayıl Arena stadionunda birincilik uğrunda mübarizə aparacaqlar. Həmin gün Azərbaycan Texniki Universitetinin və Azərbaycan Memarlıq və İnşaat Universitetinin komandaları isə III yer uğrunda meydançaya çıxacaqlar.

Xatırladaq ki, çempionat Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin (ATFF) 2016-2020-ci illər üzrə fəaliyyət planına əsasən, ATFF və Azərbaycan Futbol Federasiyası Assosiasiyasının təşkilatçılığı, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Azərbaycan Sahə Futbol Federasiyasının dəstəyi ilə keçirilir.

FİFA-nın mövcud qaydaları əsasında keçirilən oyunlar AFFA-nın Hakimlər Komitəsinin təsdiq etdiyi hakimlər heyəti tərəfindən idarə olunur.

Çempionatda I, II və III yerləri tutan komandalar diplom, kubok, medal və qiymətli hədiyyələrlə mükafatlandırılacaq. Həmçinin təsis edilmiş 5 nominasiya üzrə seçiləcək tələbə futbolçular xüsusi mükafatlarla təltif olunacaq.

# “Düşmən təmsilçisini 15 saniyəyə nokaut etdim”

## *Fərid Ağayev, dünya çempionu:*
## “Erməni tatamiyə çıxmağına peşman oldu”



**Rəşad ZİYADOV**

- 6 yaşımdan üzgüçülüklə, daha sonra cüdo, həndbol, yüngül atletika ilə məşğul oldum. Deyim ki, yüngül atletika çox çətin idi, amma ciddi şəkildə məşğul olurdum. 2-ci sinifdə oxuyurdum, məktəbdə indiki məşqçi müəllimlərim Gündüz Mahmudov və Namiq Pirverdiyev idmanın karate növünə marağı olan şagirdlərlə söhbətlər apardılar. Onlar mənim idmana olan marağımı bildikdən sonra, təbii ki, valideynlərimin razılığı ilə karate məşqlərinə dəvət etdilər. Həmin vaxtdan karateyə tükənməz sevgi ilə bağlandım.

**- Fərid, indiyə kimi hansı uğurlara imza atmısan və ilk yarışın necə xatırlayırsan?**

-2009-cu ilin may ayında klublar arasında çempionat keçirilirdi. 200-ə yaxın karateçinin iştirak etdiyi çempionatda mən bütün rəqiblərimi verilən vaxtdan qabaq məğlub edərək I yeri tutdum. İlk yarışım olduğu üçün çox həyəcanlı idim. Ancaq müəllimlərimin və zalda olan dostlarımın dəstəyi ilə həyəcanımı boğa bildim və qalib oldum. Sonradan klublar və cəmiyyətlər arasında təşkil olunan turnirlərdə dəfələrlə yaxşı nəticələr göstərdim. İki ildən sonra Türkiyənin İstanbul şəhərində keçirilən dünya çempionatına hazırlaşdım. 2012-ci ilin yanvar ayında 9 yaşımda İstanbul şəhərində 35-ə yaxın ölkədən 1500 idmançının qatıldığı dünya çempionatında iştirak etdim. Bu çempionatda mən komanda və şəxsi hesabda 2 qızıl, 1 bürünc medal qazandım. Bu yarış mənim üçün çox yaddaqalan oldu.

### “Müəllimlərimə dedim ki, düşmən ölkənin təmsilçisini məğlub etməliyəm”

Yarımfinal oyununda mən mənfur düşmənlərimizin nümayəndəsi olan erməni karateçisiylə qarşılaşdım. Erməni idmançısı uğurları və göstəriciləri ilə məndən üstün idi. Buna baxmayaraq, mən müəllimlərimə dedim ki, düşmən ölkənin nümayəndəsini məğlub etməliyəm. Tatamiyə çıxanda onunla qarşılaşdım, gözlərinə baxdım və pələngə döndüm. Müəllimlərim danışır ki, Fərid, sən erməniyə elə nifrətlə baxırdın ki, o, həmin anı və yarışı heç vaxt yadından çıxarmayacaq. İmkan verməzdim ki, erməninin bayrağı, uğrunda canımızı qurban verdiyimiz üçrəngli bayrağımızdan üstün olsun. Yarış başlayan kimi gözlərimin önünə Xocalı qətliamı gəldi. Balaca uşaqların, anaların, bacıların, yaşlıların faciəvi şəkildə qətlə yetirilməsi videolent kimi gözümdə canlandı. Erməni tatamiyə çıxmağına peşman oldu. Yarış normalda 2 dəqiqə olur, amma mən düşmən təmsilçisini 15 saniyədə daban zərbəsi ilə başını əzdim, nokaut etdim. Hakimlər onu sürüyərək zaldan çıxardılar.

Sonra 2012-ci ilin avqust ayında Yunanıstanda 26 ölkədən 1000-ə yaxın idmançının iştirak etdiyi Avropa çempionatında da gücümü sınadım və bürünc medal qazandım. Bundan başqa, 2013-cü ilin iyun ayının əvvəllərində Gürcüstanın Batumi şəhərində 10-a yaxın ölkədən 600-ə yaxın idmançının iştirakı ilə keçirilən prezidentlər kuboku uğrunda beynəlxalq turnirdə çempion oldum. Həmin ilin noyabrında Türkiyənin Trabzon şəhərində “Trabzon open” beynəlxalq turnirində 1 qızıl, 1 bürünc medala layiq görüldüm. 2014-cü ildə Polşada keçirilən dünya çempionatında 30-a yaxın ölkədən 1500-dən çox karateçi iştirak edirdi. Onların arasında mən fərqlənərək III yerə çıxdım. Sonra 2014-ci ilin ortalarında Xəzəryanı dövlətlər arasında keçirilən “Caspian cap” kuboku turnirində 45 kq çəki dərəcəsində fəxri kürsünün ən yüksək pilləsinə qalxdım.

2016-cı ildə 14 yaşım tamam oldu. Mən respublika çempionatlarında iştirak etmək hüququ qazandım. 2016-cı ilin əvvəlində 14 yaşlı yeniyetmə karateçilər arasında Azərbaycan çempionatı keçirildi. Həmin çempionatda bütün rəqiblərimi tam qələbə ilə məğlub edərək ölkə çempionu oldum. Sonra milli komandanın tərkibində daha böyük yarışlara qatılmağa başladım. Belə ki, 2016-cı ilin aprel ayında Türkiyənin Konya şəhərində, avqustda isə milli komandanın tərkibində İran İslam Respublikasının Urmiya şəhərində yeniyetmələr arasında keçirilən beynəlxalq turnirlərdə iştirak edərək bürünc medala layiq görüldüm. Keçən ilin noyabrında İsveçrədə keçirilən Avropa çempionatında 2 qızıl medal qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxdım. 2017-ci ilin mart ayında milli komandaya yenidən üzv seçilmək üçün turnir keçirildi. Həmin turnirdə də rəqiblərimi tam qələbə ilə məğlub edərək I yerə yüksəldim.

*Ağayev Fərid Eldəniz oğlu 2002-ci ildə Bakıda anadan olub. 2009-cu ildən – 7 yaşından karate ilə məşğul olur. 2012-ci ildə Türkiyənin İstanbul şəhərində keçirilən və 35 ölkədən 1500-ə yaxın idmançının qatıldığı dünya çempionatının qalibidir. Bakıdakı 189-190 nömrəli tam orta məktəbin IX sinfində oxuyur.*

### “Ən böyük arzum olimpiya çempionunun keçirdiyi hissləri yaşamaqdır”

Fikrimcə, qələbə üçün birinci insanın özünə inamı olmalıdır. İkincisi, böyük əzm və zəhmət lazımdır. İdman gərginlikdir, idman zəhədir. Birinci olmaq heç də asan deyil. Bunun üçün bütün çətinliklərə qatlaşdım və sonda istəyimə çatdım. Əldə etdiyim medallar mənim karyeramda ikinci ən böyük uğurumdur. Keçirdiyim hissləri sözlə ifadə edə bilmirəm. Qızıl mükafat uzun müddət çəkdiyim əziyyətin, tökdüyüm göz yaşlarının bəhrəsidir.

**- Qidalanmaya necə fikir verirsən?**

- İdmançı qidalanmasına fikir verməlidir. Bizim qidalar, yeməklər çox dadlıdır, ancaq insan üçün çox ziyanlıdır. Bədən də nə qədər təmiz olsa, həm mənəvi, həm fizioloji baxımdan sağlam olur. Mənim çəldliyim yediklərimlə əlaqədardır. Əsasən, ən çox balla qidalanıram, ildə 10-15 kiloqram bal yeyirəm. Dönər və “fəst food” yeməklərindən çox uzağam. Göyərtidən çox istifadə edirəm. Meyvələrə üstünlük verirəm. Düyü ən rahat həzm olunan qidadır, amma aş-qara ilə yeyəndə saatlarla həzm olunmur. Düyü bədəndəki çöküntüləri təmizləyir.

**- Günün hansı saatları məşqə vaxt ayırırsan?**

- Hər gün tezdən saat 6:00-da yuxudan dururam. 1 saat həyətdəki meydançada qaçıram. 8-in yarısına kimi məşqimi edib, sonra məktəbə gedirəm. Bir də saat 4-dən sonra yığma komandada məşqçi müəllimim Anar Allahverdiyevlə məşqlərimi edirəm. Şəxsi məşqçilərim Gündüz Mahmudov və Namiq Pirverdiyevin yanına isə axşam saat 8-dən sonra gedirəm. Fürsətdən istifadə edib mənim üzərimdə əziyyəti olan bütün müəllimlərimə minnətdarlığımı bildirirəm.

**- Məktəbdə dərslərini necə oxuyursan?**

- Baxmayaraq ki, idmanla məşğul oluram, ancaq dərslərimi də yaddan çıxarmıram. Düşünürəm ki, idmançı olsam da, savadlı olmaq vacibdir. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına qəbul olmaq arzusundayam.

**- Hər hansı mübahisəli məsələni necə həll edirsən?**

- Davadan uzaq olmağa çalışıram. Bunun üçün bəzi şeyləri eşitməzliyə vurmaq lazım gəlir. Məsələn, bir dəfə küçədə mənə söz atıblar, bir hərəkət göstərmişəm, başa düşüblər ki, olmaz. Zarafatcılam. Sinif yoldaşlarımla dost münasibətlərimiz var. Dostlarım məni “sakit çempion” adlandırır.

**- Həmyaşıdlarına hər hansı məsləhətin varmı?**

- Fikrimcə, idman sağlamlıqdır, idman rejim, mübarizədir. İdman həyata bir sağlam baxış formasıdır.




Həmyaşıdlarıma bir sözüm var. Vaxtlarını səmərəli, dəyərli və mənalı keçirsinlər. Pis vərdişlərdən uzaq olsunlar. Uşaqlıqdan arzuladıqları hər hansı bir peşənin dalınca getsinlər. Əziyyət çəkməkdən qorxmasınlar. Unutmasınlar ki, istənilən bir uğuru əldə etmək üçün mübarizə və zəhmət lazımdır.

Yeri gəlmişkən, bir hadisəni danışmaq istəyirəm. Qış vaxtı idi. Möhkəm qar yağmışdı. Hər yer buz içində idi. Mən də yarışa hazırlaşırdım. Səhərlər 2 saat kross qaçmalı idim. Həmin qaçış müddətində mən, bəlkə də 10-15 dəfə yerə yıxılırdım, əzilirdim. Bəlkə də mənim yerimə kim olsa idi, qaçışa ara verərdi. Amma mən bunu etmədim və bunun bəhrəsini yarışda gördüm, çempion oldum.

**Ceyran Kuliyeva,** Bakıdakı *189-190 nömrəli tam orta məktəbin direktoru:*

- Fərid bizim məktəbimizin fəxridir. Biz bəzən onu məktəbimizdə digər idmançı şagirdlərə də nümunə göstəririk. O, nizam-intizamlı, müəllimlərinə və şagirdlərə qarşı olduqca nəzakətli, mədəni bir oğlandır. İstərdim ki, şagirdlərimiz Fəriddən nümunə götürsünlər. Onda əsl idmançı xarakteri var. Məktəbimizdə keçirilən tədbirlərdə Fəridin idmanla bağlı çıxışları olur. Rayon üzrə keçirilən tədbirlərdə də Fərid nəinki karatedə, həm də basketbol və futbol oyunlarında məktəbimizi layiqli təmsil edib. Bu yaxınlarda - aprelin 7-də məktəbimizdə IV İslam Həmrəyliyi Oyunları ilə bağlı idman tədbiri keçirdik. Tədbirimizdə fəxri qonağımız da var idi. “Bakı 2017” İslam Həmrəyliyi Oyunlarının əməliyyat komitəsinin sədri Elçin Səfərov tədbirimizdə Fəridin çıxışını bəyənərək ona xüsusi mükafat təqdim etdi. İstərdim ki, bugünkü yeniyetmə və gənclərimiz də Fərid kimi olsunlar, pis vərdişlərdən uzaq dursunlar, yaxşı işləri ilə seçilsinlər. Yaxşı oxusunlar, idmançı və yaxşı incəsənət adamı olsunlar. Sevindirici haldır ki, ölkəmizdə yeniyetmə və gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün dövlətimiz tərəfindən yüksək səviyyədə şərait yaradılıb. Yeni, müasir standartlara cavab verən idman kompleksləri var. Ölkəmizdə idmana, idmançılara böyük dövlət qayğısı var, cənab Prezidentin dəstəyi ilə idman və bədən tərbiyəsinin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib.

Bütün Azərbaycan gəncliyinə səslənərək, onları Azərbaycan idmanının bugünkü uğurlarından bəhrələnməyə, sağlam həyat tərzi keçirməyə dəvət edirəm. Unutmaq olmaz ki, sağlam bədəndə sağlam ruh olar.

ELM XƏBƏRLƏRİ

# Yumşaq robot - skat hazırlanıb



Yusif ƏLİYEV

Skat balığına oxşayan robot hazırlanıb. Lakin balığın hərəkətlərini təqlid edən yeni robot nə mühərrikə, nə də vint turbininə malik deyil, buna baxmayaraq çox məharətlə və sürətlə üzür. Qurğunun yaradıcısı, Çinin Çjeszyans Universitetinin əməkdaşı Tefen Li hesab edir ki, bu kimi elastik konstruksiyalar qənaətli olmaqla yanaşı, tədqiqat məqsədli pilotsuz sualtı gəmilər üçün də təhlükəsizdir. Onlar gəmi qalıqları və mərcan riflərini araşdıra biləcəklər.

"Science Advances" jurnalında dərc edilmiş məqalədə Li və onun həmmüəllifləri üzən elastik aparatı distant idarəetmə ilə təsvir edirlər. Zahirən o, 90 qram çəkisi və 18,5 santimetr uzunluğu olan xırda skat balığını xatırladır.

**www.news.rambler.ru** saytının məlumatına görə, litium batareyası üç saat fasiləsiz üzmək üçün onu enerji ilə təmin edir. Quyruğu hərəkətə gətirən bu batareya və iki elektromaqnit qurğunun yeganə sərt hissələridir. Yumşaq robotlar dəniz dibinin xəritəsini tərtib edə və suyun altında kəşfiyyat apara biləcəklər.

Robotun şəffaf "əzələləri" üzərinə qoyulmuş gərginlikdən asılı olaraq formasını dəyişdirən elektroaktiv polimerdən ibarət yumşaq dielektrik elastomerdən hazırlanıb. Bu, qurğuya "qanad"larla hərəkət etməyə və suda saniyədə 6 santimetr sürətlə irəliləməyə imkan verir. Müəlliflər bildirirlər ki, bu, əsl skatdan daha yavaş olsa da, əvvəlki oxşar aparatın rekord göstəricisiylə müqayisədə iki dəfə sürətlidir. Lakin robot sübut etdi ki, balaca videokamera ilə temperaturu 0,4-dən 74°C-yə qədər olan suda üzə bilər. Elastomerə gərginlik verildikdə o, sudan elektronları çəkir, öz formasını dəyişir və robotun "qanad"larını azca qaldıraraq müsbət yükü əldə edir.

# İlk holoqrafik videozəng



"Verizon" və "Korean Telecom" mobil operatorları 5-ci nəsil şəbəkələrindən istifadə etməklə Cənubi Koreyanın Seul və ABŞ-ın Nyu-Cersi şəhərləri arasında dünyada ilk holoqrafik videozəngi həyata keçiriblər. Nümayiş zamanı "Korean Telecom"un əməkdaşı şirkətin qərargah binasında monitorda holoqram kimi əks olunan "Verizon" şirkətinin əməkdaşı ilə videogörüş keçirib. Hər iki şirkətin nümayəndələri bildiriblər ki, bu, 5G şəbəkələrində dünyada ilk uğurlu şəbəkələrarası məlumat mübadiləsi olub.

**www.4pda.ru** saytının məlumatına görə, "Korean Telecom" 5-ci nəsil şəbəkələri əsasında aparıcı multimedia xidmətlərindən biri kimi holoqrafik onlayn zəng texnologiyasını hazırlayır. Bundan başqa, şirkət hazırda Beynəlxalq Telekommunikasiya İttifaqı tərəfindən araşdırılan "Sync View" (virtual reallıqda 360 dərəcə onlayn translyasiyalar) və "Omni-View" xidmətlərini istifadəyə vermək niyyətindədir.

Məlumatların ötürülməsi üçün yüksək sürət və böyük həcmli trafik tələb edən səsli holoqram xidmətinin təmin olunmasında 5G sahəsində qlobal əməkdaşlıq böyük əhəmiyyətə malikdir. 5G kommersiya şəbəkəsi istifadəyə verildikdə 3D-holoqramlı videoreklam 5G əsasında nümunəvi xidmətlərdən biri kimi əlçatan olacaq. Tam ekranda əks olunan holoqramlı videozəng sayəsində istifadəçilər hər hansı bir şəxslə real vaxt rejimində görüşə biləcəklər.

Qeyd edək ki, 5G mobil şəbəkəsinin 2020-ci ildə kommersiya istismarına verilməsi nəzərdə tutulur.

# Üzün tanınması sistemi sınaqdan keçirilib




"Samsung" şirkətinin nümayəndəsi Galaxy S8 və Galaxy S8 Plus-un yeni flaqman smartfonlarının nümayişi zamanı qurğunun kənar şəxslərdən müdafiəsi üçün nəzərdə tutulmuş beş üsul haqqında məlumat verib. Parol, qrafik açar və daktiloskopik tənzimləyicidən başqa, smartfon üzün tanınması sistemi və gözün qüzehi qişasının skaneri ilə də təchiz olunub.

**www.24gadget.ru** saytının məlumatına görə, bu üsulların hamısından birgə istifadə etmək mümkün deyil və qurğunun sahibi yalnız birini seçə bilər. Hər iki yeni variant maraqlıdır: qüzehi qişanın skan edilməsi kifayət qədər etibarlı müdafiə olsa da, bir qədər vaxt tələb edir. Bunun üçün gözü tənzimləyiciyə yaxınlaşdırmaq lazımdır. Üzün tanınması isə daha rahat və sürətli hesab olunur, bunun üçün smartfonu sadəcə əldə saxlamaq kifayətdir. Lakin bloqqerlərdən biri bu üsulun etibarlı olmadığını sübut edib. Belə ki, Galaxy S8-in ön kamerası ilə eksperiment zamanı digər smartfonun ekranında əks olunmuş fotodan istifadə olunub. Ekrandakı işıq zolağına baxmayaraq aparat istifadəçinin üzünü tanıyıb və telefonu blokdan çıxarıb. Məlum olub ki, "Samsung" şirkətinin tətbiq etdiyi üzün tanınması texnologiyası hələ ki, smartfonu təhlükəsizlik blokundan çıxarmaq üçün yox, əyləncə üçün yararlıdır.

**İKT.az saytının materialları əsasında**

## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Baş redaktor** Nurəddin Heydərov — n.heydarov@media.edu.az 538-21-66
**Baş redaktor müavini** Sarvan İbrahimov — s.ibrahimov@muallim.edu.az 538-21-55
**Məsul katib** Elman Əbdülov — e.abdulov@muallim.edu.az 510-68-73
**Elm və təhsil şöbəsi** Yusif Əliyev — y.aliyev@muallim.edu.az 538-51-41
**Beynəlxalq əlaqələr şöbəsi** Oruc Mustafayev — o.mustafayev@muallim.edu.az 538-67-41
**İnformasiya şöbəsi** Niyazi Rəhimov — n.rahimov@muallim.edu.az 538-66-05
**Gənclik və yaradıcılıq şöbəsi** Samirə Kərimova — s.kerimova@muallim.edu.az 539-19-74
**Məktublar şöbəsi** Şakir Cəfərov — sh.cafarov@muallim.edu.az 539-64-00
**Mühasibatlıq** 539-67-74
**Kompüter mərkəzi** 539-07-98
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X
"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ12 IBAZ38060019443164986216
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6226, **Sifariş** 1043
**Məsul növbətçi:** N.Rəhimov

## ELAN

**1982-ci ildə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunu (indiki Azərbaycan Dillər Universiteti) bitirmiş məzunların nəzərinə**

2017-ci ildə institutu bitirməyimizin 35 ili tamam olur. Bu məqsədlə həmin ilin məzunları ilə "35 ildən sonra" adlı görüşün keçirilməsi nəzərdə tutulur. Məzunlardan xahiş olunur ki, əlavə məlumat almaqdan ötrü Təşkilat Komitəsi ilə əlaqə saxlasınlar:
Əlihüseyn Həsənov (050) 210-89-75; (055) 210-89-75
Azad Abdullayev (050) 365-96-37; (055) 365-96-37

**Təşkilat Komitəsi**

# Etibarsız sayılır

**Abşeron rayonu** Xırdalan şəhər 3 nömrəli lisey-məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Babayev Kamran Kənan oğluna verilmiş A-806152 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu** tərəfindən 1996-cı ildə Kamalova Gülnarə Məzahir qızına verilmiş AB-I-009897 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Dövlət Humanitar Kolleci** tərəfindən 2014-cü ildə Hüseynov Hüseyn Şakir oğluna verilmiş A-054130 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 1999-cu ildə Fətəliyev Əli Fəxrəddin oğluna verilmiş A-039782 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2016-cı ildə Bağırova Ayşən Əvəz qızına verilmiş A-100108 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası (ADNSU)** tərəfindən 2013-cü ildə Mahmudova Gülşən Atacan qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Tibb Məktəbi** tərəfindən 1981-ci ildə Abdurahmanova Hürü Ata qızına verilmiş BT-054086 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayonu** 150 nömrəli köçkün tam orta məktəbini 2010-cu ildə bitirmiş Nəzərova Mələk Mahir qızına verilmiş B-748845 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayonu** Otuziki kənd tam orta məktəbinin IX sinfini 2011-ci ildə bitirmiş Babaşov İlkin Məhərrəm oğluna verilmiş A-027408 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağdam Kənd Təsərrüfatı Mexanikləşdirmə və Elektrikləşdirmə Texnikumu** tərəfindən 1979-cu ildə Tağıyev Mətləb Mənsim oğluna verilmiş 043670 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayonu** Əsədli kənd tam orta məktəbini 2007-ci ildə bitirmiş Soltanov Xəlil Xalıq oğluna verilmiş B-392052 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayonu** Şəhriyar kənd tam orta məktəbini 2005-ci ildə bitirmiş Əliyeva Pərvin Əlikram qızına verilmiş A-141597 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayonu** Novosaratovka kənd tam orta məktəbini 2006-cı ildə bitirmiş Bədəlova Mərziyə Müseyib qızına verilmiş B-294601 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayonu** Dəmirçi kənd tam orta məktəbini 2006-cı ildə bitirmiş Məmmədov Rac Vəli oğluna verilmiş A-243771 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayonu** Dəllər-Cırdaxan kənd tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Əmiraslanova Nigar Hüseyn qızına verilmiş B-323425 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2016-cı ildə İsmayılova Ülkər Habil qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Kolleci** tərəfindən 2016-cı ildə Hümbətova Rüfanə Süleyman qızına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 7 nömrəli tam orta məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Quliyeva Elnarə Telman qızına verilmiş 078872 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayonu** Köhnəqala kənd tam orta məktəbini 1998-ci ildə bitirmiş Kazımova Qönçə Aydın qızına verilmiş 244447 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 1 nömrəli tam orta məktəbi 1984-cü ildə bitirmiş Mehdiyev Rüfət Elamdar oğluna verilmiş A-956038 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 38 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Rüstəmova Zəhra Cəmaləddin qızına verilmiş B-250236 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 3 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Babayev Arzu Niyazi oğluna verilmiş B-510111 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 44 nömrəli məktəb-lisey kompleksini 2004-cü ildə bitirmiş Ələkbərova Zenfira Pərviz qızına verilmiş 115406 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 13 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş İbrahimli Natiq Namiq oğluna verilmiş B-137840 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən (ADNSU) 2015-ci ildə Məmmədov Elnur Murtuz-Əli oğluna verilmiş A-055522 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayonu** Ovçubərə kənd tam orta məktəbini 2009-cu ildə bitirmiş Süleymanov Cəlil Qələm oğluna verilmiş 545296 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Astara rayonu** Miki kənd tam orta məktəbini 2010-cu ildə bitirmiş Əliyev Rasif Seyidəhməd oğluna verilmiş B-705097 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 258 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Əkbərova Tutuxanım Vahid qızına verilmiş B-496657 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayonu** 48 nömrəli köçkün tam orta məktəbini 2005-ci ildə bitirmiş Rüstəmova (Süleymanova) Arzu Xaləddin qızına verilmiş B-148811 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dəniz Məktəbi** tərəfindən 1995-ci ildə Seminin Sergey Vladimiroviçə verilmiş 791847 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1997-ci ildə Əliyeva Nahidə Rafiq qızına verilmiş AB-I-069165 nömrəli diplom və 1998-ci ildə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayonu** 31 nömrəli tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Həsənli Türkan Mətləb qızına verilmiş 829068 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayonu** 2 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Mirzəyeva Rəvanə Ziyad qızına verilmiş 571981 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 9 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Əlizadə Namiq Vəli oğluna verilmiş 000504 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2014-cü ildə Quliyeva Nərminə İlyas qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası (ADNSU)** tərəfindən 1996-cı ildə Petrov Yevgeni Vladimiroviçə verilmiş AB-I-039986 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 208 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Zeynalova İlahə Qara qızına verilmiş A-566775 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 267 nömrəli məktəb-liseyi 2011-ci ildə bitirmiş Rzayeva Nurlana Əliyusif qızına verilmiş A-009578 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayonu** Əskipara kənd tam orta məktəbini 2015-ci ildə bitirmiş Kamalzadə Şəhriyar Faiq oğluna verilmiş A-470713 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** nəzdində Maliyyə-İqtisad Kolleci tərəfindən 2013-cü ildə Əliyev Əkbər Natiq oğluna verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

**Xocavənd rayonu** Tuğ kənd 1 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Qurbanov Ülvi Şakir oğluna verilmiş B-665271 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayonu** Şirinbəy kənd tam orta məktəbinin qiyabi şöbəsini 2003-cü ildə bitirmiş Mühəmmədov İlham Dursun oğluna verilmiş A-687574 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Kollecini** (indiki ADPU-nin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci) 2008-ci ildə bitirmiş Cəfərova (Cahangirova) Pərvanə Nicat qızına verilmiş BB-II-073799 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci** tərəfindən 2006-cı ildə İsmayılova Ülvi Adil qızına verilmiş BB-II-041707 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayonu** Göytəpə şəhər 2 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Sadıxova Aynurə Tahir qızına verilmiş 679174 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayonu** Əliqasımlı kənd tam orta məktəbini 1995-ci ildə bitirmiş Kazımova Gültəkin Abuzər qızına verilmiş 20 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2012-ci ildə Saeid Rasouli Asghara verilmiş BC-I-020548 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2016-cı ildə Həsənov Emil Natiq oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 30 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Məmmədov Elmin Elman oğluna verilmiş A-527784 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala şəhər** 1 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Güləhmədov Süleyman Bağır oğluna verilmiş A-104185 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 16 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Rəhimova Ülkər Fəxrəddin qızına verilmiş A-053931 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 17 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Nəbiyeva Aynur Şahin qızına verilmiş B-263710 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 81 nömrəli tam orta məktəbi 1976-cı ildə bitirmiş Anderson Natalya Karlovnaya verimiş 933627 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayonu** Hindarx qəsəbə 1 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Muxdarova Aybəniz Yunis qızına verilmiş 072765 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayonu** Əlisoltanlı kənd tam orta məktəbini 2005-ci ildə bitirmiş Nuriyeva (Hüseynova) Aysel Xəqani qızına verilmiş B-305736 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı şəhər** 5 nömrəli tam orta məktəbi 1980-ci ildə bitirmiş Ələkbərov Fərman Məhərrəm oğluna verilmiş 441239 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəniz Balıq Sənayesi Kolleci** tərəfindən 2011-ci ildə Qulamlı Orxan Rafiq oğluna verilmiş BB-II-116480 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 14 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Nəcəfov Samir Elxan oğluna verilmiş A-032117 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 251 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Mahmudov Rüfət Adil oğluna verilmiş A-014573 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 251 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Mahmudov Emil Adil oğluna verilmiş A-096518 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayonu** Safikürd kənd tam orta məktəbinin IX sinfini 2013-cü ildə bitirmiş Əliyev Fərid Zinəddin oğluna verilmiş A-336582 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayonu** Bəcrəvan kənd tam orta məktəbini 2006-cı ildə bitirmiş Abışov Fədayət Hidayət oğluna verilmiş B-346453 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1993-cü ildə Məmmədova Nərgiz Eyvaz qızına verilmiş ЦВ-838591 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 273 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Məmmədov Heydər Məhəmməd oğluna verilmiş A-519451 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 193 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Əliyev Yaroslav Məhəmmədoviçə verilmiş A-252943 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 114 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Harunov Elçin Azər oğluna verilmiş A-019538 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 2 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş İdrisov Təbriz Ağami oğluna verilmiş B-656150 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 2 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Mustafayeva Nurlanə Məmmədşah qızına verilmiş A-045477 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 17 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Əhmədova Pərvanə Əhməd qızına verilmiş 118283 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı şəhər 18 nömrəli tam orta məktəbin rəhbərliyi və pedaqoji kollektivi məktəbin müəllimi Təranə Hacıyevaya anası

**XANIM HƏŞIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı şəhər 18 nömrəli tam orta məktəbin rəhbərliyi və pedaqoji kollektivi məktəbin müəllimi olmuş

**MƏTANƏT MİRZƏYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun əzizlərinə dərin hüznlə başsağlığı verirlər.

Bakı Dövlət Universiteti nəzdindəki "Gənc istedadlar" liseyinin kollektivi liseyin müəllimi Xalidə Musayevaya atası

**QADİR MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish

## Myths and legends – Caribbean (Haiti)

by Jon Porter

Voodoo is a religion of the Caribbean that involves magic and ghosts. Haiti, where this story comes from, is a country in the Caribbean.

### Activity 1

Before you read, decide which word goes with which meaning.

| | | |
|---|---|---|
| **1.** balance | **2.** creation | **3.** rainbow |

**a.** a half circle of seven colours that you see in the sky when it is raining and the sun is shining
**b.** the act of making something, especially the world
**c.** when two things have equal importance

### Damballah the snake god

The voodoo god Damballah, **who** was a snake, created the world. He used his huge body to make the planets and the stars. When he changed his skin, like snakes do, this caused great floods, **which** created all the waters of the world, all its oceans, lakes and rivers. As Damballah moved through these waters, his snake body made all the valleys and mountains of the Earth.

Next, Damballah used lightning to make metals, rocks and stones. When the sun appeared through the clouds, a rainbow was born. Damballah called the rainbow Ayida Wedo and he loved her, so he made her his wife. Perhaps he loved her because of her colours, because Damballah himself is made of many colours, like a rainbow. They are still together today, the snake god and the rainbow. While Damballah is the snake god of the Earth, Ayida Wedo is the snake god of the sky.

Together Damballah and Ayida Wedo bring male and female balance to the world. They created the first city, **where** all later human power and creation comes from. Once they had finished this great city, the first of the other gods came down to live in it.

Damballah is the king of the Caribbean voodoo gods. He is usually seen living in trees near water, such as lakes or rivers. He is also the god of fertility, **which** is about having children, and he is the father of all the other voodoo gods. In Haiti he is called the 'good god' because he is quiet and kind.

### Activity 2

Decide if the following sentences are true or false, depending on the information in the text.

1. Damballah used lightning to create the first rainbow.
2. Damballah created the waters before he created the mountains and valleys.
3. Damballah is the god of the Earth and Ayida Wedo is the god of the sky.
4. Damballah, Ayida Wedo and the first of the other gods created the great city together.

### Activity 3.1

Notice the use of the words **who**, **which** [twice] and **where** in the text. These words replace nouns previously mentioned. Which noun in the text is being replaced by each of the words above?



© Hannah Eaton/British Council

### Activity 3.2

Now use these words, **who**, **which** [x2] and **where**, to complete the gaps.

1. My brother, ......... is a banker, lives in Dubai.
2. The Andes, ......... the Incas came from, is the longest mountain chain in the world.
3. I read an interesting book recently, ......... was about myths and gods.
4. He drives a Ferrari, ......... is my favourite car..

### Activity 4

Do you have any 'creation myths' in your country/culture? How are they similar to or different from the Damballah voodoo story?

### Answers

**Activity 1**
1. c; 2. b; 3. a

**Activity 2**
1. False; 2. True; 3. True; 4. False

**Activity 3.1**
who: Damballah; which [1]: floods; where: the city; which [2]: fertility

**Activity 3.2**
1. who; 2. where; 3. which; 4. which

**To find more English language activities visit www.britishcouncil.org/learnenglish**

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2017